**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**GƏNCƏ BÖLMƏSİ**

***Xəlil Yusifli,***
***Samir Pişnamazzadə,***
***Elnur Həsənov***

# *NİZAMİ GƏNCƏVİNİN ŞƏCƏRƏ TARİXİ*

**GƏNCƏ - 2021**

***Kitab dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyi münasibəti ilə Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsinin Rəyasət Heyətinin qərarı ilə nəşr olunur.***

**Layihə rəhbəri:** Əməkdar elm xadimi,
akademik ***Fuad ƏLİYEV***

**Müəlliflər:** Əməkdar elm xadimi,
professor ***Xəlil YUSİFLİ***

Tarix üzrə fəlsəfə doktoru
***Samir PİŞNAMAZZADƏ***

Baş mütəxəssis ***Elnur HƏSƏNOV***

***Nizami Gəncəvinin şəcərə tarixi, Gəncə 2021, 182 səh.***

***Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi şəcərəsinin tarixi və bu nəslin yetişdirdiyi görkəmli elm, mədəniyyət və dövlət xadimlərinin həyat və fəaliyyəti elmi əsaslarla tədqiq olunmuşdur. Monoqrafiyada Şeyx Nizaminin Gəncə şəhərini tərk etmədən yüksək təhsil aldığı və öz dövrünün elmlərini mükəmməl surətdə öyrəndiyi tarixi mənbələr əsasında araşdırılmışdır.***

**İJBN 5 – 8066 – 1638 – 4**

**1401000000**
**655 (07) – 2004**

**«*ELM*» nəşriyyatı.**



***Nizami Gəncəvi bizim zəngin mədəniyyətimizin tarixinin parlaq nümunəsidir.***

**Heydər Əliyev**
**Ümummilli lider**



***Azərbaycan xalqının böyük oğlu Nizami Gəncəvinin dahiyanə əsərləri dünya mədəniyyətinin qızıl fondunun ən parlaq nümunələrini təşkil edir.***

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Azərbaycan Respublikasında 2021-ci ilin “Nizami Gəncəvi İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır.

Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaradaraq, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirmişdir. Nizami Gəncəvinin geniş şöhrət tapmış “Xəmsə”si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan vermişdir.

Nizami dühası hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olmuşdur. Ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanmış, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilmişdir. Nizaminin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılmışdır. Mütəfəkkir şairin doğma şəhəri Gəncədə məqbərəsi, Bakıda, Sankt-Peterburqda və Romada heykəlləri ucaldılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının

Ədəbiyyat İnstitutu və Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Nizami Gəncəvinin adını daşıyır. Böyük Britaniyanın Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzi uğurla fəaliyyət göstərir.

Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilmişdir. Dahi şairin 800 illik yubileyi onun irsinin tədqiqi və təbliğində əsaslı dönüş yaratmışdır. Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan ümummilli lider Heydər Əliyev Nizami irsinə də xüsusi diqqət yetirmişdir. Heydər Əliyevin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunmuş “Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında” qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açmışdır. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilmişdir. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilmişdir.

2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. 2021-ci il Azərbaycan Respublikasında “Nizami Gəncəvi İli” elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Nizami Gəncəvi İli” ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 yanvar 2021-ci il.**

## *ŞEYX NİZAMİ GƏNCƏVİNİN YETİŞDİYİ MÜHİT*

*Qüvvət elmdədir başqa cür heç kəs,*
*Heç kəsə üstünlük eyləyə bilməz.*
***Nizami Gəncəvi.***

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyi münasibətilə 2021-ci il ölkəmizdə "Nizami Gəncəvi ili" elan edilmişdir. Dahi mütəfəkkirin yaşayıb-yaratdığı dövrdə Gəncə şəhərində inkişafın səciyyəvi xüsusiyyətləri tarixi-etnoqrafik məxəzlər, yazılı elmi mənbələr, arxiv sənədləri əsasında tədqiq olunması və Şeyx Nizaminin müasirləri hesab edilən görkəmli elm və ədəbiyyat xadimlərinin, tarixi şəxsiyyətlərin yetişdiyi mühitdə tədris, təlim və elmi tədqiqatların səviyyəsinin öyrənilməsi vacibdir. Ümumiyyətlə, İntibah dövrünün elm və mədəniyyətinin zirvəsi hesab edilən dahi Nizami Gəncəvinin irsinin tədqiqinə nəzər saldıqda aydın olur ki, bu sahədə aparılmış araşdırmaların təsnif edilməsinə ehtiyac vardır. Azərbaycan nizamişünaslığının inkişaf dinamikasına diqqət yetirdikdə bir neçə mərhələləri müəyyən etmək olur. Azərbaycan nizamişünaslığının təşəkkül dövrü (XIX əsrin ikinci yarısı – XX əsrin ilk onillikləri), Azərbaycan nizamişünaslığında inkişaf dövrü (XX əsrin 30-80-ci illəri) və Azərbaycan nizamişünaslığında qadağaların aradan qalxdığı, faktlara yeni bucaq altında baxış dövrü – şairin ədəbi irsində türklüyün, dini-təsəvvüfi baxışların və hakim dairələrə münasibətin obyektiv təhlil mərhələsi (XX əsrin sonu – XXI əsrin əvvəlləri) [1, s. 4].

Bir məqamı xüsusi vurğulamaq lazımdır ki, tarixən Böyük İpək yolu üzərində yerləşən qədim Gəncəyə dünyanın müxtəlif ölkələrindən tacirlərin, səyyahların, görkəmli elm

və mədəniyyət adamlarının səfər etməsi hər şeydən öncə, burada milli-mənəvi dəyərlərimizin ümumbəşəri sivilizasiyalarla çuğlaşmasına şərait yaratmışdır. 4000 illik tarixə malik olan, ən azı miladdan əvvəl II minillikdən etibarən 5 dəfə coğrafi yerdəyişmə etmiş Gəncə şəhəri İntibah dövründə müsəlman Şərqinin ən böyük mədəniyyət və elm mərkəzlərindən biri kimi sürətlə inkişaf etmişdir.

Həmin dövrdə Gəncədə fərdi və ictimai kitabxanalar, müasir universitet səviyyəsində mədrəsələr, rəsədxana və tibb mərkəzləri fəaliyyət göstərmişdir. Müsəlman mədəniyyəti qonşu xristian dövlətlərinə məhz buradan yayılmışdır. Buna görə, Şərqin bir çox ölkələrindən alimlər, şairlər, memarlar, sənətkarlar Gəncə şəhərində məskunlaşmışlar. Şeyx Nizami Gəncənin mədəni səviyyəsini daha yüksək qiymətləndirərək doğma şəhərini "Mənim Babilim" deyə tərənnüm etmişdir [239, s. 5].

XII əsrin ortalarında Gəncə şəhərində məktəblər, mədrəsələr, şəxsi və ictimai kitabxanalar fəaliyyət göstərmiş, "Hikmət evləri" və "Şəfa ocaqları" yaradılmışdır. Tarixi mənbələrdə Gəncədə məşhur alim Əbülfəzl əl-Naxçıvaninin rəhbərlik etdiyi "Dar əl-kütub" deyilən böyük bir kitabxananın olduğu öz əksini tapmışdır. Şeyx Nizami Gəncəvinin mütaliə etdiyi və adlarını çəkdiyi əsərlərdən də aydın olur ki, Gəncədə zəngin kitabxanalar mövcud olmuşdur [43, s. 17-22].

Şeyx Nizaminin həmin dövrdə məlum olan bütün elm sahələrinə dərindən yiyələnməsi göstərir ki, o, Gəncədə görkəmli alimlərin çalışdığı zəngin kitabxanaya məxsus mədrəsələrin birində hərtərəfli təhsil almışdır. Böyük şair və mütəfəkkir olan Nizami Gəncəvinin (əsl adı İlyas Yusif oğlunun) ensiklopedik biliklərə və elmin bütün sahələri haqqında mükəmməl məlumata sahib olması hər şeydən

öncə Gəncə şəhərinin elm və mədəniyyət ocağı olduğunu bir daha isbatlayır. Dahi Azərbaycan şairi Şeyx Nizaminin Fərabi, Xarəzmi, ibn Bəcci, Əbu Əli İbn Sina, İbn Rüşd kimi korifeylərin fəlsəfi düşüncələri haqqında yüksək biliyə sahib olması, həmin dövr elm dili hesab olunan ərəb dilinin və fəlsəfənin Gəncə şəhərində yüksək səviyyədə tədris olunduğundan xəbər verir.

Nizami Gəncəvi əsərlərinin təhlili göstərir ki, o, qədim yunan və hind fəlsəfəsinə də bələd olmuşdur. Şeyx Nizaminin "İskəndərnamə" əsərində İskəndərin dili ilə dünyanın yaranması problemini Aristotel (Ərəstun), Fales (Valis), Platon (Əflatun), Tianlı Apolloni (Rumlu Bulunus), Sokrat, Tirli Parfiri (Forforius) və əlkimyanın, magiya və digər "möcüzəli elmlər"in banisi Hermes Trismekistdir (Hörmüz) kimi görkəmli antik alimlərlə birlikdə müzakirə edir. Bütün bunlar Gəncədə fəlsəfi məktəblər haqqında geniş bilgiyə sahib olan mütəfəkkir alimlərin geniş yayıldığını göstərir. XII əsrin 40-cı illərində Gəncədə doğulmuş, yüksək mədrəsə təhsili almış, öz biliyi, savadı ilə böyük şöhrət qazanmış Əbu-Bəkr ibn Xosrov əl-Ustad ”Mənsur və Mərcan”, ”Sənəm və Əcəm”, ”Mehr və Müştəri”, ”Hakiza-yi kitab-i Alfiyya və Şalfiyya”, ”Rahət ər-Ruh”, ”Hüzhət əl-məclis” kimi altı böyük əsərin müəllifi olmuşdur. Əl-Ustadın müəllifi olduğu "Munisnamə" əsərinin elmi ictimaiyyətin istifadəsinə verilməsi Azərbaycan ədəbiyyatşünaslıq elminin qədim inkişaf səviyyəsi barədə görüş dairəsini dərinləşdirmişdir. "Munisnamə"nin qısa müqəddiməsi böyük bir ədəbiyyatşünaslıq kitabına bərabərdir. Əbu-Bəkr ibn Xosrov əl-Ustad dünya və şəriət elmlərinə bələd olan, bilikli və təcrübəli bir alim, yazıçı, şair kimi tanındığı üçün "Ustad" ləqəbinə layiq görülmüşdür.

Şərqin elm və mədəniyyət mərkəzlərindən olan Gəncə ədəbi mühitində Əbu Həfs Gənci, Əbül Üla Gəncəvi, Məhsəti Gəncəvi, Qivami Mütərrizi, Rəziyyə Gəncəvi, Mirzə Şəfi Vazeh kimi dünya mədəniyyəti xəzinəsinə misilsiz incilər bəxş etmiş dühalar yetişmişdir. Xüsusilə, həmin dövrdə Gəncə şəhərində Məhsəti Gəncəvi, Rəziyyə Gəncəvi və Siti Gəncəvi kimi dünyəvi elmlərə, fəlsəfəyə yiyələnmiş, hətta şahmatçı və bəstəkar mütəfəkkir qadınların mövcudluğu şəhərin mədəniyyət baxımından nə qədər yüksək səviyyədə durduğunu bir daha göstərir.

İntibah mərhələsinə və ümumiyyətlə, Orta əsrlərdə yaranmış mədrəsə və kitabxanalar dövrünün təhsil ocağı kimi formalaşmışdı. İlk baxışda dini tədris kimi səciyyə qazanan mədrəsələr, əslində elmi təlqinləri ilə daha çox yadda qalmışdı. Doğrudur, mühəddislərin də tədris verdikləri dövrün belə  təşkilatları təkcə dinin belə elmi tərəflərini özlərinəməxsus tərzdə göstərməyə çalışırdılar.  İlk hədis söyləyən və toplayan mühəddislər orijinal hədisləri "rihlə" - şəklində göstərmişlər. Bu baxımdan mühəddis ərəb müəlliflərinin əksəriyyəti ziyarət etdikləri şəhərin dini, elmi və təhsil qurumlarını öyrənir, yerli alim və ziyalılarla görüş və müzakirələr də aparırdılar. "Əsma et-tabi"in əsərinin (hərfi anlamda tabe olmaq demək) müəllifi ərəb alimi Əbülhəsən əd-Darakutni Azərbaycanlı alimlərlə görüşmüş, onlar haqqında geniş məlumat vermişdir [342].

Əbülhəsən əd-Darakutni Azərbaycanlı mühəddislərdən Gəncəli İbrahim ibn Məhəmmədü-l-Cənzi ilə birlikdə hədislər də yazmışdır. O, İbrahim əl-Cənzinin şafii məzhəbi üzərində fiqhi öyrənməsini, kamal sahibi bir ziyalı olduğunu vurğulamışdır. Məmləkətinə geri dönən əl-Cənzi ilə əlaqələrini heç vaxt kəsməmişdir. Hətta Əbülhəsən öz məsləkdaşının ölüm xəbərini aldığını da qeydlərində

yazmışdır. Azərbaycanlı alim və ziyalıların islamiyyətin elmi tərəflərinin araşdırılmasındakı xidmətləri, onların bu sahədəki elmi potensialı danılmazdır. Məhz bu baxımdan digər ölkə alimlərinin Azərbaycandakı İslam mədəniyyəti ilə bağlı olan mərkəzləri ziyarət etmələri də təsadüfi sayılmamalıdır. Belə məşhur mərkəzlərdən biri də Gəncə idi. Arranda hökmranlıq edən Şəddadilər, X yüzilliyin 70-ci illərindən Bərdəni geridə qoyaraq çox keçmədən Arranın ən böyük şəhərinə çevrilir. Bu şəhər artıq Böyük Səlcuqluların üç böyük şəhəri (Mərv, Nişapur və İsfahan) ilə birlikdə böyük şəhərlər arasına daxil olur. Gəncə elm və mədəniyyət sahəsində də böyük uğurlar qazanmağa başlayır [3, s. 112-114]. XI əsrdə Gəncəni ziyarət edən alimlərin sayı da artmışdı. Ərəb müəlliflərindən bəziləri şəhərə səyahət edərkən onun məscidi, kitabxanası, təhsil qurumları və burada fəaliyyət göstərən hədis məclisləri, yerli alimlərlə görüşmələr, müzakirə mövzuları haqqında bilgi vermişlər. Artıq XII yüzillikdə Şirvanşahlarla birlikdə Eldəgizlərin (Azərbaycan Atabəyləri) də dövlətlərarası çərçivədə nüfuzu güclənir, ölkənin siyasi-iqtisadi və mədəni əlaqələri genişlənirdi. Qərb və Şərqin böyük ticarət mərkəzlərini birləşdirən karvan yolları Azərbaycandan keçirdi. Azərbaycan şəhərlərindən bir çoxu, xüsüsən də Gəncə - strateji önəmə sahib bölgə kimi qəbul edilirdi.

Xilafət bölgələrinin alimləri arasında Azərbaycanın digər şəhərləri ilə yanaşı, Gəncəni də ziyarət etmiş və bu şəhərin adını qeyd edən Şeyx Əbu Tahir əs-Siləfi əl-İsfahaninin adını xüsusilə vurğulamaq gərəkdir. Şeyx Əbu-Tahir o dönəmin nüfuz sahiblərindən olmuşdur. Fatimi xəlifəsi əs-Zahir əl-Übeydinin 1151-ci ildə İsgəndəriyyədə açdığı mədrəsənin idarə olunması səlahiyyətinin ona verməsi, bu alimin böyük nüfuzu sayəsindədir. Azərbaycanla

yaxından əlaqəli olan bu görkəmli şəxsin müəllimləri arasında İlkiyə əl-Hərrasi ilə bərabər Xətib Təbrizinin də adı qeyd edilir. Əs-Siləfi hədis ardınca uzunmüddətli səyahətlərə çıxması ilə məşhur olmuşdur.Onun qeyd edilən səyahəti on illərlə davam etmişdir. O, Şirvan, Bab əl-Əbvab, Səlmas, Naxçıvan ilə yanaşı Gəncəni də ziyarət etmişdir. Burada bir neçə hafiz və dövrün tanınmış şeyxləriylə görüşərək söhbət və müzakirələr aparmışdır. Bu alim-şeyxin Xilafətin bir sıra bölgələrinə səfərləri onun "Mucəm əs-Səfər" ("Səfərlər məcmusu") adlı əsərində göstərilmişdir [6, s. 9-12; 17, s. 148-152].

Görkəmli coğrafiyaçı alim-səyyah və tarixçi Yaqut əl-Həməvinin məlumatına görə, ərəb və farsca zəngin kitab fondlarından və ya kitabxanalarından biri də Gəncədə idi. Belə kitab fondları ehtiyacı olan hər kəsə açıq idi. Yəni, elm və kitablarla maraqlanan şəxslər istədikləri vaxt bu kitabxanalara müraciət edə bilərdilər. Gələnlərin əksəriyyəti qiraət və kitabların üzünü axtarmaqla məşğul olurdular.

Kənardan və uzaqdan gələnlərə mütləq qələm və mürəkkəb verilirdi. Belə kitabxanalarda dönəminin məşhur alimləri mühazirələr söyləyir, müxtəlif elmi müzakirələr aparırdılar. Əs-Səmaninin məlumatına əsasən, İbn Makula burada Gəncə kitabxanasının mühafizəçisi Əbülfəzl Xudadat ibn Asim ən-Nəşəvinin hədislərini dinləmişdi. Bu fakt Yaqut əl-Həməvinin məlumatını dəqiqləşdirərərk Gəncə kitabxanasının İbn Makulanın yaşadığı dönəmdə (XI əsrdə) və bəlkə də daha öncəki dövrdə fəaliyyət göstərdiyini təsdiqləyir. Bununla yanaşı, İbn Makula və Əbu Tahir əs-Siləfi kimi sufi alim şeyxlərin Gəncəni ziyarət etməsi İbn Makulanın Gəncədə əs-Səmaninin "İbn Makulanın şeyxi" – olaraq təqdim etdiyi Naxçıvanlı Əbülfəzl Xudadat ən-Nəşəvi ilə görüşərək müzakirələr aparması təsadüfi deyil. Belə

faktlar şəhərin elmi mühiti üçün sufiliyin nə dərəcədə önəmli olduğunu göstərir. Eyni zamanda Gəncə kitabxanası mühafizəçisinin də böyük nüfuz sahibi olmasına diqqət çəkir.

Gəncə şəhəri bir sıra məşhur şəxsiyyətlər yetişdirmişdir. Nizami Gəncəvi kimi bir düha məhz Gəncədə yaşayıb yaratmışdır. XI yüzilliyin sonlarında yaşayıb fəaliyyət göstərmiş Azərbaycanın böyük şairlərindən Qətran Təbrizi də dəfələrlə Gəncəyə gəlmişdir. Əbu Tahir əs-Siləfi "Mücem əs-Səfər" əsərində Azərbaycan və onun bir çox şəhərləri, eyni zamanda Gəncə və Nizamiyyə mədrəsəsi haqqında məlumat verir.

Səlcuqlar dönəmində müdərrislər, mədrəsələrin baş müəllimləri olaraq bilinirdi. Onlar sultan və vəzirlər tərəfindən təyin edilirdi. Nizamülmülkün vəzirliyi dönəmində müdərrisləri özü təyin edirdi. Sultan Səncərin də müdərrisləri seçdiyi məlum tarixi faktdır.

Gəncədə fəaliyyət göstərmiş mədrəsədə qazı Əbu Abdulla Məhəmməd bin Əli bin Məhəmməd ət-Təbəri kimi görkəmli şəxsiyyət müvəffəqiyyətlə çalışmışdır. Parlaq zəkaya sahib bu şəxs oradakı təhsilə öncüllük etmişdir. Əbu Abdulla ət-Təbəri bu mədrəsədəki təhsil sisteminə rəhbərlik edərkən fəal çalışmış, onun idarəçilik qabiliyyəti də artmışdı [4; 8]. Şeyx əs-Siləfi "Mucem əs-Səfər" əsərində yazır ki, Gəncədə olarkən öz zəkası ilə işıq saçan Əbu Abdulla ibn Məhəmməd ibn Əli ət-Təbəri onun şeirlərini söyləmişdir. Gəncəli müdərris əs-Siləfiyə onu anladan şeir də oxumuşdur. Xilafətin mədəniyyət mərkəzlərində fəaliyyət göstərmiş Azərbaycanlı alimlərin bəzilərinin yaşamlarının müəyyən bir qismi də vətənləri ilə bağlı olmuşdur. XII yüzilliyin ədibi, əslən Gəncədən olan Əbu Həfs Ömər ibn Osman ibn Şüayb əl-Cənzinin Nişapurda Nizamülmülkün oğlu Fəxrülmülkün

uşaqlara dərs verməsi, Gəncəli müdərrisin tədris işində mahir usta olduğu görülür. Fəzilət sahibi, dindar, xoşniyyətli bu ədib Bağdadda qaldığı müddətdə böyük alimlər, əsasən də Əbülmüzəffər əl-Əbiverdi ilə dost olaraq ondan elm öyrənmişdi.

Şərq intibahının zirvəsi hesab edilən şeyx Nizami Gəncəvinin yaradıcılığı bəşəri dəyərlərin milli-mənəvi ənənələrimizlə vəhdətinin ən bariz sübutudur. 2021-ci il ölkəmizdə – "Nizami Gəncəvi ili" elan edilmişdir və bu dahi mütəfəkkirin yaşayıb-yaratdığı dövrdə Gəncə şəhərinin sosial və mədəni inkişafın səciyyəvi xüsusiyyətləri tarixi məxəzlər, yazılı elmi mənbələr, arxiv sənədləri əsasında tədqiq edilməsi üçün yeni üfüqlər açılır.

Nizami Gəncəvinin yaşayıb-yaratdığı tarixi-mədəni mühitdən bəhs edərkən şübhəsiz ki, onun mənsub olduğu şərəfli nəsil tarixinə nəzər salmaq vacibdir.

Gəncə şəhərininn böyük karvan yolları üstündə yerləşməsi onun XII əsrdə Yaxın və Uzaq Şərqin, Avropanın bir sıra ölkələrilə sıx ticarət əlaqələri qurmasına, beləliklə də, ticarətin, sənətkarlığın inkişafına şərait yaratmışdır və bu qədim şəhəri önəmli ticarət və sənətkarlıq mərkəzlərindən birinə çevirmişdir. Şəhər istehsal etdiyi məhsullarla nəinki ölkə daxilində, həm də ölkə xaricində böyük şöhrət qazanmış və "Arran şəhərlərinin anası" səviyyəsinə qədər ucalmışdır.

1225-ci ildə Atabəylərin hakimiyyətinə son qoyan Cəlaləddinin Gəncədə hökmranlığı dövründə yerli əhaliyə qarşı amansız davranılmış və vergiləri həddindən artıq şəkildə yüksəltdiyindən 1231-ci ildə Gəncə əhalisinin işğalçılara qarşı qaldırdığı üsyanla nəticələndi. Qiyamlar nəticəsində şəhər hakiminin sarayı dağıdılmış, xidmətçiləri öldürülmüş və yerli varlılar bir neçə aylıq olaraq vergilərin ödənilməsinə məcbur edilmişdilər. Dulusçu Bəndərin

Xarəzmşah Cəlaləddində qarşı başçılıq etdiyi bu üsyan Gəncənin qəhrəmanlıq tarixinə iri hərflərlə yazıldı [20, s. 69-70].

Gənc Bəndər özü kimi gənc sənətkarları başına toplayaraq Cəlaləddinin qərargahını məhv edir, yüz illik sultan taxtını dağıdır, yerli varlıları bir neçə aylıq olaraq vergilərin ödənilməsinə məcbur edir. Lakin təcrübəsizlik özünü göstərdi. Ətraf bağlara toplaşan düşmən süvarilərini qovmaq məqsədilə qala divarlarından kənara çıxıb təcrübəli qoşunla açıq savaşa qatılan igid əxilər məğlubiyyətə düçar olurlar. Bəndərin 30 nəfər tərəfdarı tutularaq edam olundu, üsyan başçısı isə tikə-tikə doğrandı.

Gəncənin tarixi vəsiqəsi hesab olunan Comərd Qəssab Məqbərəsi də bu şəhərdə Əxiliyin yüksək rəvac tapdığını göstərir. İ.M.Cəfərzadə yazır: "Rəvayətə görə, bu türbə dördüncü xəlifə Əli ibn Əbu Talib (656-661) zamanında yaşayan comərd qəssabın qəbri üzərində qurulub. Bu türbənin əxiliyə aid olub-olmaması maraq doğurur. İbn Battutaya görə, əxilər comərd idilər, həm də haqq-ədalət uğrunda mübarizə aparırdılar. Comərd Qəssab özünün qanun tərəfdarı olması və düzlüyü, doğruluğu ilə seçilmişdir. Şəhər əhlinin bütlərə inandığı bir dövrdə o gizlicə olaraq İslamı qəbul etmişdi [237].

Qeyd etdiyimiz kimi, VII-VIII əsrlərdə tikildiyi təxmin edilən türbə Gəncə çayının sağ sahilində, qədim Gəncə hasarının 1 kilometrliyində yerləşir və bu gün Gəncə şəhərində siyahıya alınmış 800-ə qədər tarixi abidədən biridir. Comərd Qəssab türbəsi dövlət tərəfindən qorunan 288 abidə arasında özünə yer alır ki, bu da onun əhəmiyyətindən xəbər verir. Türbə XX əsrin 70-ci illərində dağıdılmış, 2004-cü ildə Heydər Əliyev Fondu tərəfindən ilkin görkəminə tam uyğun olaraq yenidən inşa edilmişdir.

Beləliklə, orta çağlarda Gəncədə sənətkarlıq inkişaf edir, sufilik və əxilik yayılır, şeyxlərin sayı artırdı. Onların arasında Nizami Gəncəvinin xüsusi yeri vardı.

Nizaminin görkəmli tədqiqatçısı Bertels Gəncədə doğulmuş Nizaminin ailəsinin feodal aristokrat ailəsi deyil, şəhər sənətkarlarına daha yaxın olduğunu qeyd etmişdir. Y. Krımski isə Dövlətşahın (XV əsr) "Təzkirət əş-şüəra" (1487) əsərində Nizaminin əxilərə aidiyyəti məsələsinə toxunmuş və bu sahədə olan tədqiqatçılarından heç birinin bu çox mühüm amilə, yəni şairin ictimai əhval-ruhiyyəsini anlamağa kömək edən bir məsələyə diqqət yetirməmələrinə təəccüblənmişdir.

Nizami Gəncəvi Azərbaycanın qədim mədəniyyət mərkəzi olan Gəncə şəhərində doğulmuş, yaşayıb yaratmış və dünyasını dəyişmişdir. Şairin təxəllüsü “Nizaməddin”, künyəsi isə “Əbu-Məhəmməd”olmuşdur. Əsl adı “İlyas” atasının adı isə  Müəyyəd oğlu Yusifdir. Anası, şairin özünün qeyd etdiyi kimi, “Rəiseyi-Qord”, yəni igidliyi və comərdliyi ilə seçilmiş bir rəisə olmuşdur. Bir çox hallarda dahi şairin anasını “Rəiseyi-Qord” adlandırması tədqiqatçılar tərəfindən düzgün qiymətləndirilməmişdir [22, s. 72-75].

Hətta dahi şairin bu ifadəsi “Rəiseyi-Kurd”, yəni kürd rəisəsi kimi oxunmuşdur. O halda ki, Nizami Gəncəvinin anası heç bir kürd qəbiləsinin rəisəsi olmamış, əksinə soykökü etibarı ilə nüfuzlu və zadəkan ailəyə mənsub olmuşdur. Məxəzlərin verdiyi məlumata görə Nizami hələ uşaq ikən atasını və anasını itirdiyindən onun və dövrün gözəl şairlərindən olmuş qardaşı Qivami Mütərrizinin tərbiyə və bəslənməsini dayısı Xacə Həsən öz üzərinə götürmüşdür. M.Ə.Rəsulzadənin təbirincə desək, onun Azərbaycan atabəylərindən Qızıl Arslana yazdığı qəsidə, qəsidə ədəbiyyatında şah əsər sayılmaqdadır.

Burada bir məqam xüsusi ilə qeyd olunmalıdır ki, Nizami Gəncəvi anası barədə "Leyli və Məcnun" məsnəvisində yazdığı hissənin başlığını "Anam rəisənin xatirəsi" və onun özünü "Rəisə" adlandırmaqla hansı mətləbə toxunmaq istəmişdir. İlk öncə belə bit fərziyyə irəli sürülmüşdür ki, güya böyük çairin anasının adı Rəisə olmuşdur. Əlbəttə bu ehtimal tədqiqatçıların böyük əksəriyyəti tərəfindən qəbul olunmaqdadır. Lakin biz bu məsələyə fərqli şəkildə yanaşmağa daha çox üstünlük vermək qərarına gəldik.

Dahi mütəfəkkirin anasını "Rəisə" adlandırmaqla onun əxilik ideologiyasına mənsub olduğuna işarə etmişdir. Təsəvvüf cərəyanları arasında "Rəis" və "Rəisə" məqamı yalnız əxilikdə mövcud olmuşdur. Belə ki, əxilik təriqətində "Rəis" Şeyx məqamından sonra ən yüksək dərəcə hesab olunmuşdur. Bununla yanaşı qeyd etməliyik ki, əxilik digər sufi təriqətlərindən fərqli olaraq qadınların təşkilatlanmasına və seyr-sülük aləminə daxil olmalarına şərait yaratmışdır. Bu təşkilatlanma daha sonralar "Baciyani-Rum" başlığı altında məşhurlaşmışdır [11, s. 90; 20, s. 69-70].

Ümumiyyətlə, Nizami Gəncəvini digər Şərq mütəfəkkirlərindən fərqləndirən əsas xüsusiyyət qadın obrazlarına geniş yer ayırması ilə səciyyələnir.

Unutmaq olmaz ki, qadını yüksək dəyərləndirən dahi şair türk xanımı Şirinin simasında qadınlığın ən gözəl sifətlərini toplamış və Yaxın Şərq ədəbiyyatında ilk dəfə olaraq müsbət qadın obrazı yaratmışdır. Nizami dühasının qələmindən çıxan Şirin obrazı yüksək mənəviyyatı, cəsarəti, sədaqəti ilə seçilmişdir.

Qaragüruh ruhanilərin kütlə arasında olan nüfuzundan və ümumiyyətlə həmin dövr qadına bəslənən qeyri-loyal münasibətdən zərrə qədər çəkinməyən Nizami Gəncəvi

Şirini əsrinin əsas qəhrəmanına çevirir və onu gözəllikləri sevən,elmə, biliyə və kamala rəğbət bəsləyən, namusuna sadiq qalan bir şəxsiyyət kimi dəyərləndirir. Şair Şirin obrazında əxiliyin qadına verdiyi üstünlükləri tərənnüm etdirmişdir. Misal olaraq  Şirinin at oynatmasını, qılınc vurmasını, ox atmasını, göstərmək olar.

Yaratdığı ideal qadın obrazları əxiliyə xas cəsarət, qürur, ismət, mənəvi yüksəklik, mərdlik kimi yüksək mənəvi sifətlərlə səciyyələndirmişdir. Əxiliyə görə qadını həmişə cəmiyyətin tam ləyaqətli bir üzvu kimi dəyərləndirmişdir. Dahi mütəfəkkir də öz növbəsində bu ənənəyə sadiq qalaraq humanist ideyalar baxımından qadını saf mənəviyyata malik ismət və qürur sahibi kimi qiymətləndirmişdir:

***Mən gövhərəm, neçin gərək əksiləm,***
***Çağrılmamış gedəm, məgər mən yeləm?***

Nizami Gəncəvinin sələfi olan görkəmli  fars şairi Əbülqasim Firdovsi Şirini mənəviyyatsız, əxlaqsız və qatil kimi təqdim etmişdir. Lakin Nizami Gəncəvi öz sələfinin əksinə olaraq Şirini  əxi rəisələrinə bənzər şəkildə eşqinə sadiq, fədakar, yüksək mənəvi keyfiyyətlərə malik bir şəxsiyyət kimi təqdim etmişdir. Şirinin öz sevgilisinin məzarı üstündə intihar etdiyinitəsvir edərkən şair onun bu fədakarlığını  bu cür alqışlamışdır:

***Alqış bu ölümə, əhsən Şirinə,***
***Öldürən Şirinə, ölən Şirinə.***
***Məhəbbət yolunda ölüm budur, bax,***
***Canana belədir canı tapşırmaq...***
***Çox gözəl arvad var mərdlikdə bir şir,***
***Çox ipək içində şirlər gizlənir.***

Şübhəsiz buradan belə bir sual meydana çıxır ki, bəs islam dini intiharı haram buyurduğu təqdirdə Şeyx rütbəsinə yüksəlmiş Nizami necə ola bilərdi ki, intiharla özünü qətlə yetirən Şirinə alqış və əhsən desin? Əlbəttə Nizami Gəncəvinin nəzərdə tutduğu ölüm həqiqət naminə nəfsin öldürülməsidir. Unutmamalıyıq ki, Şirin fars dilində iki məna daşıyır: birincisi dad baxımdan şirin, ikinci isə şir kimi mənasını verir. Əslində nəfsinə qələbə çalan onu öldürən şəxs şirlə müqayisə edilir. Çünki əxilik ideologiyasına görə başqalarına hökm edən qüvvəli, özünə hökm edən isə qüdrətli xüsusiyyətini daşıyır.

Şirin təkcə öz nəfsini öldürmür eyni zamanda eyşə işrətlə gününü keçirən Xosrovu da nəfsi istəklərdən uzaqlaşdırır və insanlığın qayəsi olan hikmətə sarı istiqamətləndirir. Nizami Gəncəvi kamil qadın obrazı olan Şirinin vasitəsi ilə öz sevgilisi Xosrovu dəyərsiz və kefcil həyatını dəyişdirir, elmə, fəlsəfəyə sarı istiqamətləndirir. Danılmaz həqiqətdir ki, təsəvvüf şeyxləri arasında qadını həqiqət rəmzi və məhəbbət mücəssəməsi kimi yalnız Əxiliyə mənsub olan Nizami Gəncəvi təqdim edə bİlərdi.

Nizami Gəncəvi qadınların kamilləşməsində heç də kişilərin ardınca gedib onları yamsılamağı düzgün hesab etmir. Əksinə o, qadının kişinin arxasnca getmədən müstəqil şəkildə kamilləşə bilməsini bu cür ifadə edir:

***Yaraşmaz kişinin dalına düşmək,***
***Bu sifət qadında olmasın gərək.***

Nizami Gəncəvi Bərdə hakimi Nüşabə obrazı ilə əxiliyin "ədalətli hökmdar" haqqındagörüşlərinin ifadə etmişdir. İskəndər Nüşabənin əqlinin gücü qarşısında aciz qaldığından onun ölkəsini fəth edə bilmir. Bununla yanaşı

Nuşabə böyük fatehi ədalətə çağıraraq var-dövlət uğrunda qan tökməyin faydasız olduğunu deyir:

***Sənin xonçandakı bu daş-qaş daşır,***
***Bu danlaq, bu töhmət kimə yaraşır?***
***Süfrəyə cavahir saçmaq nə gərək?!***
***Gövhərdən qaçmağı mənə öyrətmək?!***
***Eşq olsun bu fikri sağlam qadına,***
***Mərdliyin yolunu öyrədir mana.***
***Ey uzaqgörən qız, gəl məni dinlə,***
***Qızıl sikkəsini nəsihətinlə;***
***Ataram bir kərə torpaqlara mən,***
***Qızıla torpaqdır təbii mədən.***
***Erkək tinətliyəm olsam da qadın,***
***Hər işi bəllidir mənə dünyanın.***
***Mən də bir aslanam, düşünsən bir az,***
***Aslanın erkəyi, dişisi olmaz.***

Nizami yaradıcılığında qadının mərdliyi, sağlam fikirliliyi kişilərin dili ilə ifadə olunur.

***Eşq olsun bu fikri sağlam qadına,***
***Mərdliyin yolunu göstərir mana.***

Şübhəsiz bütün bunların səbəbini qadınların maddi və mənəvi məsələlərdə təşkilatlanmasına geniş imkanlar yaratmış əxilik ideologiyasında axtarmaq lazımdır.

Aşiq Paşazadə (886/1481) "Tarix-i Ali Osman" adlı əsərində Anadolu Səlcuqluları dövründə türkmənlər arasındakı ictimai zümrələrin "Gaziyan-i Rum" (Anadolu Qaziləri). "Əxiyan-i Rum" (Anadolu Əxiləri), "Abdələn-i Rum" (Anadolu Abdalları), və "Baciyan-i Rum" (Anadolu

Bacıları) deyə dörd hissəyə ayrıldığını qeyd etmişdir. Anadolu Səlcuqluları zamanında türkmən kişilərin mənsub olduğu, Aşiq Paşazadənin "Əxiyan-i Rum", adlandırdığı əxi təşkilatının qadın üzvləri "Baciyan-i Rum" adı altında birləşmişdirlər.

Aşiq Paşazadənin "Baciyani Rum" adlandırdığı bu zümrə ilə bağlı ilk dəfə Alman Franz Taeschner qərəzli və qısqanc mövqeyilə seçilən tədqiqatlar aparmışdır. Adı çəkilən tədqiqatçı o dövrün cəmiyyətində qadınların belə bir mükəmməl təşkilat qura bilmələrinə şübhə ilə yanaşmış və bunun Aşiq Paşazadə tərəfindən uydurulduğunu qeyd etmişdir. Taeschner “Hacıyani Rum" (Anadolu Hacıları) və ya "Bahşıyani Rum" (Anadolu Sehirbazları və ya Ruhaniləri) təbirinin səhv olaraq "Bacıyani Rum" kimi yazıldığını iddia edərək belə bir təşkilatın mövcud olmadığı qənaətinə gəlmişdir. O halda ki, həmin dövrü xarakterizə edən bütün mənbələrdə Anadoluda “Hacıyani Rum" (Anadolu Hacıları) və ya "Bahşıyani Rum" (Anadolu Sehirbazları və ya Ruhaniləri) adlı təşkilatların mövcudluğu barədə heç bir məlumat verməmişlərr. Demək buradan aydın olur ki, adı çəkilən tədqiqatçı hələ orta əsrlərdə türk cəmiyyətində qadınların siyasi və ictimai təşkilatlanması faktını bilərəkdən bütün varlığı ilə ört-basır etməyə cəhd göstərmişdir [25, s. 18-20; 28].

İlk dəfə Fuad Körpülü, Aşiq Paşazadənin "Baciyani Rum" adlandırdığı zümrə haqqında Bəktaşi rəvayətləri və başqa tutarlı qaynaqlar üzərində tədqiqat aparmış və F. Taeschnerin iddialarını heçə endirərək həqiqətən Anadolu Səlcuqluları dövründə və Osmanlı Dövlətinin quruluşu dönəmində türkmən qadınlarının mənsub olduqları bir təşkilatın mövcudluğunu isbatlamışdır.

Qeyd etmək lazımdır ki, Fuad Körpülü bu təşkilatın mahiyyəti və vəzifəsi barədə geniş tədqiqatlar aparmamışdır. Bu adın qadınlardan təşkil olunmuş zümrənin (Qadınlara məxsus bir təriqət) adı ola biləcəyi ehtimalı üzərində dayanaraq demişdir: "Görəsən Aşiq Paşazadə “Baciyani Rum” adı altında türkmən qəbilələrin pak və cəngavər qadınlarınımı nəzərdə tutmuşdur? Şübhəsiz bu görüş ən doğru olanıdır".

Mərhum Fuad Köprülünün tədqiqatının üzərindən 70 ildən çox bir zaman keçmiş olmasına baxmayaraq "Baciyan-i Rum" haqqında bu günə qədər heç bir ciddi və tutarlı araşdırmalar və tədqiqatlar aparılmamış və adı çəkilən tədqiqatçının bu mövzuda yazdıqlarına heç bir yeni fakt əlavə edilməmişdir.

Osmanlı xronikiləri dövlətin yeni qurulduğu dövrdə türkmən qadınlarının siyasi və ictimai cəhətdən təşkilatlanmaları barədə kifayət qədər məlumatlar vermişlər. Lakin Anadoludakı türkmən qadınlarının təşkilatlanmaları ilə əlaqədar olaraq ən çox məlumat toplayan tədqiqatçı Fuad Köprülünün də ifadə etdiyi kimi, məğribli səyyah İbni Battutə Orxan Qazi zamanında  Anadolunun bir çox bölgəsində türkmən xanımların müxtəlif fəaliyyətlərinə şahid olmuşdur.  Həmçinin Nijdəli Qazı Əhməd 1340-cı ildə tamamladığı "Əl-Vələdüş-Şəfik" adlı əsərində Nijde ətraflarında Taptuklu türkmən dərvişlərin xanımlarının fəaliyyətləri ilə bağlı məlumatlar vermişdir.

Bir sıra mənbələr monqolların Anadolunu işğal etdikdən sonra onlara ciddi müqavimət göstərən əxi təşkilatıyla birlikdə “bacı” təşkilatınında təqiblərə məruz qoyulması və  XIV əsrdən etibarən bu təşkilatın tamamilə məhv edilməsi barədə məlumatlar vermişlər. Buna görə istər İbni Battuta, istərsə də Osmanlı tarixçiləri və digər mənbələr

Anadoludakı türkmən qadınlarının fəaliyyətlərindən danışarkən türkmən qadınlarına aid bir təşkilatın varlığından bəhs etməmişlər.

Aşiq Paşazadənin verdiyi məlumata görə Hacı Bektaş (1271) zamanında, yəni Anadolu Səlcuqluları dövründə türkmən qadınlara aid mükəmməl bir təşkilat mövcud olmuşdur.

Nizaminin yüksək düha sahibi olması ona “Həkim” (böyük, bilici, müdrik S.P.) ləqəbinin verilməsindən aydın görünür. Bu ensiklopedik biliyə sahib olan mütəfəkkir İslam elmləri ilə yanaşı Zərdüştü, Çin, yunan, Roma, fəlsəfələri ilə yaxından tanış olmuş və bir neçə ölmüş dilləri mükəmməl şəkildə bilmişdir. “Bununla yanaşı, dahi mütəfəkkir tarix, dinşünaslıq, irfan, həndəsə, riyaziyyat, astronomiya, və mifalogiya sahələrinə dair geniş biliyə malik olmuşdur.

Nizami Gəncəvi şiəlik və sünnilik məzhəbləri arasında gedən mübarizə, sufilər və şəriətçilər arasındakı mübahisələrdən kənarda qalaraq dinin irfani hikmətləri ilə yaşamış və Allaha inanan, Peyğəmbərə bağlı dindar və sadiq bir mömin kimi tanınmışdır. Beləliklə, bu böyük şəxsiyyət cəmiyyətin mənəvi birliyini parçalayan məzhəb və firqələrin apardığı kor-koranə mübarizənin fövqündə dayanmış, kamil bir təbiət və əxlaq sahibi olmuşdur

Din sahəsində göstərdiyi bu müvazinəti fikir sahəsində də göstərən mütəfəkkir Sufi şeyxi olsa da tərki-dünyalıq istəyən dərvişlərə özünü bağlamamışdır. Bunun səbəbi isə Nizami Gəncəvinin əxilik ideologiyasına bağlı olması ilə izah oluna bilər. Düzdür sufilikdəki seyr və süluk təhsilini hansı mürşiddən aldığını əsərlərində açıq şəkildə qeyd etməsə də dərin hikmətlərində bu məsələyə işarə etmişdir.

Şeyx Nizaminin təsəvvüf əhli və əxi təriqətinə mənsub olması barədə bir çox mənbələr xəbər verməkdədir.

Mənbələrdə Nizami Gəncəvinin Şeyx Əxi Fərrux Reyhani və ya Əxi Fərəc Zəncanidən dərs alması qeyd olunmuşdur.

Şeyx Əxi Fərəc Zəncani haqqında günümmüzə cox az məlumat gəlib çatmışdır. Lakin tanınmış səyyah İbn-Bəttutə, İsfahan şeyxi və zaviyə rəisi Qütbəddin Hüseynin ona bəxş edib geydirdiyi qəbanın tarixini danışaraq demişdir ki, həmin qəbanı vaxtilə Həzrəti Əli, sonralar isə Nizami Gəncəvinin mənəvi mürçidi hesab olunan Əxi Fərəc Zəncani geymişdir. Səyyah Əxi Fərəcın Əbu Abbayə-Nəhavəndi ilə də görüşdüyünü qeyd etmişdir. Şübhəsiz bütün bunlar Şeyx Əxi Fərəc Zəncaninin böyük mütəfəkkir və müqəddəs bir şəxsiyyət olduğunu bir daha təsbit edir.

Lütfəlibəy Azər (XVIII) "Atəşkədə" əsərində Nizami Gəncəvi haqqında yazır: "Süluk aləmində əxi Fərəc Zəncəni ilə bərabərdir". Mətnə nəzər saldıqda aydın olur ki, müəllif Nizami Gəncəvini Fərac Zəncəninin müridi kimi deyil onunla bərabər məqamda dayanan bir sufi şeyxi kimi qiymətləndirmişdir.

A.Bakıxanov "Gülüstani-İrəm" əsərində Nizami Gəncəvinin sufu şeyxlərindən biri olduğunu belə ifadə etmişdir: "Həkimi-mənəvi Şeyx Nizami Gəncəvinin böyüklüyünü söyləməkdən dil acizdir"

Görkəmli nizamişünas alim Bertels Nizaminin əxilik ideologiyasına mənsub olduğunu verilmiş "Saqinamə"dən aşağıda göstərilən sətirlərlə əlaqələndirir:

***Nə vaxtadək buz kimi durmaq donuq***
***Suda ölü siçan tək olmaq uyuq?!***
***Çevşekləmə, gül kimi yumşaq olma,***
***Bənövşə tək iki üzlü bulunma.***
***Yeri vardır dəliqanlı olmaq yegdir***
***Dəliqanlı çılğın olmaq gərəkdir.***

***Tikan kimi sivri bulun, sərt davran,***
***Başına güldən çələnglər hörsün dövran.***

Bertels bu şeirdəki "tikan" ifadəsinin əxilərin bellərində gəzdirdikləri "xəncər" olduğu qənaətinə gəlmişdir.

M.Ə.Rəsulzadə Nizami Gəncəvinin əxiliyə mənsub olduğunu şairin aşağıdakı misraları ilə göstərir.

***Huşsuzlara yataq olan bir qərye***[1]
***Zalımlara verir qolayca cizyə***
***Arslan ürəkli olmadan iş aşmaz,***
***Öküz ürəklilərdə mərdlik olmaz.***
***Nədən boyun əyirsən hər qəzaya,***
***Nədən razı olursan hər cəfaya?***
***Dağ kimi dur, sırtın olsun qayadaş,***
***Üzünə qabar daşürəyin, əymə baş!***

Nizami Gəncəvinin əxiliyi ilə bağlı olaraq M.Ə.Rəsulzadə yazır: "Xəmsə"nin ədəbi təşbehləri arasında "Əxiliyi" andıran fikirlərə deyil, əsnaf cəmiyyətləri arasında yayılmış və onları birləşdirən "Əxi" ideologiyasında da Nizami fikirlərinə uyğun ideyalara rast gəlirik. "Fütüvvətnamə" lərdəki əxlaq normaları ilə Nizamidəki əxlaqi beytləri qarşılaşdırsaq, ibrətamiz nəticələrə gələ bilərik".

Nizaminin əxilik ideologiyası ilə heç bir əlaqəsinin olmadığını söyləyən tədqiqatçılar belə onun sufiyanə həyat keçirməsi barədə həmrəy olmuşlar. Belə ki, onu yalnız şair deyil, eyni zamanda müdrik mütəfəkkir, bilici və Şeyx kimi dəyərləndirmişlər.

Şeyx Nizaminin öz əsərlərində Əxi Fərəc haqqında heç bir məlumat verməməsi dahi mütəfəkkirin mənəvi

şəxsiyyətinin əslində hansı qaynaqdan ilham almış olduğunu şübhə altına almamaqdadır. Cünki Nizami Gəncəvi yaradıcılığına irfani nöqteyi nəzərnən yanaşdıqda burada əxiliyin təsiri özünü kifayət qədər göstərməkdədir.

Hər şeydən öncə qeyd etmək lazımdır ki, Nizami Gəncəvi əsərlərinin bəzi yerlərində adını bilavasitə çəkmədiyi mənəvi mürşidi Əxi Fərəc Zəncaniyə "Xacə" və ya "Pir" olaraq müraciət etmişdir. Təsəvvüf terminalogiyasında "Pir" bilavasitə mürşidi simvolizə etdiyindən Xacə kəlməsi üzərində dayanmağı məqsədəuyğun hesab etdik. Nizami dayısının adını da Xacə Ömər kimi xatırlamış və onun ölümünü özü üçün böyük itki saymışdır. Görkəmli nizamişünas alim Xəlil Yusifli bu xüsusta yazır: "Xacə Ömər adının əvvəlindəki Xacə sözünü müxtəlif şəkillərdə izah edirlər. Ağa mənasında işlənən bu söz daha çox vəzirlərin, tacirbaşı və başqa yüksək rütbə, mövqe sahiblərinin adının əvvəlinə artırılırdı. Bizə görə bu adam yüksək rütbəli bir ziyalı, bəlkə Gəncədə mədrəsə müdiri və ya buna bənzər vəzifə sahibi olmuşdur".

Yuxarıda göstərilənlərdə aydın olur ki, Xacə təkcə maddi deyil, eyni zamanda mənəvi rütbəni bildirən bir kəlmə olmuşdur. Bir çox halda xacə kəlməsi xüsusi ilə İran yaylasında yaşayan türklərin dilində mürşid əvəzinə də işlənmişdir. Misal olaraq dahi şairin təsəvvüf yolunu keçdiyini, mürşid yanında qabiliyyətli bir salik olduğunu əks etdirən aşağıdakı misralarını göstərmək olar:

***Beş hissə - beş quldura qəzəb silləmi sıxdım,***
***Onlar aciz qaldılar, mən bir az güclü çıxdım.***
***Bir mənzil, iki mənzil at çapdım dincəlmədən,***
***İlk sıçrayışla çatdım könül qapısına mən.***
***Getdim canım dişimdə mən öz könlümə sarı,***
***Elə bil gecə yarı ömrüm də oldu yarı.***

***Ruh adlı mehrabımın önündəyəm mən yetim,***
***Bükülüb topa döndü mənim çövkən qamətim.***
***Qəddim ikiqat oldu, haram qatdım yuxuma,***
***Çövkənim topa döndü, ətəklərim yaxama.***
***Ayağım başım oldu, başım ayaqmı oldu?***
***Boyum topa bənzədi, çövkən sayaqmı oldu?***
***Əldən getdi iradəm, gözümdə gün qaraldı,***
***Yüzluk təkliyə döndü, təklik yüz şəkil aldı.***
***Səfərdaşlarım cahil, mən səfərdə xamtəhər,***
***Kimsəsizlik yamandır, qəriblik ondan betər.***
***Nə cür keçim qapıdan?Cığır hanı, yol hanı?***
***Bəlkə geri qayıdım, tərk edim bu məkanı?***
***Qorxudan nitqim batıb. Yolum dar bir keçiddi,***
***Fəqət cilovdan tutan eşqim dadıma yetdi.***
***Döydüm qapını."Kimdir vaxtsız gələn?" sordular.***
***"Bir Adəm oğlu!" - dedim, -"Yer versəniz şad olar".***
***Cəld içəri çəkdilər: "Buyur, Tanrı bəndəsi!"***
***Qaldırdılar, yox oldu vücudumun pərdəsi.***
***Sarayın ürəyindən bir səs qopdu: - Nizami!***
***İçəri keç, bura gəl! - Bu səs necə səmimi.***
***Mənim kölgəm bu dəhrin sərvindən əzəmətli,***
***Addımlarım, ayağım onunkundan qüdrətli!***
***Xəzinəyəm, amma ki, harun kisəsində yox,***
***Səninlə olmasam da, uzaqda deyiləm çox,***
***Ona çox qulaq asdı mənim nitq bülbülüm,***
***Nəfəsini duyunca utandı, susdu könlüm.***
***Sıxılaraq baş əydim, bir müddət yerə baxdım,***
***Qulağıma ədəblə qulluq həlqəsi taxdım.***
***Ustad - könül xacəsi təzələdi əhdimi,***
***Fələklərə ucaldı sayəsində Nizami.***
***Qalmadı riyazətdən, pəhrizdən başqa yolum,***
***Dedim: mən də o pirdən riyazət dərsi alım.***

“Sirlər Xəzinəsi” məsnəvisinin “ birinci xəlvət - qəlbin tərbiyəsi” adlı hissəsində dahi şair mürşidinin ona olan münasibətini yüksək qiymətləndirərək yazır:

***Ədəb dərsinə keçdi o riyazət öyrədən,***
***Məni doqquz fələyin çıxartdı çevrəsindən.***
***Yolumuz həlqə-həlqə, əyri-dolay, çən-duman,***
***Fəqət, mənim ustadım sapmadı öz yolundan.***
***Elə bir yerə çatdı yolumuzun axırı,***
***Tamam arxada qaldı onun dolambacları.***
***Sözü daşdan keçən pir bizimçin qürur idi,***
***Tanrımız olmasa da Tanrıdan bir nur idi.***
***O pir iki cahanda mənə gözətçi, hami!***
***Yoxsa çəkib dərdimi, qayğıma qalardımı?***
***İşlərimi yoluna qoymasa da bu dəm o,***
***Bilirəm, şəfqətini əsirgəməz məndən o.***
***Mənim tək ədəbsizə ədəb öyrədən o pir,***
***Az qala qulum oldu, mənalıdır bu tədbir.***
***Mənim kimi qulundan bezib üz döndərmədi,***
***Qənimət bildi bəlkə bir yoxsulla ülfəti.***
***Züleyxanın vətəni Misirdənmi o, gəldi?***
***Yusifini quyudan çıxarmaqla yüksəldi!***
***Uyğudan qapanarkən gecənin qara gözü,***
***Yandı sübhün çırağı, işıqlandı Yer üzü.***
***Doğdu Günəş, Fələyin nəhənk çırağı yandı,***
***Gecənin qaranlığı dan rənginə boyandı.***
***Mənim əlimdən tutdu əli çıraqlı ustad,***
***Gəlib çatdıq bir bağın ətəyinə xeyli şad.***
***Ətəyimi arıtdı kədər tikanlarından,***
***Gülə qərq etdi məni gül nəfəsli o insan.***
***Güldüm yaşıl çöldəki lalə kimi, zər kimi,***
***Yüz yerdən parçalandı paltarım güllər kimi.***

***Canını təslim etdi canıma al lalələr,***
***Yaz yanaşdı, bağladı belimə güldən kəmər.***
***Gah qan rənginə düşdüm al qırmızı mey kimi,***
***Gah da yırtdım gül kimi köynəyimi - qönçəmi.***
***Tez budaqdan budağa, güldən gülə can atdım,***
***Bir qaynağa qovuşub, su içməkdi muradım.***
***Mənim eşq bayrağım bənd olunca bir yerə,***
***Vəfa qoxusu gəldi başqa bir yandan yenə.***
***Açıq deyim: bir yarın rayihəsi, nəsimi,***
***Mənə ürək, can verdi İsa nəfəsi kimi.***
***Səhər rüzgarlarına yar-yoldaş etdi məni.***
***"En aşağı! - Söylədi, - Özündən çox vurma dəm,***
***Enməsən, endirərəm səni mənlik təxtindən!»***
***O xəyal dənizində mən ki, bir gəmi oldum,***
***O cənnət havasında cənnət sakini oldum.***

Nizami Gəncəvi yaradıcılığına əxilik ideologiyasının təsiri şairin realizmə daha yaxın olmasında da özünü göstərir. Belə ki, digər təsəvvüf təriqətlərindən əxiliyi fərqləndirən ən böyük xüsusiyyət həqiqət axtarışında əxilərin ağıla hislərdən daha çox önəm verilməsi olmuşdur.

Şeyx Nizami əxiliyin ideya prinsipinə sadiq qalaraq həqiqətin üzə çıxarılmasında ağılı hislərdən daha üstün tutmuş və bununlada reallığı düzgün şəkildə qiymətləndirmişdir. Nizami Gəncəvi sufu şeyxi və təsəvvüf ədəbiyyatının görkəmli nümayəndəsi olmasına rəğmən mistik anlayışları reallığın əks etdirilməsi istiqamətinə yönəltmişdir. Bu xüsusta Nizami Gəncəvi yaradıcılığına ilk dəfə ədəbiyyatşünas kimi yanaşan Mirzə Fətəli Axundov dahi şairin yaradıcılığının Əbdürrəhman Cami, Cəlaləddin Rumi, Sədi və Hafiz Şirazi kimi təsəvvüf ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri ilə müqayisədə məzmun

və sənətkarlıq baxımından daha üstün olduğunu qeyd etmişdir. Bununla Mirzə Fətəli Axundov realizmin Nizami Gəncəvi yaradıcılığının əsasını təşkil etdiyini vurğulamışdır. Çünki 1866-cı ildə “Kritika”adlı məqaləsində M.F.Axundov yazır: “...Hər bir şerin ki, məzmun həqiqətin ziddinə olub həqiqi vücüdu olmasa, şer deyil və onu poeziya adlandırmaq olmaz. Ərəb və İran şairləri bu şərtlərdən qafildirlər. Bu şərtlər yalnız Firdovsinin “Şahnaməsində” və Nizaminin “Məxzənül-Əsrarında” və “Yeddi Gözəl”ində görünür” [11, s. 90; 20, s. 69-70; 22, s. 72-75].

Görkəmli nizamişünas alim Y.E.Bertels Nizami Gəncəvi yaradıcılığının realizmə əsaslandığını bu cür ifadə etmişdir: “Nizami həmişə həqiqətə yaxın olmağa can atdığına görə, fantastika onun əsərlərində az yer tutur. Əgər doğru olanı, həqiqəti şerə gətirmək mümkündürsə nə üçün boşyerə yalan yazmaq? Bu prinsip o zamanki poetika ilə əkslik təşkil edir”. Bu prinsipin o zamanki poetika ilə əkslik təşkil etməsinin səbəbi heç şübhəsiz Nizami Gəncəvinin əxilik ideologiyası ilə sıx bağlı olması ilə izah edilməlidir. Cünki əxilik ağıla və onun vasitəsi ilə dərk etdiyimiz reallığa daha çox üstünlük vermiş sufi təriqətlərindən biri kimi tanınmışdır.

Şeyx Nizami ağılın yaradanın və ümumiyyətlə insanlığın tanınmasındakı mühüm rolu haqqında aşağıdakı beytləri qələmə almışdır:

***Ağıl qiyas ilə çalışıb durar,***
***Onu dərk etməkçün dəlil axtarar.***
***Düşüncənə daha yol vermə artıq,***
***Qarşına dağ çıxar, ya da qaranlıq.***
***Idrakın çatırsa vahid allaha,***
***"Nədir və necədir?" - soruşma daha.***

***İşıq axtardığın alovlu şamdan***
***Onun təkliyinə sübut taparsan.***
***Gah qara torpaqdan reyhan yaradır,***
***Gah sudan bizimtək bir can yaradır.***
***Bizə ağıl verdi tanıyaq onu,***
***Bəsirət verdiki, tutaq yolunu.***

Nizami Gəncəvi "Xosrov və Şirin" məsnəvisinin "Peyğımbərin tərifi" hissəsində Həzrəti Məhəmmədin gətirdiyi İslam dininin ağıl və biliyin sayəsində bütün dinlərdən üstün olmasını bu cür dəyərləndirmişdir:

***Köməkçisi oldu ağıl və bilik.***
***Dini dünyada son din olduğundan,***
***Başqa dinlər batil edildi haman.***

Nizami Gəncəvi ağılı hislərlə bilavasitə bağlı olan eşqin meydanında aciz qalanların pənahı hesab edir:

***Biliyin yolunu ağıl göstərər,***
***Eşq üçün deyildir bir belə dəftər.***
***Eşqin meydanında aciz qalanlar***
***Tez ağlın atına olurlar süvar.***
***Dəlilər dərmana olanda möhtac,***
***Ağıllılar tapır dərdlərə əlac.***
Dahi şair ağılsız igidliyi acizlik hesab edərək yazır:
***Ağıl mənzilindən avara düşdüm.***
***Igidlik göstərdim acizliyimdən***

Nizami Gəncəvi ağılın hökm etmədiyi dəyərlərin əslində qiymətsiz bir şey olduğunu bu cür ifadə edir:

*Ağıl deməyən söz bir xoş xəyaldır.*
*Qocalar yanında o söz vəbaldır.*
*Ağıl bir ayaqdır, təbiət zəncir,*
*Hər nəfəs suvantək zəncir yeyəndir.*
*Bu dəmir zənciri qırarsa hər kəs*
*Bu qızıl qalada məğlub edilməz.*

*Ağıl tutiyası olan kimsələr*
*Isatək hər kökdə bir dərman görər*

*Ağıllı adamın söylədikləri*
*Yer altına düşsə, getməz dəyəri.*
*Söz deyən düşünüb söyləsə əgər,*
*Pis söz də söyləsə, yenə xoş gələr.*
*Hər sözə münasib ölçü gərəkdir,*
*Naqqallıq yükünü çəkən eşşəkdir.*

*Ağıllı adamla yaşa salamət,*
*Nadanın dərmanı törədər illət.*

*Xəzinəni atıb, kim yesə torpaq,*
*O, ağıllı deyil, ilandır ancaq.*

Nizami Gəncəvi ağılı xəlifə, sözü isə onun qüdrəti hesab edir:

*Ağıl ki, görünməz bir xəlifədir,*
*Qüvvəti, qüdrəti sözlərindədir.*

Nizami Gəncəvi əxilik ideologiyasının təməl prinsiplərindən biri olan ağılı rəhbər tutmanı aşağıdakı kimi ifadə etmişdir:

***Ağıl tək nöqsansız bir hökmüdardır.***
***O, yeddi göylərə boyun əyməyən***
***Yeddi ərənlərə qiblədir, bilsən.***

Nizami Gəncəvi ağılı İslam peyğəmbəri Həzrəti Məhəmmədin mübarizə apardığı cəhalətin mütləq əksi kimi dəyərləndirmişdir:

***Cəhalət yataraq, oyandı ağıl.***
***Nəğməm saqilərin huşunu aldı,***

Hətta Nizami Gəncəvi düşmənlə mübarizədə ağılın gücdən daha yararlı olduğunu bildirərək deyir:

***Ağıllı olarsa bir tülkü, inan,***
***Məhv edər, canavar olsa da düşman.***

***Ağıllıya qarşı olsan hiyləgər,***
***Qurbağatək başın bu yolda gedər.***

Dahi şair oğluna nəsihət verərkən ona elə həyat sürməyi tövsiyə edir ki, ağıllı rütbəsinə yüksələ bilsin:

***Ilahi elmlər öyrənmək xoşdur.***
***Elə namuslu ol, desin hər görən:***
***"Ağıllı oğluna, Nizami, əhsən! "***

Nizami Gəncəvinin dini dünyagörüşündə ağıl çox əhəmiyyətli yer tutmaqdadır. Hətta dahi şair ağılı yaradanı ilk tanıyan və insana düz yol göstərən dəyər kimi qiymətləndirmişdir:

***Ağıl ilk inandı sənə, yaradan.***
***Sən ağlın gözünü işıqlandırdın,***
***Sən doğru yollarda çıraq yandırdın.***
***Göyləri sən qurdun, ucaltdın, allah,***
***Ona yer üzünü etdin güzərgah***

***Hər ağıl tanrıdan öyrənir bilik,***
***Ürəklər tilsimdir, edər bəndəlik.***

***Ağıllı kimsəyə bəzək nə yarar?***
***Qəlbində var sənin tanrı sifəti,***

***Ağıl mədənidir başdan-ayağa,***
***Bənzəyir tanrıdan yanan çırağa.***

Hislərlə bağlı olan xəyalın belə ağılın ölçüsündən kənara çıxa bilmədiyinə dair dahi şair deyir:

***Ağıl ölçüsündən kənara çıxmaz.***
***Bələdçi olmağa cəhd edər xəyal***

Nizami Gəncəvi əxilik ideologiyasının təməl prinsiplərinə sadiq qalaraq yeniliyin köhnəliklə mübarizəsi, köhnəliyə qarşı amansız döyüşkən mövqe tutmuşdur. O, qədim dünyadan ibrət alaraq gələcəyə baxmış, yeni ideyaların qələbəsi üçün yollar axtarmış və bir çox hallarda bu yolları insanlara göstərmişdir. Şübhəsiz bu məsələdə ona əxiliyin mübariz humanist baxışları istiqamət vermişdir. Görkəmli nizamişünas alim proffessor Xəlil Yusiflinin qeyd etdiyi kimi, “Xalq içərisində böyüyüb yaşayıb müdrikləşən, şəhər sənətkarları ilə daim təmasda olan, qəlbi xalqın azadlığı və xoşbəxtliyi üçün döyünən, qələmi ilə "kiçik"

adamların hüququnu müdafiəyə qalxan qüdrətli sənətkarı XII əsrin ən xəlqi fikir cərəyanlarından olan, ayrıca birlik formasına çevrilən əxilikdən kənarda təsəvvür etmək olarmı?” Əlbəttə professorun elmi problem kimi irəli sürdüyü bu sual uzun müddət ölkəmizdə hökm sürən allhsızlaşdırma və dinsizləşdirmə siyasətinin nəticəsində tədqiqatçılar tərəfindən cavablandırılmamışdır.

Dahi şairin yaradıcılığında bir çox fikirlər əxilərin və şəhər sənətkarlarının mübarizliyini göstəriri. Nizami yeniliyin köhnəliklə mübarizəsindən danışanda əxilər kimi düşünərək köhnə əqidələri, köhnə budaqları cəsarətlə doğrayıb tökməyi məsləhət bilir. Fəallığa, hərəkətə üstünlük verir:

***Gündə bu bağdan yeni bir bar gələr,***
***Hər şirinindən də şirin meyvələr.***
***Çoxlu həmaildir ürəklər tamam,***
***Hər biri xoşdur o birindən müdam.***
***Həm bu yolun yolçuları bax ki sən,***
***Zirək olur dəstə ötən dəstədən.***

Dahi şair əxilər kimi mübariz, döyüşən bir mövqedə duraraq köhnəliyi rədd edir:

***Ey təzə ay, köhnə olan bürcü sök,***
***Ey təzə gül, köhnə budaqları tök.***
***Ölkə səninlə ola ta bərqərar,***
***Şadlıq elə, sən də yaşa bəxtiyar.***

Deməli, yeniliyin qələbəsini təmin etmək üçün onun qarşısını alan maneələr aradan götürülməli, məhv edilməlidir. Nizaminin yeniliktər tərəfdarı olan şahzadə qəhrəmanı da məhz belə edir. Yuxudan oyanan kimi iki-üç

düşməni aradan götürür, köhnə qayda-qanunu pozaraq yeni qaydaqanun yaradır, ölkə yeniləşir, abadlaşır. Bu, Nizami dövrü üçün əxilikdən gələn son dərəcə cəsarətli bir ideya idi. Əxiliyin tərənnüm etdirdiyi qəhramanlığın qəti hərəkəti ilə razı olan şair bu ideyanı daha da dərinləşdirir, qətiyyət və inamla belə yazır:

***Ölməlidir mülkə pozuqluq salan,***
***Qovmalıdır olsa qoşun bədgüman,***
***Qol-budaq atmaz təzə şax, bil ki, sən.***
***Köhnə budaqları əgər kəsməsən.***
***Kəsməsən arxın önünü aşikar,***
***Göylərə qaldırmaz əli göy çinar.***
***Sən bulağın gözlərini açmasan,***
***Gözdən axıtmaz su bu yer heç zaman.***

Böyük mütəfəkkir hər bir əxi Şeyxi kimi köhnəliyin özbaşına təslim olmayacağına, onun ədalətin gücü yolu ilə təslim edilməsinə səsləyir:

***Hamilədir zil gecə,***
***Bir gün olar qəm keçəcək gör necə,***
***Mən bu dar ovlaqda onunçün şadam,***
***Şadlıq ilə qəm qala bilməz müdam...***
***Qaçdısa bir dəm itim, ey hiyləgər,***
***Sən kimi bir ovla geri tez dönər.***

Dahi şair belə bir cəsarətin həyata keçməsində inamın, yəni imanın əsas şərt olmasını belə dəyərləndirir:

***Kimdə inam olsa iradətlə yar,***
***Daim olar sonda səadətlə yar.***

***Getsə inamla ayaq olmazmı baş?!***
***Böylə fikirlə zərə dönməzmi daş?!***
***Olsa inamla qədəmin üstüvar,***
***Daima oddan su, sudan od çıxar.***
***Başqa olurlar inam əhli tamam,***
***Bizlər ayaq, oldu baş onlar müdam.***

Əxiliyin tərənnüm etdirdiyi əməyə və əmək adamına dərin məhəbbət Nizami Gəncəvi yaradıcılığını səciyyələndirən əsas keyfiyyətlərdəndir. Şair öz yaradıcılığında bu mövzuya xüsusi diqqət yetirir, əməyi insanın zinəti, yaraşığı, onu hər cür bəlalardan qoruyan bir vasitə kimi dəyərləndirir:

***Ey əxi, nəfs itdir, onu çək dara,***
***Ruzi üçün açma əl alçaqlara.***
***Dadına paxıl rizqini, ye torpağı,***
***Torpaq olub, olma rəzil tapdağı.***
***Qoy əlinə, qəlbinə batsın tikan,***
***İşlə, çalış durma bekar bircə an.***

Nizami əxilik ideologiyasının genişlənməsinə və müdafiə olunmasına əsərləri ilə təsir edirdi.Gəncliyindən əxiliklə bağlı olan seyr-sülukun ağır və çilləli məqamlarını keçdikdən sonra Şeyxlər Şeyxi mərtəbəsinə yüksəlmiş, təcrübə və mərifət sahibi olmuşdur.Dahi şair fəta əhli kimi haqsızlıqla barışmağı zəiflik əlaməti hesab etmiş və başını boyunduruq altına uzadanları tənqidə məruz qoymuşdur. Onun əxilik ideologiyasından gələn humanizmi, bütün əsərlərində özünü göstərir.

"Süleyman və əkinçi", "Kərpickəsən qocanın dastanı" hekayələrində Nizami öz fədakar zəhməti ilə ruzi qazanan,

zəhmət çəkməyi özünə borc bilən sadə adamların heyranedici surətini yaradır.Nizami əmək adamlarından həmişə dərin məhəbbət, yüksək hörmət hiss ilə danışır, onları hər cəhətdən başqa adamlara, xüsusən əməyə xor baxan tüfeyli hakim təbəqəyə qarşı qoyur.Nizami əsərlərində əmək və əmək adamlarına beləsağlam münasibət şairin yaradıcılığındakı əxiliyin təbliğ etdiyi demokratizmin, humanizmin ənparlaq ifadəsidir.

Nizami əxilikdən süzülüb gələn xarakteri etibarilə heç kəsdə eyib axtarmamış, əksinə həmişə, hər yerdə hünər və gözəllik sorağında olmuşdur. Dahi şairin misilsiz poeziyası, yaşadığı dövrün eybəcərliklərini göstərməklə bərabər, onun işıqlı və təqdirəlayiq cəhətlərini də görmüş və əks etdirmişdir. Nizami yaradıcılığının böyük idraki əhəmiyyəti də məhz həyatı ziddiyyətli şəkildə göstərməsindədir.

Nizami Gəncəvi əsərlərində Peyğəmbərlər, şahlar, xəlifələr, ruhanilər, kəndlilər, kərpickəsənlər, əlsizayaqsız qarılar, avara, tüfeyli şəhər gəncləri, yeniyetmə uşaqlar, darğalar, oğrular, zəvvarlar, saray əyanları, yəhudi, atəşpərəst, müsəlman, xristianlar, saray xidmətçiləri, sufilər, varlı şəhərlilər kimi obrazların mövcudluğu əxiliyin qayəsi olan cəmiyyətin ümumi eybəcərliklərinin aradan qaldırılmasına xidmət etməkdədir.

Qeyd etmək vacibdir ki, nə üçün Nizami Gəncəvi dövrünün Əbül-Üla Gəncəvi, Fələki Şirvani, Mücirəddin Beyləqani və başqa şairləri kimi Şirvanşahların, Eldəgizlərin saraylarında yaşamadı? Xalqı itaətə çağıran, hakim feodal və saray əyanlarının səxavətindən, qüdrətindən bəhs edən saray şairlərindən fərqli olaraq Nizami Gəncəvi xalqı gözü açıq olmağa çağırır, haqq-ədalətin mövcudluğunu və onların da bu nemətdən dadmağa haqları olduğunu vurğulayır, əməyi vəsf edir, sənəti göylərə yüksəldirdi. Nizami Gəncəvi bəzi

şahların ədalətsizliyini, saray əyanlarının namərdliyini daha öncədən gördüyü üçün Əfzələddin Xaqaninin acı taleyini yaşamadı.

Araşdırmalardan əxilərin digər sufi təriqətlərindən fərqli olaraq tərkidünya olmadıqlarını, bu dünyanın nemətlərindən istifadə edərək başqalarına da bu işdə yardımçı olduqlarını görürük. Təsadüfi deyil ki, Nizami "İqbalnamə" də Allaha müraciət edərək bu dünya haqqında deyir:

***Bu gözəl dünyada varkən hər büsat,***
***Behiştdə nə üçün əbədi həyat?***
***İnanma o dünya bundan şən olsun,***
***Dersən o yaxşıdır, sən deyən olsun.***

Doğrudan da, bu fikri yalnız comərd və cəsarət sahibi olan bir əxi söyləyə bilərdi. Avropa şərqşünaslarının "təriqət" adlandırdıqları "əxilər" təşkilatı həqiqətən dini-asketik təriqət deyil, şəhər sənətkarlarını, yoxsullarını müdafiə edən, zalımların, müftəxorların zorakılığına qarşı dayanan mübariz insanların ittifaqı idi.

Təbii ki, mübariz ittifaqda fiziki, yaş baxımdan da uyğun insanlar olmalı idi.Təsadüfi deyil ki, insanlar arasında birliyi, bərabərliyi, qardaşlığı təbliğ edən əxilərin əsas şüarı da zalımları cilovlamaq, qəsbkarların sərvətini ac kütlə arasında bərabər bölmək idi.

Şübhəsiz ki, əgər həmin dövr Gəncədə əxilik hərəkatı geniş yayılmasa idi Nizami Gəncəvi əxilərə xas özəllikləri bu qədər dolğun, açıq çatdıra bilməzdi.Özü də sözü gedən təşkilatın bir üzvü olmasaydı, sənətkarlara bu qədər yaxın yaşamasaydı, əsərlərində sənət adamlarını necə bu qədər ucalda bilərdi?

Beləliklə, buradan aydın olur ki, Nizami Gəncəvi nəslinin sonrakı nümayəndələrinin Şeyxzamanlılar adlandırılmasının səbəbi dahi mütəfəkkirin "əxilik" təriqətinin ən yüksək mərtəbəsi olan Şeyxlər-Şeyxi dərəcəsinə yüksəlməsi ilə bağlı olmuş və bunəsil həmin soyadla bütün Şərqdə məşhurlaşmışdır.

Dahi mütəfəkkirin şəcərəsinin Şeyxzamanlı soykökünə mənsub olmasını sübut edən mühüm tarixi mənbələrdən biri də Gəncə İmamzadə ziyarətgahıdır.

Gəncə İmamzadə abidəsi ilə dahi şair, dövrünün əvəzsiz mütəfəkkiri Nizami Gəncəvi şəxsiyyəti arasında çox möhkəm və əbədi bir mənəvi bağlılıq mövcuddur. Əvvəla, mövlana İbrahimin vəfat etməsi və onun məzarı üzərində İmamzadə türbəsinin ilkin mərhələdə inşa olunması tarixi ilə (VIII əsrin ortaları -739/740-cı illər) dahi Nizaminin yaşadığı dövr arasında müəyyən zaman fasiləsi olmuşdur.

Nizami Gəncəvi 1139-1204-cü illərdə yaşamış və bəhs olunan dövrdə artıq Gəncə İmamzadə ziyarətgahı mövcud olmuşdur. Bu isə, öz növbəsində pak, saf xislətli imam övladı İbrahimin xatirəsinə bütün gəncəlilər kimi sonsuz ehtiram, məhəbbət bəsləmiş Şeyx Nizami ilə bu müqəddəs şəxsiyyətin bağlılığını şərtləndirmişdir. Əslində, Nizami Gəncəvi də uca Tanrının sevib-seçdiyi, məhz bu səbəbdən də bütün insanlardan fərqləndirərək xüsusi istedad bəxş etdiyi qeyri-adi şəxsiyyət idi.

Bundan əlavə, Nizami Gəncəvi dünyəvi elmlərlə yanaşı, dini (fiqh) elmlərin də mahir bilicisi olmuş, ən əsası isə həqiqi müqəddəs şəxs-Şeyx olaraq qəbul edilən və insanların böyük ehtiramla yanaşdığı üləma kimi tanınmışdır. Bu faktı sübuta yetirən bir çox məlumatlar ayrı-ayrı mənbələrdə öz əksini tapmışdır.

Şeyx Nizami şəxsiyyətinin müqəddəsliyinin, əhalinin ona qarşı bəslədiyi sonsuz hörmət və məhəbbətin əyani göstəricisi Gəncədə müasir günümüzədək mühafizə edilmiş xoş bir ənənədə yaşamaqdadır. Yeni ailə quran gənclərin ilk olaraq məhz Nizami Gəncəvinin məqbərəsini ziyarət etməsi ənənəsi bu dahi şəxsiyyətin vəfatından əsrlər keçməsinə baxmayaraq, onun dəyərli şair, mütəfəkkir kimi insanların hafizəsində yaşaması ilə yanaşı, Şeyx Nizaminin şəxsiyyətinin, uyuduğu məkanın da paklığına inamın mövcud olduğunu göstərmiş olur. Çünki yeni ailəyə, ocağa başlanğıcı uğurlu, saf vermək, məhz Şeyx Nizamidən xeyir-dua almaq adəti həm də Gəncədə qədim, zəngin, düzgün mənəvi dəyərlərə sədaqətin əyani sübutudur.

Nizami Gəncəvi dühasını Gəncə İmamzadə ziyarətgahı ilə qırılmaz mənəvi tellərlə bağlayan ən mühüm səbəblərdən biri də onun şəcərəsinin əbədi olaraq bu müqəddəs məkanla tarixi bağlılığı olmuşdur. Daha doğrusu, bir sıra tarixi mənbələrdə qeyd olunduğu kimi, İmamzadə abidəsi və onun ətrafında olan torpaqlar Nizami Gəncəviyə məxsus olmuşdur.

Məlumdur ki, 1186-cı ildə qeyd olunan torpaqlar dahi Nizami Gəncəviyə əvəzsiz sənət incisi, məşhur «Xəmsə»yə daxil olan «Xosrov və Şirin» əsərinə görə Azərbaycan - Atabəylər (yaxud Eldənizlər) dövlətinin hökmdarı Məhəmməd Cahan Pəhləvan tərəfindən hədiyyə edilmişdir. Gəncə şəhərinin 200 kilometrliyində Şeyx Nizami ilə görüşmüş görkəmli sərkərdə, sonradan Atabəylər dövlətinə başçılıq etmiş Qızıl Arslan qiymətli hədiyyələrlə bərabər, Həmdünyan adlı kəndi də qardaşı Məhəmməd Cahan Pəhləvanın adından dahi şairə bağışlamışdır.

Məhz haqqında bəhs edilən bu kəndin (ərazinin) indiki İmamzadə kompleksi və onun ətrafındakı torpaqları əhatə

etdiyi bildirilir. Bununla yanaşı, Şeyx Nizami Gəncəvinin mədhiyyəçi, saray şairi olmadığı, hər hansı sifarişlərlə əsər yazmadığı tarixi faktdır.

Onun müəyyən bir əraziyə maddi maraqları əsas götürərək sahib olması, ümumiyyətlə yanlışdır. Odur ki, İmamzadə abidəsinə, bu müqəddəs məkana olan sonsuz ehtiramı Nizami Gəncəvini bu torpaqlara sahib çıxmağa sövq etmişdir.

Ayrı-ayrı məxəzlərdə rast gəlinən məlumatların əks etdirdiyi məqamlara rəğmən, istənilən halda əvvəldə qeyd edildiyi kimi, İmamzadə ziyarətgahı hər zaman Gəncənin ərazisi olub, bu şəhərlə birbaşa bağlılığı qədim dövrlərdən bəri mövcud olmuşdur. Məhz Gəncəni ömrünün sonuna qədər özünün ilk və yeganə məkanı, doğma ocağı hesab etmiş Nizami Gəncəvi kimi bir dahinin İmamzadə ziyarətgahı və onun ətrafındakı ərazilərə sahib olması sayəsində burada əsrlərlə yaşamış çox pak ənənələr mühafizə edilmişdir. Bunların içərisində ehtiyacı olanlara, himayədən məhrum körpələrə, ahıllara təmənnasız yardım göstərilməsi xüsusilə əhəmiyyətlidir.

Əsrlər keçməsinə baxmayaraq, Gəncə İmamzadə ziyarətgahında toplanmış maddi vəsaitlər, fitrə pulları hər zaman yalnız xeyriyyəçilik məqsədləri üçün sərf olunmuşdur.

Dahi Şeyx Nizami nəslinin (şəcərəsinin) sonrakı nümayəndələri də bu müqəddəs məkanın sahibləri olmuşlar. Bu haqda tarixi bir məqama toxunmaq zəruridir. Gürcü çarı II İraklinin təliqələrindən, rəsmi sənədlərindən birində bu məsələ ilə bağlı mühüm tarixi fakt öz əksini tapmışdır.

Bu sənəddə göstərilmişdir ki, İmamzadə ziyarətgahının əkin yerləri, həmçinin məhsul üçün yararlı torpaq əraziləri Nizami nəslindən olan Şeyxzamanovlara (Şeyxzamanlılara)

məxsus olmuşdur. Eyni zamanda, bu şəcərənin Şeyx İbrahim Qüdsi Şeyxzamanlının şəxsində təqdim edilməsi, bəhs olunan torpaqların bu nəslin istifadəsində olmasına dair tarixi faktların əks etdirilməsinin əhəmiyyəti çox böyükdür.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Firudin bəy Köçərli də Nizami Gəncəvinin xələflərindən biri olan Şeyx İbrahim Şeyx Həsən oğlu Şeyxzamanov (yaxud Şeyxzamanlı) haqqında çox mühüm məlumatları qeyd etmişdir. O, «Azərbaycan ədəbiyyatı» kitabında bu şəxsiyyət haqqında belə yazmışdır:

«Şeyx İbrahim Şeyx Həsən oğlu Şeyxzamanov İmamzadeyi-İbrahim türbəsinin mütəvəlliliyi ilə güzəran edirmiş... Rəvayətə görə onun Şeyx Nizami ilə qərabəti var imiş ... O, 1816-cı ildə Gəncədə anadan olmuş və 1865-ci ildə İmamzadədə dəfn edilmişdir».

Eyni zamanda, Şeyxzamanlılar nəslinə mənsub olan Şeyx İbrahimin həm də peşəkar xəttat olduğuna dair mənbələrdə məlumatlara rast gəlinir. Bundan əlavə, müasir dövrümüzdə də İmamzadə kompleksində Şeyx İbrahim Şeyxzamanovun sağlığında ikən özü üçün hazırlamış olduğu və başqa şəxslər üçün də yazdığı başdaşı nümunələrinə təsadüf etmək mümkündür.

Gəncə İmamzadə kompleksində dəyərli əsərləri bu günümüzədək qorunub saxlanılmış bu iki görkəmli sənətkarın - Mirzə Mehdinin (yaxud Nacinin) və Şeyx Zamanın fəaliyyəti, əsasən bu müqəddəs ocaqla bağlı olsa da, yalnız bu məkanla məhdudlaşmamışdır.

Belə ki, Gəncəli həkkak, XIX əsr xəttatlıq, nəqqaşlıq sənətinin tanınmış nümayəndəsi olmuş Mirzə Mehdinin Goranboy rayonu ərazisinə daxil olan Rəhimli kəndində də vaxtilə yazmış olduğu məzar daşının kitabəsinin aşkar olunması bunun bariz sübutu hesab edilə bilər.

Şeyx Zaman şəxsiyyəti ilə əlaqədar digər bir mühüm fakt yenə də müqəddəs Gəncə İmamzadə ziyarətgahı ilə bağlıdır. Belə ki, burada olan qəbir daşlarının birinin üzərində ərəb dilində belə bir yazı vardır:

«Bunu Şeyx Zaman yazmışdır» [24, 63].

Qeyd olunan epitafiya nümunəsində qəbir abidəsinin mətn hissəsinin məhz Şeyx Zaman tərəfindən yazıldığı (həkk edildiyi) nəzərdə tutulmuşdur.

Digər bir qəbir abidəsinin üzərində isə ilk baxışda fərqli bir insan haqqında verilən məlumata bənzəyən yazı vardır:

«Həkkak Zaman».

Bu nümunələrin qarşılıqlı müqayisəsi nəticəsində aşağıdakı nəticələrə gəlmək olar:

1) Qeyd olunan qəbir abidələrinin forması, hazırlanmasına istifadə edilmiş materiallar onların xronoloji baxımdan eyni bir dövrə aid olmasını göstərir;

2) Hər iki qəbir abidəsinin əsas epitafik göstəriciləri onların ayrı-ayrı sənətkarlıq üslublarına malik olan sənətkar-həkkaklar tərəfindən hazırlanması mülahizəsini qəti şəkildə təkzib edir;

Beləliklə, görkəmli sənətkar, Şeyxzamanlılar nəslinin layiqli nümayəndəsi olan Şeyx Zaman yalnız həkkaklıq sənətinin mahir bilicisi deyildi. O, eyni zamanda qəbir abidələrinə həkk etdirdiyi epitafik mətnlərin, yazıların müəllifi olmuşdur. «Şeyx» titulunun mövcudluğu isə öz növbəsində onun alimliyinə dəlalət edir.

Bir faktı da xüsusi vurğulamaq lazımdır ki, onun da sələfləri kimi alicənablığı, yüksək dərəcədə sənətkarlıq bacarığı insanların, o cümlədən də hakim dairələrin diqqətini cəlb etmişdir. Nəticədə isə bu sənətkara Gəncəli Cavad xan

kimi mötəbər şəxsiyyətlərin təmsil olunduğu nəslin qəbirüstü abidələrinin hazırlanması işi etibar edilmişdir.

Gəncə İmamzadə ziyarətgahının Şeyx Nizami şəcərəsi ilə bağlılığını, onun mənəvi qoruyucusu olduğunu sübuta yetirən mühüm faktlar sırasında bu nəslin nümayəndələrinin Gəncə İmamzadəsi ərazisində dəfn edilməsi göstərilə bilər. Bundan əlavə, nəslin sərdabəsinin mövcudluğu həm də bu müqəddəs məkanda onların da xatirəsinin yaşadılmasına səbəb olmuşdur.

Bu nəslin tanınmış nümayəndələrindən biri olan Şeyx İbrahim Qüdsi Şeyxzamanın (yaxud Şeyxzamanlının) İmamzadə, onun ətraf ərazilərindəki yararlı torpaq sahələrinə sahib olmasına dair bir sıra mənbələrdə məlumatlara təsadüf olunmuşdur.

Bu məxəzlər içərisində gürcü çarı olmuş II İraklinin qeydlərindən (təliqələrindən) birində bəhs olunan ərazinin məhz Şeyx Nizami nəslindən olan şəxslərə məxsusluğu faktı öz əksini tapmışdır. Daha dəqiq desək, burada Şeyxzamanlılar şəcərəsinin nümayəndəsi qismində məhz Şeyx İbrahim Qüdsi Şeyxzamanın adı qeyd edilmişdir [67].

Ümumiyyətlə, Nizami Gəncəvi şəxsiyyəti, onun xələfləri olan və tarixdə Şeyxzamanlılar (Şeyxzamanovlar) adı ilə tanınmış nəslin nümayəndələrinin bağlılığı qismində çıxış edən digər faktoloji əhəmiyyətə malik dəlillər mövcuddur. Bunların içərisində heç şübhəsiz ən tutarlı göstərici müasir dövrdə də əsrlərlə olduğu kimi, Gəncə şəhərinin əsas simvollarının məhz Nizami Gəncəvinin mədfəni - hər bir azərbaycanlının xüsusi ehtiramla yanaşdığı bir ocaq və eyni zamanda, dəyərli abidə, maddi mədəniyyət incisi olan Şeyx Nizaminin məqbərəsi və müqəddəs ziyarətgah, qədim tarixi abidə hesab edilən İmamzadə kompleksi olmasıdır.

Bundan əlavə, Gəncə İmamzadə ziyarətgahının çox böyük bir tarixi müddət ərzində özünün müqəddəsliyi, paklığı və əhalinin inadkarcasına onu bütün mənfi qüvvələrdən, təcavüzlərdən qoruması sayəsində mövcudluğunu itirməməsi həm də Şeyx Nizami şəcərəsinin də tarixdə yaşamasına şərait yaratmışdır.

Təsadüfi deyildir ki, bütün haqsız ittihamlar, repressiyalara baxmayaraq, bu nəsil Azərbaycana müsəlman Şərqinin ilk demokratik dövlətində yüksək mənsəb və eyni zamanda ehtiram sahibi olmuş, Azərbaycan Xalq Cümhuriyyətində əks-kəşfiyyat idarəsinin (yaxud Milli təhlükəsizlik Nazirliyinin) rəhbərləri vəzifəsində çalışmış Məhəmmədbağır və Nağı bəy Şeyxzamanlılar, incəsənətimizin əvəzsiz korifeyi, xalq artisti Məmmədrza Şeyxzamanov kimi şəxsiyyətlər bəxş etmişdir.

## *NİZAMİ GƏNCƏVİNİN TƏVƏLLÜD TARİXİ*

İlk baxışdan Nizaminin nə vaxt anadan olduğunu indiki dövrdə elmi söhbətin mövzusuna çevirmək qəribə görünə bilər. Çünki hamıya gün kimi aydındır ki, Nizami Gəncəvi 1141-ci ildə Gəncədə anadan olmuşdur. Bu həqiqəti hələ 1871-ci ildə Nizaminin həyatı və yaradıcılığı haqqında ilk tədqiqat işini yazan macar alimi Vilhelm Baxer müəyyənləşdirmiş və bu tarix istər Avropa ölkələrində, istər Azərbaycanda əsasən qəbul edilmişdir. Ona görə əsasən deyirik ki, istər İranda, istərsə də Azərbaycanda Nizaminin bu təvəllüd tarixi ilə razılaşmayan, şair üçün yeni-yeni təvəllüd tarixləri ortaya qoyan ciddi alimlər vardır. Məsələn, görkəmli nizamişünaslardan sayılan Rüstəm Əliyev Nizaminin 1140-cı ildə avqust ayının 7-22-si arasında

anadan olduğunu yazır. Nizami irsinin öyrənilməsi sahəsində mühüm xidmətləri olan Azadə Rüstəmova Nizaminin 1148/49-cu illərdən birində anadan olduğunu sübut etməyə çalışır və s.

Güney Azərbaycandan olan tanınmış nizamişünas, Tehran Universitetinin keçmiş professoru Bərat Zəncani isə müxtəlif alimlərin bu barədə qənaətlərini xatırlayaraq Nizaminin h.q. təqvimilə 526 (1131-1132)-cı ildə anadan olduğunu iddia edir. Onun təqdimində Baxer, Rıpka, Bertels, Minəvi Nizaminin hicri 535 (1140-1141)-ci, Dəstgirdi h.q. 533-540 (1138-1145)-cı, Minorski h.q. 541-551 (1146-1156)-ci, Darab h.q. 540 (1145)-cı, Müin h.q. 542-543 (1147-1148)-cü, Səfa h.q. 530 (1135-1136)-cu, Şəhabi h.q. 530-540 (1135-1145)-cı, Mirbağırzadə h.q. 520 (1126)-ci illərdə anadan olduğunu düşünürlər. B.Zəncani bu müəlliflərdən ancaq M. Mirbağırzadənin fikrini həqiqətə uyğun sayır və ona bəzi düzəlişlər edərək Nizaminin h.q. 526-cı ildə, miladi 1131/32-ci ildə anadan olduğunu düşünür. Bütün bu hərc-mərcliyi, fikir müxtəlifliyini nəzərə alaraq, Nizaminin təvəllüd tarixinə bir aydınlıq gətirməyi lazım bildik. Əlbəttə, bunun üçün şairin əsərlərində olan müxtəlif faktlar, Nizaminin bu məsələyə aydınlıq gətirə bilən bütün qeydləri bir bütöv halında nəzərdən keçirilməlidir.

Orta əsrlərdə yazılmış qaynaqlarda dahi şairin anadan olma tarixi haqqında heç bir bilgi yoxdur. Adətən orta əsrlərdə yaşamış müəlliflər şairin vəfat tarixini göstərirlər. Ancaq burada da onlar arasında həmrəylik yoxdur. Məsələn, Dövlətşah Səmərqəndi kimi mötəbər bir təzkirəçi onun vəfat tarixini 1180-ci il kimi göstərirsə, Təqiəddin Kaşani onun 1209-cu ildə vəfat etdiyini yazır. Bu sonuncu tarix şairin qəbirüstü yazısının estampajında da vardır. Ancaq bu gün də araşdırıcılar bir-birini rədd edən fikirlər üzərində dayanırlar.

Bunun səbəbi odur ki, şairin əsərlərində olan müxtəlif faktlar alimlər tərəfindən müxtəlif şəkillərdə yozulur. Bir tərəfdən "İqbalnamə"nin sonunda Nizaminin ölümünü əks etdirən parça, o biri yandan yenə həmin əsərin sonunda onun 1211-ci ildə hakimiyyət başına gələn İzzəddin Məsud adlı Mosul hökmdarına təqdim olunması ilə bağlı işarələr alimləri çaş-baş salır, bu yöndə bir-birini rədd edən fikirlər yürütmək imkanı verir. "İqbalnamə"nin sonunda Nizami İskəndərin və yeddi yunan aliminin ölümünü təsvir edəndən sonra özünü də onların cərgəsinə qatır və ömründən 63 il altı ay keçmiş vəfat etdiyini yazır. Həmin parçanın şairin vəfat tarixini müəyyənləşdirməkdə əhəmiyyətini nəzərə alaraq, onun orijinalını və sətri tərcüməsini oxuculara təqdim edirik.

Nezami çon in dastan şod təmam,
Beəzme şodən niz bər daşt qam.
Nə bəs ruzqari bərin bər qozəşt,
Ke tarixe omrəş vərəq dər neveşt.
Fozun bud şeş məh ze şəsto se sal,
Ke bər əzme rəh bər dohol zəd dəval.
Ço hale-həkimane-pişine qoft,
Həkiman bexoftənd o u niz xoft.
Rəfiqane xodra beqahe-rəhil,
Gəh əz rəh xəbər dad o qah əz dəlil,
Bexəndid o qofta ke amorzqar,
Beamorzeşəm kərd ommidvar.
Ze ma zəhməte xiş darid dur,
Şoma vin səra mavo darossorur.
Dər in qoftqu bod ke xabeş rebud,
To qofti ke bidariş hiç nəbud.

***Tərcüməsi:***

Nizami, elə ki, bu dastan bitdi,
getmək üçün ayağını qaldırdı.

Bundan o qədər çox vaxt keçmədi ki,
ömür tarixinin vərəqi yazıldı.
63 il altı aydan bir az artıq vaxt keçmişdi,
yola düşmək əzmi ilə döhül vuruldu.
Keçmiş həkimlərin (filosofların) halından dedi.
Həkimlər yatdılar və o da yatdı.
Getmə zamanı öz yoldaşlarına gah yoldan xəbər verdi, gah yol bələdçisindən.
Güldü, dedi ki, bağışlayan məni bağışlayacağına ümid vermişdir.
Zəhmətinizi məndən kənar edin.
Siz və bu saray, biz və o sevinc evi!
Bu sözü deyirdi ki, yuxu onu apardı.
Sən deyərdin ki, heç oyaqlığı (diriliyi) olmamışdı.

Bu qeyddən belə anlaşılır ki, Nizami Gəncəvi hicri qəməri təqvim hesabı ilə ömrünün altmış üç il altı ayında, miladi təqvimilə 62 yaşının tamamına bir az qalmış vəfat etmişdir. Ancaq bu hadisə nə vaxt baş vermişdir? "İqbalnamə" nə vaxt tamamlanmışdır? Əsərin yazılması ilə şairin ölümü arasında keçən "bir az artıq vaxt" nə deməkdir?

Biz Nizaminin vəfat tarixini və "İqbalnamə"nin tamam olma tarixlərini dəqiq bilmədiyimiz üçün şairin doğulduğu ili müəyyənləşdirməkdə yenə də çətinlik çəkirik.

Mənbələrdə şairin vəfat tarixi 1180-1218-ci illər arasında dövr edir. Əlbəttə, "Yeddi gözəl" poemasının 1197-ci ildə, "Şərəfnamə" ilə "İqbalnamə"nin isə bu tarixdən sonra yazıldığını nəzərə alsaq, şairin 1200-cü ildən tez vəfat etdiyini deyə bilmərik. Nizami "İqbalnamə"nin tamamlandığı tarixi qeyd etməsə də, əsərin sonunda altmış yaşı olduğunu yazır:

Be şəst aməd əndazeye sale-mən,
Nəgəşt əz xod əndazeyi-hale-mən.

Həmanəm ke budəm be dəh salegi,
Həman div ba mən be dəllalegi.
***Tərcüməsi:***
Yaşımın əndazəsi (miqdarı) altmışa gəldi,
Ancaq halıma heç bir dəyişiklik gəlmədi.
Haman on yaşında olduğum kimiyəm,
Haman div mənimlə dəllallıq edir.

Buradan anlaşılır ki, "İqbalnamə" əsərini yazanda Nizami altmış yaşında imiş. Bu altmış yaşı günəş təqviminə çevirsək, bu vaxt şairin 59 yaşın içində olduğunu deyə bilərik.

Bundan əlavə hind alimi C. Modinin yazdığına görə, onun kitabxanasında olan "Xəmsə"nin bir əlyazmasında belə bir əlavə vardır:

Xocəste həmişə co sərve rəvan,
Bema bad dər bəzme şahe cəhan.
Be tarixe pansədo nəvədo həft sal,
Ke xanənde ra zu nəgirəd məlal.
Səre sale çarom Məhərrəm bodəst,
Ze saət qozəşte çəharom bodəst.
***Tərcüməsi:***
Qoy həmişə bizim üçün şahın məclisində canlı sərv kimi xoşbəxt olsun.
597-ci ildə, qoy oxucu oxuyarkən kədərlənməsin, ilin əvvəlində,
Məhərrəm ayının dördündə, saat dörddən keçmiş tamam oldu.

Bu qeydə görə, "İqbalnamə" məhərrəm ayının dördündə 597-ci ildə (1200-cü ilin 15 oktyabrında) tamamlanmışdır. Bir halda ki, yuxarıdakı qeydə görə bu vaxt şair 60 (günəş təqvimi ilə 59) yaşın içində imiş, onda

Nizaminin təvəllüd tarixi kimi qəbul edilən 1141-ci il tarixinin bir qədər sonraya çəkilməsi lazım gəlir. Çünki 597-ci ildə şairin 60 yaşı var imişsə, onda o, h.q.537-ci ildə anadan olmuşdur. Bəs onda şairin yuxarıda qeyd etdiyimiz vəfat tarixi haqqındakı parçaya necə yanaşaq. Bizə elə gəlir ki, burada ziddiyyət yoxdur. Buradan belə nəticə çıxarmaq olur ki, "İskəndərnamə"ni bitirən ərəfədə ay təqvimi ilə altmış, günəş təqvimi ilə 59 yaşın içində olan şair bundan üç il altı ay sonra vəfat etmişdir. Belə çıxır ki, bu parça poemaya sonra artırılmış, yaxud sonra həmin parça üzərində düzəliş aparılmışdır. Bu üç il altı ay haqqındakı qeydi "İqbalnamə" tamamlanan vaxtlarda şairin 59 yaşın içində olması haqqındakı qeydlə birləşdirsək, onda bu qeydə görə Nizaminin h.q. 599 (miladi 1203)-cu ildə vəfat etdiyini və ay təqvimi ilə şairin 63 il altı ay yaşaması haqqındakı qeydini günəş təqvimi ilə ifadə etsək, şairin 62 il yaşadığı məlum olar. Və Nizaminin 1141-ci ildə anadan olması fikrini inamla söyləmək mümkün olar.V.Baxerin müəyyənləşdirdiyi doğum və vəfat tarixləri də bundan ibarətdir. Ancaq burada bir ziddiyyət ortaya çıxır. Əgər şair 599-cu ildə 63 yaş yarımında olubsa, niyə 597-ci ildə tamamlandığı düşünülən (C.Modinin əlyazmasına görə) "İskəndərnamə"nin axırında Nizami yaşının gəlib altmışa çatdığını bildirir? Bizə elə gəlir ki, buradakı "yaşımın dərəcəsi altmışa gəldi" cümləsini riyazi dəqiqliklə şairin 60 yaşında olmasını bildirən bəyanat kimi qəbul etmək doğru deyildir. Başqa yandan həmin fikir poemanın sonunda olsa da, onun məhz poema tamamlanan vaxt yazıldığını söyləmək, düşünmək də, görünür ki, doğru deyildir. Poemanın sonunda yaşının 63 il altı ay olması haqqındakı qeydi Nizami özü yazmışdır. Nizami onu da qeyd edir ki, əsər yazılandan sonra o qədər keçməmiş, 63 yaş altı ayında vəfat etdi.

Əgər Nizami "İqbalnamə" yazılanda hicri qəməri təqvimilə 597-ci ildə altmış yaşında imişsə, onda onun hicri qəməri təqvimilə 537-ci ildə anadan olduğunu demək lazım gələrdi. Bu isə, 1142-43-cü illərə uyğun gəlir. Ancaq bizə görə, şair yaşının altmışa çatdığını poemanın sonundakı bəzi əlyazmalarında olan 597-ci il tarixindən, eləcə də 63 il altı ay qeydindən əvvəl yazmışdır. Yenə də 1141-ci il tarixinə daha yaxın bir tarix əldə etmiş oluruq. Onu da nəzərə alaq ki, şair "yaşımın əndazəsi altmışa gəldi" sözlərini görünür ki, poemanın tamamlanması barədəki 597-ci il rəqəmindən müəyyən qədər əvvəl dilə gətirmiş və yazmışdır.

Bu rəqəmlər üzərində düşünərkən bir cəhət də nəzərə alınmalıdır. Şairin özünün də qeyd etdiyi kimi "Xosrov və Şirin" poemasını o, 1177-1181-ci illər arasında yazmışdır. Bu poema yazılan, tamamlanan vaxt, yəni 1181-ci ildə Məhəmmədin 7 yaşı var idi. İlk böyük əsəri olan "Sirlər xəzinəsi"nin yazılma tarixi isə hələlik mübahisəlidir, hər-halda onun "Xosrov və Şirin"dən əvvəl yazıldığı aydındır, çünki "Xosrov və Şirin"də ilk əsərini "Məra çon "Məxzənol-əsrar" gənci" deyə xatırlayır.

Digər tərəfdən "Sirlər xəzinəsi"ni yazarkən ömrünün qırx yaşla dəllallıq etdiyini yazır ki, bütün bunlar birlikdə götürüldükdə şairin yuxarıda qeyd olunan təxmini təvəllüd tarixi haqqındakı qənaəti bir az da qüvvətləndirir. Hətta bu qeydlər, eləcə də bir sıra başqa faktlar alimlərin iddia etdikləri müxtəlif tarixlərlə müqayisədə 1141-ci ilin daha doğru olduğunu göstərir. "Xosrov və Şirin" poemasındakı bəzi qeydlər də bu tarixə şübhə ilə yanaşmağa əsas vermir.

Belə ki, Nizami "Xosrov və Şirin" əsərini yazmağa başladığı ilk vaxtlarda onun yaxın bir dostu şairin bu mövzuda əsər yazdığını eşidir, narahat olur, onu bu "səhv" yoldan çəkindirmək üçün bir axşam yanına gəlir. Şairlə çox

sərt və ötkəm danışır, “Xosrov və Şirin” mövzusunda əsər yazmasını murdar sümüklə oruc açmaq kimi qiymətləndirir və sözarası şairin qırx yaşında olduğunu dilə gətirir.

Pəs əz pəncah çelle dər çehel sal,
Məzən pənce dərin hərfo vərəq mal.

***Tərcüməsi:***

Əlli çillədən sonra qırx yaşında bu sözə əl vurma,
vərəqləri poz”.

Buradan belə anlaşılır ki, “Xosrov və Şirin” poemasını yazarkən şair qırx yaşında imiş. Ancaq Nizaminin dostu onun yanına nə vaxt gəlmişdir? Poema üzərində iş bir neçə il davam etmişdir. Onun yazılması 1177-ci ilin iyul ayından başlamış və 1181-ci ilin əvvəllərinə kimi davam etmişdir. Bu əsərin yazılma tarixi ilə bağlı bir az sonra daha ətraflı danışacağıq. Ancaq burada onu xatırladaq ki, Nizami poemanın giriş hissəsində onu Sultan Toğrul taxta çıxan vaxt, yəni 1177-ci ilin iyulunda yazmağa başladığını, “bu xəzinənin qapısını açdığını” bildirir. Poemanın sonunda isə onu 576-cı ildə, yəni miladi ilə 1180-ci ilin sonu, 1181-ci ilin əvvəllərində tamamladığını yazır. Dostunun onun yanına gəlməsi əsər üzərində iş başlanıb davam etdiyi bir vaxta düşür. Bu hadisənin 573, 574, 575, 576-cı illərdən hansında baş verdiyini qəti şəkildə demək çətindir. Z. Bünyadov Sultan III Toğrulun hakimiyyətə gəlməsi ilə əlaqədar mötəbər tarixi mənbələrə söykənərək yazır: “573-cü h.q. ilinin məhərrəmində (iyul 1177-ci il) sultanlığın hakim olduğu və vassal torpaqlarda yeddi yaşında olan III Toğrulun adına xütbə oxundu. Dövlətdə faktiki hakimiyyət Cahan Pəhləvanın əlinə keçdi. Ətraf torpaqların hakimlərindən və vassallardan heç kəs buna qarşı çıxmadı, çünki bütün hakimlər Pəhləvandan qorxurdular”. Biz bu tarixi arayışı ona görə veririk ki, Cahan Pəhləvan tərəfindən Nizamiyə eşq

mövzusunda bir əsər yazmaq sifarişi verilməsinin də bu hadisə və xütbə oxunmalarla bağlı olduğunu xatırladaq. Nizaminin dostu yuxarıda göstərilən tarixlərdən hansında Nizaminin yanına gəlmiş və onun 40 yaşı olduğunu dilə gətirmişdir? Biz 574 və 575-ci illəri daha ağlabatan sayırıq. Çünki həmin parçadan aydın olur ki, şair əsərdən xeyli hissə yazmışdır. Nizami əsərdən bir parça dostuna oxuyur. Eşitdikləri qarşısında heyrətə düşən dostu məzəmmətlərini geri götürür. Nizamidən xahiş edir ki, başladığı işi davam etdirib axıra çatdırsın. O, Şərqə də, Qərbə də işıq saçan bir günəşdir. Ancaq o, belə bir əsər yaza bilər. Əgər dostu şairin yanına 574-cü ildə gəlibsə, onda Nizaminin 534 (1139-1140-cı illərdən birində)-cü ildə anadan olduğunu söyləmək mümkündür. Yox, bu hadisə 575-ci ildə baş veribsə, onda Nizaminin 535 (1140-1141-ci illərədən birində)-ci ildə anadan olduğunu deyə bilərik. Əgər dostu Nizaminin yanına 576-cı ildə, poemanın tamamlandığı ildə gəlibsə, onda Nizaminin 536 (1141-1142-ci illərdən birində)-cı ildə anadan olduğunu deyə bilərik. Dostu ilə Nizami arasında gedən söhbətdən isə belə anlaşılır ki, əsər başlanıb, ancaq yazılıb tamamlanmayıb. Ona görə biz 574 və 575-ci il tarixlərini daha ağlabatan sayırıq. Belə olan halda Nizaminin hicri qəməri təqvimlə 534-535-ci illərdən birində anadan olduğunu söyləyə bilərik ki, bu da miladi ilə 1139-1141-ci illərə uyğun gəlir.

Ancaq yenə də "Xosrov və Şirin" poemasının başlanğıcında başqa maraqlı bir qeyd də vardır. Şəbdiz və Gülgünün mənşəyindən danışan şair Ənhəraq (Kəpəz) dağından, onun ətəyindəki xristian məbədindən, o məbədin altındakı mağarada olan ata bənzər qara daşdan söhbət açır və dolayısı ilə 1139-cu ilin sentyabr ayının 30-da baş verən Gəncə zəlzələsindən danışır. Eyni zamanda həmin zəlzələdən

keçən dövrün 40 il olduğunu bildirir. Çox qəribə bir vəziyyət yaranır. Belə çıxır ki, Nizami Gəncə zəlzələsinin baş verdiyi 1139-cu ildə anadan olmuşdur. 1139-cu il zəlzələsindən keçən 40 il söhbətinin qələmə alındığı parçanı oxuculara təqdim edirik:

Vəzan kuhi ke xanənd Ənhəraqəş,
Səri bini fetade zire saqəş.
Be matəmdariye an kuhe qolrəng,
Siyəh came neşəste yek cəhan səng.
Be xəsmi k-aməde bər sənglaxəş,
Şokufevar kərde şax-şaxəş.
Fələk guyi şod əz fəryade u məst,
Be səngestane u dər şişe beşkəst.
Xodara gərçe ebrəthast besyar,
Qiyamətra bəs in ebrət nemudar.
Ço dər əhde çehel sal əz kəmo biş,
Rəsəd kuhi çenanra in çənin piş.
To bər ləxti koluxe ab xorde,
Çerayi təkyeye-cavid kərde.

***Tərcüməsi:***

Ənhəraq adlanan o dağdan dizi üstünə düşmüş bir baş görürsən.
O gülrəngli dağa matəm saxlayırmış kimi bir dünya daş qara paltar geyib oturmuşdur.
Onun daşlağına gələn düşmənçilik daşları açılmış güllər kimi parça-parça etmişdir.
Sanki fələk onun fəryadından məst olmuş və şüşəni onun dağlarına vuraraq qırmışdır.
Allahın ibrətləri çox olsa da,
qiyamətə nümunə olmağa bu ibrət bəsdir.
Az-çox qırx il ərzində elə dağın başına belə bir iş gəlirsə,
sən sudan islanmış bir çəngə torpağa nə əsasla əbədi

söykənəcək kimi baxırsan?

Buradakı humanist düşüncə və sualları bir kənara qoyaq. Burada söhbətin 1139-cu il sentyabrın 30-da baş verən zəlzələdən getdiyi şübhə doğurmur. Həm də bildirilir ki, bu zəlzələ bu sözlər yazılandan qırx il əvvəl olmuşdur. Eyni zamanda zəlzələdən keçən bu qırx illə şairin qırx yaşında olması haqqındakı söhbət poemanın əvvəlində aparılır. Buradan da Nizaminin 1139-cu ildə sentyabrın 30-da baş verən Gəncə zəlzələsi ilə eyni vaxtda anadan olması haqqında düşünmək imkanı yaranır. Zəlzələ sentyabrın 30-da baş vermişsə, Nizami də özünün Şir bürcündə anadan olduğunu yazır. Şir bürcü isə bu vaxt iyul-avqust ayına düşürdü ki, bu da zəlzələnin baş verdiyi sentyabr ayı ilə yanaşı dayanan bir aydır. Beləliklə, şairin "Xosrov və Şirin" əsərindəki bu qeydlərinə əsasən Nizaminin 1139-cu ilin iyul-avqust aylarında və bəlkə də elə sentyabr ayında anadan olduğunu düşünmək ağlabatan və cəlbedici görünür.

"Xosrov və Şirin" poemasının bəzi əlyazmalarında və o cümlədən poemanın Azərbaycan dilinə tərcüməsində Ənhəraqın (Kəpəzin) başına gələn hadisə 40 illik bir tarixi olan əhvalat kimi yox, dörd yüz illik tarixi olan bir hadisə kimi verilir ki, bu da yanlışdır. Nizami açıq-aşkar Ənhəraqın başına gələnlərdən söz açarkən 1139-cu il zəlzələsini təsvir edir. Görünür, bu dörd yüz il söhbəti "Xosrov və Şirin"də təsvir edilən hadisələrdən Nizami dövrünə qədər keçən zaman müddəti haqqındakı düşüncədən qidalanır. Halbuki, Xosrov Pərvizin taxta çıxmasından Nizaminin əsəri yazmağa başlaması arasında keçən müddət 600 ilə yaxındır.

Nizaminin təvəllüd tarixini müəyyənləşdirməyə çalışarkən alimlər bəzən şairin "Xosrov və Şirin" poemasındakı başqa bir qeydin də üstündə dururlar. Bu qeyd poemanın əvvəlində "Bu kitabın tərtibi və eşq haqqında bir

neçə söz" bəhsindədir. Dostu şairin əsərindən bir parça dinləyəndən sonra heyrətə gəlir. Bir müddət heç nə deyə bilmir. Nizami ona "niyə susursan, bir söz demirsən" deyə müraciət edəndə əvvəlki sözlərinə görə üzr istəyən dostu indi başqa cür danışır:

Bu cür sehri fəqət sən yad edərsən,
Büt üçün Kəbəni abad edərsən...
Bu yol ki başladın, dönmə, davam et,
Binanın himnini qoydun, tamam et.
Bu qiymətli İraq nəqdi əlində
Əsir olmaq nədir divlər elində?
Atı sür, dustaq olma, Gəncədən qaç,
Sən aslan pəncəlisən, pəncəni aç!
...Günəşsən. səndə bir dünya işıq var,
Saçırsan Şərqə, həm Qərbə işıqlar.

Dostunun sözlərini qəbul etməyən, hətta bir az əsəbiləşən şair bu söhbətlərin mənasız olduğunu bildirir və sözarası belə bir fikir də bəyan edir:

Fələk bəxtimdə şirlik göstəribdir,
Nə fayda, amma yun şirlik veribdir.
Nə o şirəm ki, düşmənlə edim cəng,
Bu bəsdir indi mən mənlə edim cəng

Bəzi alimlər belə düşünürlər ki, şair buradakı "Fələk bəxtimdə şirlik göstəribdir" sözləri ilə Şir bürcündə doğulmasına işarə etmək istəmişdir. Y.E.Bertels bu misrada şairin Şir bürcündə doğulmasına işarə olduğunu ehtimal edirsə, Rüstəm Əliyev bunu şairin Şir bürcündə doğulmasının dəqiq və qəti bir ifadəsi sayır və Nizaminin məhz Şir bürcündə doğulması fikrini yeganə doğru fikir hesab edir. Halbuki, Bertels "Nizami" monoqrafiyasında yazır: "Güman etmək olar ki, Nizami bu illərdən birinin iyul (iyul-avqust deyilsə, daha düz olar) ayında anadan olmuşdur.

Hər halda “Xosrov və Şirin” poemasındakı aşağıdakı beyti bu mənada izah etmək mümkündür.”

Fələk bəxtimdə şirlik göstəribdir,
Nə fayda, amma yun şirlik veribdir.

Şir bürcü altında doğulmağa işarədir. “Şirlik” sözü burada həm də “igidlik”, “qəhrəmanlıq” bildirir, ancaq Şir bürcünə işarə görmək də tamamilə mümkündür”. Y.E.Bertels bunları deməklə bərabər bundan Nizaminin təvəllüd tarixini müəyyənləşdirmək üçün ciddi şəkildə bəhrələnmir. Rüstəm Əliyev isə əgər Nizaminin lirik şeirlərinin rusca poetik tərcüməsinə yazdığı önsözdə şairin 1141-ci ildə Gəncədə anadan olduğunu yazırsa, Nizami əsərlərinin 1981-ci ildə Leninqradda “Sovetskiy pisatel” nəşriyyatında çap edilən bircildliyinə yazdığı önsözdə Nizaminin qəbul olunmuş 1141-ci il təvəllüd tarixinin “Xosrov və Şirin”dəki bir işarəyə görə doğru olmadığı qənaətinə gəlir. Nizaminin “Fələk dər taleəm şiri nəmudəst” (“Fələk” bəxtimdə şirlik göstəribdir”) misrası işlənən parçanı nümunə gətirən müəllif yazır: “Bu sətirlərdən görünür ki, şair Şir bürcü altında anadan olmuşdur. Başqa bir yerdə o, göstərir ki, poema üzərində işin başlanğıcında onun qırx yaşı olmuşdur ki, o da poemanı hicri qəməri ilə 575-ci ildə başlamışdır. Deməli, Nizami 535-ci ildə anadan olmuşdur. Bu ildə günəş Şir bürcündə 17-22 avqustda olmuşdur. Bu bilgiləri indiki təqvimə çevirsək, dəqiq tərzdə müəyyənləşdirərik ki, Nizami avqustun 17-22-si arasında anadan olmuşdur”.

R.Əliyev burada iki ciddi səhvə yol vermişdir. Birinci səhv odur ki, o, “Xosrov və Şirin” poemasının yazılmağa başlanma ilinin 575 h.q. olduğunu düşünür, halbuki Nizaminin özünün göstərdiyi kimi, poema Sultan III Toğrul taxta çıxanda, yəni 573-cü ildə, miladi ilə 1177-ci ilin

iyulunda yazılmağa başlanmışdır. Ikinci səhv ondan ibarətdir ki, Günəş şir bürcündə altı gün yox, otuz gündən çox olur. Onun 17-22 avqust sözləri ona görə yanlışdır. Həmin dövrdə günəş Şir bürcündə iyulun sonlarından başlayaraq avqustun sonlarına qədər olmuşdur. Bu dövrdə və ondan sonra yazdığı əsərlərdə R. Əliyev şairin 1140-cı ilin avqust ayının 17-22-sində (17 iyul-22 avqust deyilsə, bəlkə daha ağlabatan olardı) anadan olduğunu bildirir? Eyni zamanda müəllif həmin önsözdə bir qədər sonra Nizaminin "Xosrov və Şirin" poemasını 1180-ci ildə yazmağa girişdiyini bildirir. Sanki müəllif bir az əvvəl yazdığını unudur. Ola bilsin ki, Nizami dövründə günəşin Şir bürcündə olması iyul ayının son günlərindən başlamışdır. Həm də təqvimlərdən yaxşı məlumdur ki, günəşin Şir bürcündə olması 30-31 gün davam edir. Biz belə düşünürük ki, Nizaminin yuxarıdakı sözlərində onun Şir bürcü altında anadan olmasına işarə azdır. Dostu Nizamiyə bildirir ki, sənin şir pəncən var (enane şir dari), pəncəni aç. Gəncədən kənara çıx, kim olduğunu göstər. Şair isə bununla razılaşmır. Fələk onu bir şair kimi yaratsa da, bu, bir yun şirlikdir, söz şirliyidir deyə cavab verir. Pəncə qılınc şirliyi deyil.

R.Əliyevin bu yöndəki fikirləri bir sıra başqa əsərlərində daha anlaşılmaz olur. Belə ki, alim bir çox yazılarında şairin təvəllüd tarixini nə üçün 1141-ci ildən 1140-cı ilə apardığını açıqlamır. Nizami əsərlərinin bir cildlik Leninqrad nəşrinə yazdığı önsözdə bu hərəkətini Nizaminin "Xosrov və Şirin" poemasının guya 575-ci ildə yazılmağa başlaması ilə əlaqələndirir. Digər yazılarında bu "fakt" unudulur və guya Nizaminin "Fələk taleyimdə şirlik göstəribdir" misrasında onun şir bürcü altında doğulduğuna işarə olduğunu bildirərək bunun əsasında da Nizaminin 1140-cı ilin 17-22 avqustu arasında anadan olduğunu yazır.

Məsələn, "Sirlər xəzinəsi"nin poetik tərcüməsinə yazdığı önsözdə oxuyuruq: "Müxtəlif alimlər tərəfindən şairin 1138-1148-ci illər arasında anadan olduğu iddia edilmişdir. Lakin şairin "Xosrov və Şirin"də etdiyi bir işarənin təhlili aydın göstərir ki, o, hicri tarixi ilə 535-ci ildə şir bürcündə anadan olmuşdur. Həmin tarix miladi ilə 1140-cı il avqust ayının 17-22-sinə uyğun gəlir". Yenə də Günəşin şir bürcündə olma müddəti cəmi altı gün göstərilir və 1141-ci il tarixini dəyişdirməyə səbəb olan fakt xatırlanmır.

Sözün qısası, əgər hətta həmin beytdə Nizami şir bürcündə anadan olduğunu bildirsə belə,buna əsaslanaraq Nizaminin məhz 1140-cı ildə, özü də avqust 17-22 (17 iyul-22 avqust yazılsa daha düz olardı) arasında anadan olması haqqındakı fikir anlaşılmaz bir uydurmadan başqa bir şey deyildir. Ancaq biz yenə "Xosrov və Şirin" əsərində şairin dostunun onun qırx yaşında olduğunu xatırlatmasını və Nizaminin özünün poemanın başlanğıcında Gəncə zəlzələsindən keçən qırx ildən danışmasını nəzərə alaraq Nizaminin, doğrudan da, 1139-cu ilin avqust və ya sentyabr ayında doğulduğunu düşünməyi doğru sayırıq. Eyni zamanda bütün bu ehtimallar artıq ənənəvi bir tarix kimi qəbul edilən 1141-ci il tarixini dəyişdirmək üçün kifayət qədər əsas verə bilmir. Ona görə də hələ vaxtilə M. Rəfilinin dediyi kimi, biz də belə düşünürük ki, Nizami 1141-ci ildən gec olmayaraq anadan olmuşdur və bu tarixi dəyişdirməyə əsas və ciddi səbəb yoxdur.

Y.E.Bertels yarımçıq qalan, 1962-ci ildə Moskvada H.Araslının redaktorluğu ilə çap olunan "Nizami və Füzuli" monoqrafiyasında şairin təvəllüd tarixi ilə bağlı uzun-uzadı araşdırma və müşahidələrdən sonra fikirlərini yekunlaşdıraraq yazır: "Əgər indi Nizaminin "İqbalnamə" tamamlanarkən altmış üç yaş yarımında olması haqqında

qeydini qəbul etsək, doğru saysaq və hesab etsək ki, bundan bir az sonra o, vəfat etmişdir. Onda onun təxmini təvəllüd tarixi də müəyyənləşəcək ki, bu da 533-543-cü illər (1138/39-1147/48) arasında olacaq, daha mümkün tarix isə 536-537 (1141-1143)-ci illər olacaqdır". Yuxarıdan bəri apardığımız təhlillərə görə, Nizaminin ən dəqiq təvəllüd tarixi 1139-cu ilin iyul-avqust aylarıdır. Eyni zamanda şairin 1141-ci ildən sonra anadan olması haqqındakı hər hansı fikri də qeyri-məqbul sayırıq. Biz bütün dediklərimizə baxmayaraq Nizaminin mövcud qəbul olunmuş, ənənəvi 1141-ci il təvəllüd tarixini dəyişdirməyə əsas verəcək elə ciddi, əsaslı səbəb, dəlil görmürük.

Ancaq təəssüflər olsun ki, Nizaminin təvəllüd tarixini əsassız olaraq çox sonralara çəkmək təşəbbüsləri də vardır. Tanınmış Azərbaycan nizamişünaslarından Azadə Rüstəmovanın "Nizami Gəncəvi" monoqrafiyası bu cəhətdən daha çox diqqəti cəlb edir. R. Azadə bir yandan Nizaminin "İqbalnamə"əsərində şairin 63 il altı ay (miladi ilə 62 il) yaşaması haqqındakı qeydini həqiqət kimi qəbul edir, o biri yandan "İqbalnamə"nin həm də Mosul hökmdarı İzzəddin Məsuda ithaf olunmasını şübhə doğurmayan bir gerçək kimi nəzərə alır və bunun əsasında da şairin təvəllüd və vəfat tarixi haqqında yazır: "Beləliklə, əgər 1211/12-ci illəri (608-609 h.q.) vəfat tarixi kimi götürüb, şairin 63-64 il yaşadığını qəbul etsək, onun təxminən bu günədək ehtimal edildiyi kimi 1141-ci ildə deyil, 1148-1149-cu illərdə (545-546 h.q.) anadan olduğu qənaətinə gələ bilərik". R. Azadənin mülahizə və nəticələri nə qədər cəlbedici görünsə də, yanlışdır. Hər şeydən əvvəl ona görə ki, "Xosrov və Şirin"dəki qırx yaş, "İqbalnamə"dəki altmış yaş söhbətləri ilə uyğun gəlmir. İkinci tərəfdən R. Azadə hicri qəməri ilə göstərilən altmış üç il altı ay faktını miladiyə çevirəndə yaranan fərqi nəzərə

almır. Hicri qəməri ilə 63 il altı ay miladi ilə göstərilsə, 62 ilə bərabər olur. Nizaminin vəfat tarixi ilə bağlı R.Azadənin ehtimalı az-çox ağlabatan görünsə də, biz doğruluqdan deyil, ağlabatan görünməkdən söhbət edirik, şairin təvəllüd tarixi ilə bağlı onun qənaətləri yanlışdır.

Güney Azərbaycandan olan nizamişünas alim, Tehran universitetinin sabiq professoru Bərat Zəncaninin bu barədəki qənaəti daha qəribə və yanlışdır. “Nizami Gəncəvinin həyatı, əsərləri və “Sirlər xəzinəsinin şərhi” adlı kitabında o, bu məsələyə ayrıca diqqət yetirir. B. Zəncani, Y.Ripka, V.Baxer, Y.E.Bertels, Müctəba Minəvi, V.Dəstgirdi, V.Minorski. Q.Darab, M.Müin, Z.Səfa, Ə.Şəhabi və Mir Abbas Mirbağırzadənin şairin təvəllüdü ilə bağlı fikirlərini xatırlayandan sonra M.Mirbağırzadənin qənaəti ilə razılaşaraq Nizaminin hicri qəməri tarixlə 526-(1131-1132 miladi)-cı ildə anadan olduğunu bildirir. B. Zəncani bu qənaətini əsaslandırmaq üçün hər şeydən əvvəl “İskəndərnamə”nin “İqbalnamə” hissəsindəki Gəncə zəlzələsinin təsvirinə həsr edilmiş parçanı əsas götürür. Bu təsvirin 534-cü ildə Gəncədə baş verən zəlzələnin təsviri olduğunu, Nizaminin bu zəlzələni gözləri ilə görən bir adam kimi qələmə aldığını, bu vaxt onun 10-12 yaşlarında olduğunu ehtimal edir. Eyni zamanda “Sirlər xəzinəsi” məsnəvisindəki peyğəmbərə müraciətlə deyilən aşağıdakı beytə istinad olunur. Nizami yazır:

Pansədo həftad bəs əyyame-xab
Ruz boləndəst beməcles şetab.

***Tərcüməsi:***

Beş yüz yetmiş yuxu dövrü bəsdir,
gün qalxıb, məclisə tələs.

Buradakı 570 rəqəmi ayrı-ayrı əlyazmalarında 550, 580, 59 və s. şəkillərdə də qeyd olunur. B. Zəncani belə hesab edir ki, bu rəqəmlərdən 550 rəqəmi daha doğrudur. Düzdür, bir sıra əlyazmalarda 550 yazılmışdır. Eyni zamanda müəllif bu rəqəmi peyğəmbərin ölümündən keçən illərin sayını bildirən rəqəm kimi götürür və əsərin hicri qəməri tarixilə 561(1265/66)-ci ildə yazıldığını iddia edir. Həm də, Nizaminin "Sirlər xəzinəsi" əsərində qırx yaşın nəqdinin intizarında olmasını nəzərə alır. Deməli, Nizami poema yazılarkən ən azı 35 yaşında imiş. Onda 661-dən 35 çıxsaq, Nizaminin təvəllüd tarixini əldə etmiş olarıq. B. Zəncani fikirlərini yekunlaşdıraraq yazır: "Nizami həmin məsnəvidə (yəni "Sirlər xəzinəsi"ndə) özünü qırx yaşın nəqdinin intizarında olan adlandırır və ən çoxu otuz doqquz yaşı olduğunu bildirir. Və bu rəqəmi 561-dən çıxsaq, şairin təvəllüd tarixi əldə olunacaq. 561-39=522.

Beləliklə, Nizaminin təvəllüd tarixini hicri 520-ci il hesab edən Mir Abbas Mirbağırzadənin fikri həqiqətə yaxındır. Bu qayda ilə Nizaminin Gəncə zəlzələsi zamanı, yəni 534-cü ildə on iki yaşı olmuşdur. Və əgər "qırx yaşın nəqdinin intizarındadır" ifadəsinə aşağı rəqəm olan 35-i götürsək, onun təvəllüdü 526 (miladi 1131-1132)-cı il olacaq. 561-35=hicri 526-cı il".

Barat Zəncaninin bu qənaətləri ona görə yanlışdır ki, şairin "Xosrov və Şirin"dəki qırx yaş və "İskəndərnamə"dəki altmış yaş haqqındakı qeydləri ilə uyğun gəlmir. B.Zəncani bu məsələdə Nizaminin dəqiq qeydlərini nəzərə almır. Onun şair təxəyyülünün gücünə şübhə ilə yanaşır. Elə düşünür ki, Nizami ən azı 12 yaşında olmasaydı, Gəncə zəlzələsini bu cür dəqiqliyi ilə təsvir edə bilməzdi. Əlbəttə, bunlar öz yerində. Yuxarıda qeyd etdiyimiz kimi, Nizami əsərlərindəki çoxsaylı qeydlər, xatırlatmalar təsdiq edir ki, Nizaminin

təvəllüd tarixi hicri 534-535-ci miladi 1139-1141-ci illərdən birində baş vermişdir. Eyni zamanda bu tarixlər arasında elə ciddi fərq yoxdur və onlardan 1141-ci il tarixi ənənəvi olaraq qəbul edildiyindən onu dəyişdirməyə, qəti şəkildə yanlış saymağa əsas olmadığından Nizami üçün yeni bir təvəllüd tarixi ortaya atmağa heç bir ehtiyac görmürük.

## *ŞEYX NİZAMİ VƏTƏNİ GƏNCƏ*

Nizami Gəncəvi yaradıcılığına Əxilik ideologiyasının təsirinin öyrənilməsində dahi şairin doğma yurdu ətrafında cərəyan edən əsassız fikirlərə cavab vermək vacibdir.

Millətimizi gözü götürməyən bir sıra əcnəbi alimlər Şeyx Nizaminin atasının Gəncəyə Qumnan gəlmə və fars olduğunu iddia etmişlər. Belə olan halda Nizaminin əxiliklə bağlılığı məsələsi də şübhə altına alınmışdır. Çünki, Gəncə əxiliyin mərkəzlərindən olmuş bu ideologiyanın daşıyıcıları isə türklər olmuşlar.

Buna görə görkəmli nizamişünas alim Xəlil Yusiflinin bu istiqamətdə apardığı elmi tədqiqat və araşdırmalara nəzər salmaq yerinə düşərdi:

Əslində Nizaminin doğulduğu və yaşadığı yer barədə o qədər də ciddi mübahisə yoxdur. İstər Nizaminin əsərlərindəki çoxsaylı qeydlər, istər daha qədim və mötəbər qaynaqların verdikləri bilgilər, istərsə də müasir dövrün ən ciddi araşdırıcılarının qənaətləri ondan ibarətdir ki, Nizami Gəncəvi köklü bir gəncəli türk ailəsində anadan olmuş, Gəncədə yaşamış, bu şəhərdə də vəfat etmişdir. Məzarı indi də durur və qəbri üzərində möhtəşəm abidə ucalır. Şərqdə yazılan ilk təzkirənin müəllifi olan Məhəmməd Ovfi 1203-1228-ci illər arasında yazdığı "Lübabül-əlbab" adlı

təzkirəsində Nizami haqqındakı bəhsi “Əlhəkim əl-kamil Nizami əl-Gənceyi” şəklində başlayır və qeyd edir ki, “bu məsnəvilərdən başqa ondan az şeir söyləyirlər. Və mən Nişapurda bir böyük şəxsin söylədiyi bu şeirləri eşitdim”.

Nizaminin həyatından elə ətraflı bilgi verməyən M.Ovfi onu Gəncəli kimi xatırlayır və burada heç bir şübhəyə yer qoymur. Ondan bir qədər sonra yaşayıb-yaradan Zəkəriyyə Qəzvini isə özünün “Asarül-bilad və əxbarül-ibad” adlı coğrafi əsərində Gəncə haqqında danışandan sonra bu şəhərdə yetişən, bu şəhərdən olan ən böyük bir şəxsiyyət kimi Əbu Məhəmməd Nizamidən, onun poemalarından və bir çoxlarının görmədiyi “Divan”ından söz açır, “Divan”dakı şeirlərin qısa səciyyəsini verir. Dəqiq məlum olur ki, Z.Qəzvini şairin həm poemalarını, həm də “Divan”ını görmüşdür. Diqqətçəkən cəhət odur ki, o da Nizaminin Gəncədən olduğuna hər hansı şəkildə şübhə etmir.

XIV əsr tarixçilərindən Həmdullah Mustovfi Qəzvini də Nizaminin Gəncə şəhərindən olduğuna şübhə etmir və “Tarixe-qozide” də “Nizami Gəncəvi Sultan Toğrul ben Arslan Səlcuqinin müasiri olmuşdur” deyə yazır. Əbdürrəhman Cami (XV əsr) “Baharıstan” əsərində yazır: “Rəhmətlik Nizami Gəncədəndir, onun fəzilət və kamalı aydındır və şərhə ehtiyac yoxdur”.

Böyük türk şairi Əlişir Nəvai «Xəmsə»sinin bütün poemalarında Nizamini bir ustad kimi vəsf edərkən dönə-dönə onu bir Gəncə günəşi kimi xatırlayır:

Gəncə quyaşı ki götürğəc ələm
Eylədi söz məmləkətin yekqələm.
Gəncə vətən, konli onun gəncxiz
Xatiri gəncurü tili gənc riz.

Nizami haqqında daha çox bilgi verən, bir çox orta əsrlər müəlliflərindən fərqli olaraq “Xəmsə”dən əlavə, şairin

20 min beytlik "Divan"ını da görən Dövlətşah Səmərqəndi də "Onun doğulduğu şərəfli yer Gəncədir" deyə bəyan edir.

Görkəmli Azərbaycan alimi Əbdurrəşid Əl-Bakuvi də «Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri» əsərində Gəncə məqaləsini bu sözlərlə bitirir: "Görkəmli şair, arif və həkim Əbu Məhəmməd Nizami buradandır. Onun gözəl "Divan"ı və "Xosrov və Şirin", "Leyli və Məcnun", "Məxzən əl-əsrar" və "Həft peykər" adlı gözəl dastanları var". Zəkəriyyə Qəzvini kimi,Əbdurrəşid Bakuvi də "İskəndərnamə" poemasının adını çəkmir. Görünür ki, o, "Abidələr" müəllifinin sözlərini təkrar edir. Nizaminin Gəncədən olduğuna şübhə etməyən, onun Gəncədən olduğuna şübhə doğurmayan bir aksiom kimi yanaşan müəlliflərin sayını istənilən qədər artırmaq olar. Onu da nəzərə alaq ki, bütün bu müəlliflər XVI əsrə qədər yaşamışlar və Nizami dövrünə daha yaxın olmuşlar. O dövrdə yaşayıb yaratmışlar ki, hələ Nizaminin əsərləri onların üzünü köçürən katiblər tərəfindən təhriflərə məruz qalmamışdır, onlara yersiz əlavələr edilməmişdir.

1930-cu illərdən başlayaraq Nizami əsərlərinin elmi tənqidi mətnlərini hazırlayan mütəxəssislərə bu vəziyyət yaxşı məlumdur. Nizami əsərlərinin mətnlərinə artırmalar edən adamlar bəzən bu artırmaları elə yöndəmsiz və naşı tərzdə edirlər ki, Nizami şeirinin məntiqi axarı ilə uyuşmur, onu dil, üslub, fikir baxımından pozur. Nizaminin həyatı, fikirləri ilə bağlı fikir yürüdərkən bu cəhəti nəzərdən qaçırmaq böyük yanlışlıqlara yol aça bilər. Ancaq təəssüflər olsun ki, bəzən elmdə az-çox nüfuzu olan mütəxəssislər də Nizami əsərlərinə artırılan bu cür saxta, qondarma beytlərə əsaslanaraq mötəbər qaynaqların və şairin özünün bəyan etdiyi həqiqətlərə şübhə oyatmağa çalışırlar.

Belə yanlış hərəkətlər orta əsrlərdə də olmuşdur, bu gün də vardır.

Biz yuxarıda Nizaminin köklü bir Gəncəli olduğuna şübhə etməyən təzkirəçi, tarixçi və coğrafiyaçıların qeydlərini gözdən keçirdik. İndi də onlardan sonra yaşayıb-yaradan və bəzi alimlərin yanlış və həqiqətdən uzaq mülahizələrini qidalandıran müəlliflərin qeydlərinə nəzər salaq. Belə təzkirələrdən vaxtilə A.Krımskinin diqqətini daha çox cəlb edən "Həft iqlim" təzkirəsinin müəllifi Əmin Əhməd Razi və "Atəşkədə" təzkirəsinin müəllifi Lütfəli bəy Azər Beqdelidir. Bu təzkirəçilər Nizami "İskəndərnamə"si-nin sonlarına yaxın katiblər tərəfindən artırılan və Nizamiyə məxsus olmayan misralara əsaslanaraq Nizami Gəncəvinin ya atasının, ya da özünün İranın Qum vilayətinin Təfriş bölgəsinin Ta kəndindən olduğunu bəyan edirlər.

A.Krımski bu təzkirələrə o qədər inanır ki, onların əsasında daha əvvəlki dövrlərin müəlliflərinin qənaətlərini rədd etmək fikrinə düşür. A.Krımski yazır: "Dövlətşahın məqaləsinin elə ilk sətirlərini tənqid etmək üçün şairlərin tərcümeyi-halını coğrafi prinsiplə düzən iki təzkirəçinin qeydləri ilə razılaşmamaq olmaz. Onların hər ikisi Nizaminin dünyaya gəlişini qərbi İrandakı müqəddəs şiə şəhəri Qumla, yaxud daha dəqiq desək, Qum vilayəti ilə əlaqələndirirlər. Bunlar "Həft iqlim" və Lütfəli bəyin 1760-1779-cu illərdə yazılmış "Atəşkədə" təzkirəsidir. Onlarda tərcümeyi-halların coğrafi prinsiplə yazılması nəticəsində Nizami Qumdan çıxmış başqa adamlar kimi təqdim olunur, bütün ömrü boyu yaşadığı Gəncə şairləri arasında göstərilmir".

A.Krımski ona da diqqət yetirir ki, "Xəmsə"nin Britaniya muzeyində saxlanılan və 1400-cü ildə köçürülmüş Ç.Ryö tərəfindən onun fars əlyazmaları kataloqunun II cildində təsviri verilən bir nüsxəsində də "İskəndərnamə"də

Nizaminin “dağlıq Qum ölkəsindən” (“iz qornoy stranı Kuma”) olduğu xatırlanır. Ser Q.Auzliyə mənsub olan və 1612-ci ildə köçürülən bir «Xəmsə»də də Nizaminin Qumdan olması faktının göstərilməsi də guya coğrafi təzkirələrin nüfuzlu bir təsdiqidir. Yuxarıda qeyd etdiyimiz kimi, Nizaminin Gəncədən olduğunu söyləyən mötəbər və daha qədim, hətta 1400-cü ildə üzü köçürülən “Xəmsə”dən çox-çox əvvəl yazılan mənbələrə biganə olan A.Krımski yanlış bir müddəanın təsdiq üçün hər cür kiçicik faktdan, əslində real faktlar qarşısında bir sabun köpüyünə çevrilən uydurmalardan, yanlışlıqlardan yapışmağa çalışır.

Ancaq A.Krımski böyük və təcrübəli bir alim kimi Nizaminin Qumdan olduğunu qeyd edən “Xəmsə” nüsxələri ilə bərabər, həmin beytlərin olmadığı qədim “Xəmsə” nüsxələrinin olduğunu da etiraf edir. Burada bir həqiqət unudulur. Həmin artırma beytlərin olmadığı “Xəmsə” nüsxələrinin daha qədim olduğu etiraf edilmir. Ancaq A.Krımski burada da dayanmır. Nizami “Xəmsə”sinin bəzi əlyazmalarında onun Qumdan olduğunu bildirən misraların olmamasını hər cür elmi təfəkkürdən uzaq bir tərzdə izah edir. Onun uydurma qənaətinə görə, “əlbəttə, “Xəmsə”nin elə nüsxələri də vardır ki, fanatik sünni dözümsüzlüyü ucbatından köçürücü katiblər onun ciddi şiə Qumundan çıxması barədəki tərcümeyi-hal xarakterli etirafını aradan götürməyə çalışmışlar”. A.Krımski heç olmasa onu nəzərə almır ki, Nizami əsərlərində şiəlik ruhu yoxdur. Nizami sünnidir, islamın bütövlüyünü qorumaq istəyən böyük bir din adamıdır.

A.Krımski daha çox Əmin Əhməd Razi (XVI əsr) və Lütfəlibəy Azər Beqdeliyə istinad edir və onların fikirlərini “İqbalnamə”nin bəzi əlyazmalarında rast gəlinən artırma beytlərlə əsaslandırmağa çalışır. Həm də öz subyektiv fikrini

həqiqət kimi təqdim edir. Biz onu da bilirik ki, Nizaminin Qum vilayətindən, onun Təfriş və ya Fərahan bölgəsindən olduğunu iddia edən təkcə A.Krımskinin dediyi müəlliflər deyildir. Buraya "Meyxanə" və "Reyhanətül-ədəb" müəlliflərini və digərlərini də artırmaq olar. "Meyxanə" təzkirəsinin müəllifi Molla Əbdülnəbi Fəxrəzzəmani Qəzvini Nizami haqqında bir neçə gurultulu təriflər söylədikdən sonra yazır: "Mötəbər kitablardan belə nəzərə çatdı ki, onun doğulduğu şərəfli yer Gəncədir. Amma o fəsahət və bəlağət mənbəyinin möhtərəm əziz atası Qumun Fərahanındandır. Necə ki, özünün "İskəndərnamə"də buyurduğundan məlum olur".

Ço dor gərçe dər bəhre Gənce ğoməm,
Vəli əz Fərahane-şəhre Ğoməm.

***Tərcümə:***

Bir inci kimi hərçənd Gəncə dənizində itkin düşmüşəm, ancaq Qum şəhərinin Fərahanındanam.

Ale-Buyənin səltənəti zamanında bəzi maneələrə görə onun möhtərəm atası deyilən şəhərdən dörd yüzüncü ildə Ərran diyarına ki, oranın mərkəzi Gəncədir, gəldi. Gəncənin havası o həqiqət mədəninin təbiətinə uyğun gəldiyindən orda türklərdən bir qız istədi və orda vətən saldı. Buna əsasən şeyxin təvəllüdü Gəncədə baş verdi. Şeyxin (Nizaminin atasının) adı Yusif, atasının adı isə Müəyyəddir. Ancaq bu Molla Əbdülnəbidən soruşmaq lazımdır ki, əgər Nizaminin atası dörd yüzüncü, yəni, 1009-1010-cu ildə Gəncəyə gəlib burada türklərdən bir qız alıbsa, onun oğlu İlyas niyə 135 il sonra anadan olub? Şeyx Camal Mosuli ilə Nizami necə görüşüb? Nizami 1188-ci ildə yazdığı "Leyli və Məcnun" poemasını necə olmuşdur ki, 1160-ci ildə vəfat edən Şirvan şahı Mənuçöhrün sifarişi ilə yazmışdır? "Xosrov və Şirin", "Yeddi gözəl" poemalarının Qızıl Arslanın adına yazıldığını,

“İskəndərnamə”nin Toğrul ibn Arslan şahın adına yazıldığını haradan, hansı mötəbər mənbələrdən götürmüşdür?

Əbdülnəbi Qəzvininin fikrinin yanlışlığını onun başqa yanlış fikirləri də təsdiq edir. Məsələn, onun fikrincə, Nizami 84 yaşında 502-ci (1108-1109) ildə vəfat etmişdir. Bu sözlərdən belə anlaşılır ki, Nizami 418-ci ildə anadan olmuşdur. Üstəlik belə bir fikir formalaşır ki, Əbdülnəbi Qəzvini kimdənsə, ayrı bir adamdan danışır, ancaq Nizaminin əsərlərini həmin adamın adına çıxır. Bu dörd yüzüncü ildə Gəncəyə gələn və 418-ci ildə İlyas adlı oğlu olan adam görünür ki, başqa bir şəxsdir. “Meyxanə” təzkirəsini nəşrə hazırlayan Əhməd Gülçin Məani doğru olaraq Əbdülnəbi Qəzvininin göstərdiyi tarixin yanlış olduğunu bildirir.

“Reyhanətül-ədəb” təzkirəsinin müəllifi Məhəmməd Əli Təbrizi isə Nizaminin vətəni ilə bağlı eyni fikri aşağıdakı kimi ifadə edir: “Nizami Gəncəvi Mütərrizi Qumi ya Fərahani, künyəsi Əbu Məhəmməd, ləqəbi Cəmaləddin və Nizaməddin, Nizami, Nizami Gəncəvi, Həkim Nizami kimi məşhurdur. Əsli Qumun Təfrişindən, ya bəzilərinin yazdığına görə Qumun Fərahanındandır. Məskəni, vətəni, mədfəni (dəfn olunduğu yer) Azərbaycan ölkəsidir…”.

XX əsrin görkəmli Azərbaycan alimi Firudin bəy Köçərli də “Azərbaycan türklərinin ədəbiyyatı” adlı kitabında Nizamiyə xeyli yer vermiş, son dövr təzkirələrinin təsiri ilə o da Nizaminin atasının İranın Qum vilayətindən gəlmə bir şəxs olduğunu, ancaq Nizaminin Gəncədə anadan olduğunu yazmışdır. F.Köçərli yazır: “Bəzi rəvayətə görə, Nizami Qum şəhərində təvəllüd edib nəşvü-nüma tapdıqdan sonra Gəncəyə gəlibdir və burada ömrünün axırına kimi qalıbdır. Amma səhihi budur ki, onun ata-babası Qumdan Gəncəyə gələn zaman Nizami hənuz dünya səraçəsinə ayaq

basmamışdı və ol gövhəri-pakın təvəllüdü Gəncədə hicrətin 520-ci sənəsində (yəni, miladi 1126-cı ildə) vaqe olmuşdur".

F.Köçərli öz qeydlərini yazarkən Lütfəli bəy Azərin "Atəşkədə" təzkirəsinə, Ş.Saminin "Qamucül-əlam" adlı lüğətinə, Şerrin "Ümumi ədəbiyyat tarixi" əsərinə, Mirzə Məhəmməd Axundovun "Şeyx Nizami" kitabına və bir çox kitablara müraciət etmişdir. Bir sıra qaynaqların dəqiq şəkildə Nizaminin Gəncədə anadan olduğunu qeyd etmələrini yazmağını da F.Köçərli unutmur. Guya Nizaminin ata-babasının İranın Qum şəhərindən gəlmə olmasını əsaslandıran artırma beytləri də xatırlayır, anasının bir gəncəli qızı olmasını ehtimal edir, əsərlərinin Azərbaycan dilinə tərcümə edilməsinin zəruriliyindən danışır. F.Köçərlinin qeydlərində ən maraqlı məqamlardan biri Qızıl Arslanın Nizamiyə bağışladığı Həmdünyan kəndi ilə bağlıdır. F.Köçərli həmin kəndin Gəncənin 24 verstliyində, cənub – şərq səmtində vaqe bir kənd olduğunu, indi İlə adlandığını yazır. Nizaminin vətəni ilə bağlı F.Köçərlinin qənaəti daha çox son dövr təzkirələrinin məlumatına əsaslanır və yanlışdır.

F.Köçərlidən fərqli olaraq, Məhəmmədəli Tərbiyət Nizaminin vətəni mövzusu ilə bağlı daha qədim qaynaqlara bələd olduğundan Nizaminin atasının, ya özünün haradansa gəlmə olması məsələsini heç dilə gətirmir. Zəkəriyyə Qəzvini və Əbdurrəşid Bakuviyə söykənərək Nizaminin vətəni ilə bağlı olaraq yazır: "Əbu Zəkəriyyə Qəzvini və Əbdürrəşid Bakuvi ən qədim müəlliflərdəndir ki, Nizami haqqında danışmışlar. Onlar Cənzə (Gəncə) sözünün izahında yazırlar: "Əbu Məhəmməd Nizami Gəncədəndir". Onun, şair, ecazkar yaradıcı, arif və filosof olaraq, gözəl divanı vardır".

Məhəmmədəli Tərbiyət bu məsələyə bir tərəfdən bir tədqiqatçı kimi yanaşır, daha qədim və mötəbər qaynaqlara söykənərək inandığı həqiqəti, gerçəyi yazır. Əbdülnəbi Qəzvini, Əmin Əhməd Razi, Lütfəli bəy Azər, Rzaquluxan Hidayət, Məhəmmədəli Təbrizi kimi müəlliflərin Nizaminin özünün, yaxud atasının guya İranın Qum ölkəsinin Təfris bölgəsinin Ta kəndindən gəlməsi haqqındakı qeydlərini bilsə də, onlardan danışmağa, mübahisə açmağa ehtiyac görmür. Onun üçün bu mövzu ilə bağlı XIII-XIV əsrlər müəlliflərinin qeydləri bu yöndə daha doğru hökm vermək üçün kifayət edir.

İran ədəbiyyatşünaslığında Nizamidən, onun vətəninin hara olmasından çox yazılmışdır. Biz burada onlardan ancaq dörd nəfərin bu mövzuya münasibəti üzərində qısaca dayanmaq fikrindəyik. Bunlar Vəhid Dəstgirdi, Səid Nəfisi, Əliəkbər Şəhabi və Əbdülhüseyn Zərrinkubdur.

Nizaminin vətəni mövzusuna toxunan ən tanınmış alimlərdən biri Vəhid Dəstgirdidir. Qeyd edək ki, V. Dəstgirdi ilk dəfə Nizami əsərlərini İranda yeddi cilddə elmi şəkildə nəşr edən, ondan sonra gələn bütün nizamişünasların etiraf etdiyi bir alimdir. O, Nizami əsərlərini özünün yazdığına görə otuz əlyazması əsasında hazırlamış, bütün bu yeddi cilddə rast gəlinən, izaha ehtiyacı olan beyt və sözlərə şərhlər yazmışdır. V.Dəstgirdi, eyni zamanda Nizaminin həyat və yaradıcılığı, ədəbi əlaqələri barədə diqqətəlayiq araşdırmalar aparmış və bu araşdırmalarını Nizami əsərlərinin "Gəncineyi-Gəncəvi" adlanan yeddinci cildində nəşr etdirmişdir. O, hələ "Ərməğan" jurnalında nəşr etdirdiyi "Yek şaere fovqəltəbiyyə" adlı məqaləsində Nizaminin vətəni mövzusuna toxunaraq yazır: «Nizami hərçənd Gəncə şəhərində yaşamış və həmin yerdə dəfn olunmuşdur, ancaq

o, əslən Qumun Ğohestanındandır, vətəni Təfrişdə Ta adlanan bir kənddir. Necə ki, özü yazır:

Ço dor gərçe dər şəhre Gənce ğoməm
Vəli əz Ğohestane şəhre-Ğoməm
Be Təfreş dehi həst Ta name u
Nezami əz onca şode nam cu.

V.Dəstgirdi bununla kifayətlənməyərək bu qənaətlə razılaşmayan müəlliflərə etirazını bildirir, öz aləmində "tutarlı dəlillər" gətirir. "Mərhum Azər Beqdeli "Atəşkədə" də və onu təqlid edərək başqaları bu məsələdə şübhə göstərmiş və demişlər ki, bu iki beyt Nizami "Divan"ında artırmalardandır və Nizami əslən Gəncəlidir". "Guya bu dəlilsiz iddianın kökü oradadır ki, bu fikirdə olanların qənaətinə görə kəndli olmaq Nizaminin şəninə nöqsandır.Ancaq bu təsəvvürü qəbul etmək çətindir. Əvvələn ona görə ki, heç bir şairin iki ilhaqi beytlə Nizaminin doğulduğu yeri Gəncədən Ta kəndinə aparmağa ehtiyacı ola bilməz. İkincisi, Nizaminin əzəmətinin böyüklüyü bir tərəfdən onun kəndli olmasındadır.Çünki şəhərin hisslərə təsir edən havası azad fikirləri tərbiyə etməyə qabil deyildir".

V.Dəstgirdinin bu səhvləri üzərində dayanmağı artıq hesab edirik. Çünki o özü iyirmi il sonra yuxarıda göstərilən iki beytin ilhaqi (artırma) olduğunu etiraf edəcək, onların "İqbalnamə"nin qədim və mötəbər əlyazmalarında olmadığını, artırıldığı yerdə yerinə düşmədiyini, mənanı qırdığını nəzərə alacaq və "ola bilsin ki, ilhaqidirlər" fikrini söyləyəcəkdir. Ancaq burada onu qeyd edək ki, Azər Beqdelinin "Atəşkədə" təzkirəsində Nizaminin Gəncəli olması bildirilmir. V.Dəstgirdinin "Atəşkədə" ilə bağlı sözlərinin yalan olduğunu göstərmək üçün Azər Beqdelinin sözlərini oxucuların nəzərinə çatdırırıq: "Şeyx Nizami. Və o, Əbu Məhəmməd İlyas ibn Yusif ibn Muəyyəddir. O cənabın

əsli Qum ərazisindən sayılan Təfrişin pak torpağındandır. Ancaq onun möhtərəm atası Azərbaycanın gözəl suyu və havası ilə məşhur olan şəhərlərindən olan Gəncəyə getmiş və o cənab orada anadan olmuşdur”. Görünür ki, V.Dəstgirdi “Azər Beqdeli və onu təqlid edərək digərləri” sözlərini işlədərkən kimlərinsə fikirləri ilə razılaşmamış, ancaq ad çəkməkdən çəkinmiş, ara yerdə Azər Beqdeliyə böhtan atmışdır.

Vəhid Dəstgirdi sonralar da Nizamini iranlılaşdırmaq fikirlərindən əl çəkməmişdir. Şeir zövqü, Nizamiyə bələdliyi artdıqca, təkmilləşdikcə “İqbalnamə”yə artırılan beytlərin Nizamiyə məxsusluğunu müdafiə etməyin qeyri-mümkünlüyünü anlayan bu görkəmli alim indi Nizaminin İrandan olduğunu iddia üçün başqa “dəlillər” axtarıb tapır. O, “Gəncineye-Gəncəvi ya dəftəre-həftome-Həkim Nezami Gəncəvi” kitabının “Nizaminin tərcümeyi-halının kamil şərhi” adlı tədqiqatında yenidən Nizaminin əslini İrana aparan beytlərə diqqət yetirir və yazır: “Təzkirəçilərin fikrincə, Nizaminin Qumdan, Təfrişdən olmasının dəlili “İqbalnamə” də olan aşağıdakı iki beytdir:

Ço dor gərçe dər şəhre Gənce ğoməm…

Hərçənd bu iki beyt Nizami beytləri ilə tam bir oxşarlığa malikdir və dil haman dildir. Amma bizim qədim tarixli nüsxəmizdə bu iki beyt yoxdur.Əlavə olaraq elə yerdə durmuşdur ki, mətləblə əlaqəsi yoxdur və məna düzümünü qırır». Vəhid Dəstgirdi bundan sonra həmin artırma beytlərdən əvvəl və sonra gələn Nizami beytlərini nümunə gətirir və yazır: «Bu iki beyt məna və ifadə baxımından bir-biri ilə tam bir bağlılığa malikdir və sağlam zövq sahibi bilər ki, Qum və Təfrişlə bağlı iki beytin bu iki beyt arasında yeri yoxdur. Nəhayət, bir halda ki, Nizaminin İraqlı olması aydındır və atası, babaları Əcəm İraqı əhli olmuşlar. Onun

Qumlu və Təfrişli olması barədə əldə aydın dəlil yoxdur və bu iki beytin olduğu yerdə uyğunsuzluğu və qədim nüsxələrdə olmamasına görə, ola bilsin ki, ilhaqidirlər».

Bəs Vəhid Dəstgirdi nəyə əsasən iddia edir ki, Nizaminin atası və babaları Əcəm İraqından olmuşlar. Yenə Vəhidin öz sözlərinə müraciət edək: “Görəsən Nizaminin doğulduğu yer haman Gəncə şəhəridir, yaindiki İraqda anadan olmuş və uşaqlıq vaxtında atası ilə Gəncəyə getmişdir, bu mətləbi sübut etmək üçün şeirlərində dəlil yoxdur. Ancaq təqribən tamam təzkirə yazanlar yazırlar ki, Gəncədə anadan olmuşdur. Ancaq onun İraqlı olması yəqindir. Bu dəlil ilə ki, hər yerdə İraqı vəsf edir, İraqı görmək, o tərəfə səfər etmək şövqünü bildirir”.

O cümlədən, V.Dəstgirdi “Sirlər xəzinəsi” poemasından aşağıdakı beytləri nümunə gətirir və onlardan istədiyi nəticəni çıxarır:

Gənce gereh kərde qoribane mən,
Bi girehi gənce-Eraq ane mən.
Bang bər avərd cəhan key ğolam,
Gənce kodaməst o Nezami kodam.

***Tərcüməsi:***

Gəncə mənim yaxamı düyünləmişdir,
düyünsüz olsaydı, İraq xəzinəsi mənim olardı.
Dünya səsləndi ki, ey qulam,
Gəncə haradır, Nizami hansıdır.

Bu beytlərdəki fikirlər aydındır.Nizami Gəncədən kənara çıxmaq, hünərinə, dühasına layiq qiymət almaq istəyir. Vəhid Dəstgirdi isə buradan bu beytlərdən çıxmayan mənalar çıxarır və yazır: “Yəni, vətən etdiyim, sakin olduğum yerin düyünü (məni tutub saxlamağı olmasa, Əcəm İraqının xəzinəsi mənimdir. Və mən o diyardanam, ancaq Gəncə mənim yaxamı düyün-düyün etmişdir, mən bu yerdən

İraq səmtinə gedə bilmirəm".V.Dəstgirdinin nümunə gətirdiyi parçaların heç birində Nizami özünün Əcəm, yəni, İran İraqından olduğuna hər hansı bir işarə etmir. Nizaminin İraqı elm, fəzilət mərkəzi kimi vəsf etməsi də onun İraqlı olduğunu göstərmir. O dövrdə təkcə Nizami deyil, bir çox görkəmli sənətkarlar, alimlər İraqa can atmış, İraqı vəsf etmişlər. Hələ vaxtilə Y.E.Bertels V.Dəstgirdinin bu mülahizə və qənaətinin yanlışlığını göstərmək üçün Xəqani əsərlərində də İraqın vəsf olunduğuna, onun dəfələrlə İraqa getmək arzusunda olduğunu bildirməsinə diqqəti cəlb etmişdir. Məsələn:

Şirvan dənizinin bəla çayından
Can məqsədi olan İraqa qaçdım,-

deyə İraqı vəsf edən Xaqani dönə-dönə Şirvanlı olduğunu, Şamaxıda anadan olduğunu yazır. Xaqani həm də Xorasana getmək istədiyini bildirən odlu bir qəsidə yazmışdır, ancaq buna görə heç kəs iddia edə bilməz ki, Xaqaninin atası və babaları Xorasanlı olmuşlar. Eləcə də əgər Nizami əsərlərində İraqı vəsf edirsə, oralara getmək arzusunu bildirirsə, bu heç də Nizaminin İraqlı olmasının ifadəsi və göstəricisi ola bilməz.

Qeyd etdiyimiz kimi, Nizami həm poemalarında, həm də lirik şeirlərində Gəncədən olduğunu müxtəlif formalarda qeyd edir. O heç bir formada Gəncəyə gəlmə olduğunu deməyə imkan verən fikir söyləmir. Bu yöndə onun əsərlərində heç bir işarə yoxdur. Əksinə, şair rəngarəng tərzlərdə köklü bir Gəncəli olduğunu bəyan edir. O cümlədən, şair "Sirlər xəzinəsi"ndə yazır:

Babele-mən Gənceye – Harutsuz
Zöhreye-mən xatere əncomforuz.

***Tərcüməsi:***

Mənim Babilim Harutu yandıran Gəncədir,
Mənim Zöhrəm ulduzları işıqlandıran xatirimdir”.

Sınaq üçün Allah tərəfindən Babilə göndərilən Harut və Marut Zöhrə adlı bir qadına aşiq olur və bu sevgi xatirinə cinayət törədir, Allah tərəfindən cəzalandırılaraq Babil quyusuna atılırlar.Onlar Babil quyusunda da rahat durmur, Babil əhalisinə sehrkarlıq öyrədirlər. Nizami poeziya sənəti sahəsində göstərdiyi sehrkarlığı Harutun Babildə göstərdiyi sehrkarlıqdan üstün sayır və belə düşünür ki, onun sənət sehirkarlığı Babil quyusunda xalqa sehirkarlıq dərsi keçən Harutun həsədinə, qısqanclığına səbəb olur və onu yandırıb yaxır. Yəni, Nizaminin Gəncədə göstərdiyi sənət, şeir sehirkarlığı Harutun Babildə göstərdiyi sehri heçə endirir, onu törədəni yandırıb yaxır. Yaxud, yenə “Sirlər xəzinəsi” əsərində Gəncədən olduğunu söyləyən şair yazır:

Gənce gereh kərde-qoribane mən
Bigirehi gənce-Eraq ane mən.

***Tərcüməsi:***

Gəncə mənim yaxamı düyünləyib tutmuşdur.
Düyünsüz olsaydı, İraq xəzinəsi mənim olardı.

Şair burada demək istəyir ki, o, Gəncədə bağlı qalmışdır, əgər belə olmasaydı, İraqa gedər, hünərinə, sənətinə layiq qiymət və mükafat alardı.Şair bununla vətəni Gəncədə hünər və sənətinə layiq qiymət ala bilmədiyindən şikayətlənir.

Yenə də “Sirlər xəzinəsi” poemasında israrla və qürurla Gəncəli olduğuna işarə edərək yazır:

Bang bər avərd cəhan k-ey ğolam,
Gənce kodaməst o Nezami kodam.

***Tərcüməsi:***

Dünya səslənərək dedi ki, ey qulam,
Gəncə haradır?Nizami hansıdır?

Yəni, şair demək istəyir ki, dünya onun şeirlərini eşidib heyrətlənir, ona görə də onun vətəni olan Gəncənin harada olduğunu, Nizami adlı bir şairin kim olduğunu soruşur, bilmək istəyir ki, Nizami adlı şair hansıdır, kimdir, onun yaşadığı Gəncə şəhəri haradadır, hansıdır.

Nizami Gəncədə dühasına layiq qiymət ala bilmədiyindən belə düşünmüşdür ki, o, İraqa getsə, əsərlərinə görə ən layiqli, ən yüksək qiymət alar.Şairin bu qənaətləri «Xosrov və Şirin» poeması yazılan vaxtlarda daha da güclənir. Bu vaxt şair açıq-açığına İraqa getməyə can atır və yazır:

Çera gəşti dərin biğulə pabəst,
Çenin nəğde-Eraqi bər kəfe dəst.
Rekab əz şəhrbənde-Gənce boqşay,
Enane – şir dari, pənce boqşay!

***Tərcüməsi:***

Bu mağarada nə ayağı bağlı qalmısan,
sənin ki əlində belə İraqi nəqdin var,
Gəncə dustaqlığından üzəngini aç,
səndə ki, şir pəncəsi var, pəncəni aç.

Yenə də Nizami Gəncədən olmadığını söyləmir.Ancaq vətəni olan Gəncədə sənətinə layiq qiymət ala bilmədiyindən gileylənir, haray qoparır.

“Yeddi gözəl” poemasında da şair Gəncədən bir gəncəli kimi söhbət açır və yazır:

Çon foruzənde şod be əkso əyar
Nəqde in Jəncexiz o rumi kar.

***Tərcüməsi:***

Elə ki, bu Gəncədən çıxan və rumlu kimi işlənmiş,
əsərin nəqdi tam  əyarla əks olunub parladı.

Aşağıdakı parçada isə Nizami dustağı olduğu şəhəri, yəni, Gəncəni "öz ölkəsi" ("Keşvəre-xiş") adlandıraraq bir Gəncəli olduğunu daha açıq bəyan edir:

Mən ke dər şəhrbənde-keşvəre-xiş
Bəste darəm qorizqah pəso pis.
Name dər morğe-name bər bəstəm,
Ku rəsanəd be şah, mən rəstəm.

***Tərcüməsi:***

Mən ki, öz ölkəmdə şəhər dustağıyam,
arxadan və öndən qaçmaq yolum bağlanmışdır.
Naməni (əsəri) poçt quşunun qanadına bağladım,
o, şaha çatdırar, mən qurtardım.

Göründüyü kimi, şair burada Gəncənin adını çəkmədən onu "öz ölkəsi" adlandırır.Eyni zamanda, öz ölkəsində dustaq vəziyyətində olduğunu, arxadan və öndən qaçmaq yolunun bağlandığını bildirir. Görünür ki, şairin başqa yerə getməsinə icazə və imkan verilmirdi. Xatırladaq ki, Xaqani də İraqa gedərkən tutulub geri qaytarılmış, Təbrizdə olan zaman Xorasana getmək istəmiş, ancaq ona bu imkan verilməmişdir. Xaqani bu münasibətlə məşhur "Nə səbəb var ki, Xorasana məni qoymurlar, Bülbüləm baği-gülüstanə məni qoymurlar" beyti ilə başlayan qəsidəsini yazmışdır.

"Şərəfnamə"dəki aşağıdakı beytdə şairin Gəncədən olduğu, bir gəncəli olduğu başqa şəkildə bəyan edilir. Şair görürdü ki, onun şeirlərini, fikirlərini oğurlayıb ölkə-ölkə aparırlar, buna işarə edərək yazır:

Nehane-məra k-aşkara bərənd,
Ze Gənce-əst əgər ta boxara bərənd.

***Tərcüməsi:***

Mənim gizlilərimi ki, açıq-aşkar oğurlayırlar,
Onları Buxaraya qədər aparsalar da, Gəncədəndir.

Burada şair oğurlanan əsərlərinin də haraya qədər aparsalar da, Gəncədən olduğunu dediyi kimi, özünün də bir gəncəli olduğunu bəyan etmiş olur.

“İqbalnamə”də yenə də Gəncədə sənətinə layiq qiymət ala bilməyən şair özünü Gəncə əsirliyindən xilas olmağa, yığdığı xəzinəni işlətməyə, etdiyi ovu üzə çıxarmağa səsləyir:

Nezami ze gəncine boqşay bənd.
Gereftari Gənce ta çənd, cənd!
Borun ar əgər seydi əfkəndeyi,
Rəvan kon əgər gənci agəndeyi.

***Tərcüməsi:***

Nizami, xəzinənin bağını aç,
Nə qədər Gəncənin əsiri olacaqsan, ta nə qədər!
Bir ov yıxmısansa, üzə çıxar,
Bir xəzinə toplamısansa, işə sal.

Yenə də görürük ki, özünü gəncəli sayan, ayrı cür düşünməyən sənətkar əsərlərinə layiqli qiymət almaq, tanınmaq, etiraf olunmaq üçün Gəncədən kənara çıxmaq arzularını dilə gətirir. Təəssüflər olsun ki, dəmir bir məntiqlə bir-birinə bağlı olan bu beytlərin arasına naməlum bir saxtakar şairin guya Qumdan, Təfrişdən, Ta kəndindən olması haqqındakı artırma, qondarma beytləri əlavə etmiş, XIV əsrdən başlayaraq şairin vətəni barədə yersiz, mənasız söhbətlərə bais olmuşdur. Hələ bütün bunlar bir yana. Əgər bir sənətkarın bir yeri tərifləməsi, oranı görmək arzusunda olduğunu bildirməsini əsas götürüb onun haradan olduğunu demək, iddia etmək mümkün olsaydı, onda Nizaminin İraqı Əcəmdən deyil, Məkkədən olduğunu da iddia etmək olardı, çünki böyük şair öz əsərlərində Məkkənin, onun ürəyi olan Kəbənin tərifinə, onu görmək arzusunda olmasına da odlu

sətirlər həsr etmişdir. Şair otuz yaşlarında ikən yazdığı bir qəsidədə bu haqda yazır:

Gərçe əndər Gənce çon gənçure mocrem acezəm,
Dər yəmən mocrem şəfiəm, dər xotən xuni rəhan.
Ta dər in xakəm be bi abi qənaət kərdənist,
Gosl əz abe dide sazəm, şərbət əz abe-dəhan.
Simra roynəq nəxizəd ta borun nayəd ze səng,
Ləl ra ğeymət nəbaşəd ta bedər nayəd ze kan.
Si qozəşt əz omr bər xiz ey Nezami quşegir,
Mən nəsihət kərdeəm baqi to dani han o han!
Çənd quyi Kəbera k-inək be xedmət mirəsəm,
Çon nəxanəndət hənuz əz dur xedmət mirəsan.

***Tərcüməsi:***

Əgər Gəncədə günah xəzinədarıyamsa,
Acizəmsə, Yəməndə günah bağışlayanam,
Xütəndə qandan   qurtaranam.
Nə qədər bu torpaqdayam susuzluğa qane  olmalıyam,
Göz yaşlarımla qüsl edib ağzımın suyundan şərbət
düzəltməliyəm.
Daşdan çıxmayınca gümüş rövnəq tapmaz,
Mədənindən çıxmayınca ləlin qiyməti olmaz.
Ömürdən otuz il keçdi, qalx ey guşənişin Nizami,
Mən nəsihət etdim, qalanını özün bilirsən, bax!bax!
Nə vaxtdır deyirsən, Kəbənin ziyarətinə gedəcəm,
Hələlik çağırmırlarsa, uzaqdan xidmət göstər.

Bu misralarda açıq-aydın gördüyümüz kimi şair özünü Gəncədə kanında olan lələ, daşında olan gümüşə  bənzədir, başqa sözlə, Gəncəni öz vətəni, yurdu hesab edir. Lakin yuxarıda poemalarından gətirdiyimiz nümunələrdə olduğu kimi, özünün Gəncədə yaxşı qiymətləndirilmədiyindən, günah xəzinədarı olmasından, ancaq başqa yerlərdə şöhrət qazandığından, öz torpağında susuzluğa da qənaət etmək

lazım gəldiyindən danışır, guşənişinlikdən əl çəkib səfərə çıxmaq arzusunda olduğunu bildirir, çoxdandır ki, Kəbənin xidmətində olmaq istədiyini, yəni, Kəbəni ziyarət etmək istədiyini yazır. Bu qəsidədən çox-çox sonra yazılmış 1191-ci ildən sonra hakimiyyət başına keçən Nüsrətəddinə həsr olunmuş mədhiyyədə də şair Kəbəni atəşin bir dillə mədh edir, onu görmək arzusunda olduğunu bildirir.Ancaq bunlar onun Məkkədən olduğunu demək üçün heç bir əsas vermir, verə də bilməz. O cümlədən şairin İraqı tərifləməsi, onu görməyi arzu etməsi Nizaminin İraqlı olduğunu demək üçün heç bir əsas vermir. Nizami İraqa ona görə can atmırdı ki, ora guya onun vətəni idi, əksinə Nizami öz vətəni olan Gəncədə layiqli qiymət ala bilmədiyi üçün İraqa can atırdı, "ləl kimi öz mədənindən, yəni, vətənindən kənara çıxıb qiymətini almaq», «gümüş kimi daşından çıxıb şöhrət tapmaq", öz hünəri, dühasına görə bir şöhrət tapmaq, tanınmaq, onun paxıllığını çəkənlərin əlindən qurtarmaq, Şərqin böyük mədəniyyət mərkəzlərini gəzmək, görmək, əldə edə bilmədiyi kitabları oxumaq, görə bilmədiyi ancaq görmək istədiyi adamlarla görüşmək, söhbət etmək, öyrənmək və öyrətmək üçün can atırdı.

Beləliklə, bir daha cəsarətlə demək lazımdır ki, Nizami Gəncəlidir.Gəncədə anadan olmuş, köklü bir Gəncəli ailəsində dünyaya gəlmiş, Gəncədə yaşayıb yaratmışdır. Nə kiminsə Nizami əsərinə artırdığı ilhaqi beytlər, nə həmin beytlərə əsaslanaraq Nizaminin Qumdan, Təfrişdən, Fərahandan olduğunu bildirən təzkirə müəlliflərinin fikirləri, nə də Vəhid Dəstgirdinin mənasız dəlilləri bu aydın həqiqəti şübhə altına almağa qadir deyildir.

Nizaminin əslən İranın İraq hissəsindən olması fikri "Nezami şaere-das-ansəra" kitabının müəllifi Əliəkbər Şəhabi tərəfindən daha qətiyyətlə müdafiə olunur. Ə.Şəhabi

bu fikirdədir ki, əksər İran və qeyri İran tarixçilər və təzkirəçilər, Nizaminin doğulduğu yerin Azərbaycan şəhərlərindən olan Gəncə olduğunu yazırlar, ancaq həmin müəlliflər də ümumən xatırladırlar ki, Nizaminin əsli pak İraq (Qum və Təfriş nahiyyələri) torpağındandır. Atası İraqdan Gəncəyə köçmüşdür. Elə oradaca R.Hidayətin "Məcməül-füsəha" təzkirəsindən misal gətirilir: "Həkim Nizami Qum əhli olsa da, Gəncəvi kimi tanınır". Ə.Şəhabinin fikrincə, guya Q.Darab müəyyənləşdirmişdir ki, Nizami Qum şəhəri yaxınlığında miladdan sonra 1145-ci ildə dünyaya gəlmiş və Gəncəyə muhacirət etmişdir".Guya tarixçilərin və tədqiqatçıların əksinə olaraq Mirzə Məhəmmədəli Tərbiyət bir Azərbaycanlı təəssübü ilə Nizamini Azərbaycan şairlərindən saymış və onun Qumlu hesab edilməsini yanlış hesab etmişdir. Bu qatı fars şovinisti həqiqətin gözünə düz baxmaqdansa, daha qədim və mötəbər mənbələrin Nizaminin Gəncəli olduğunu söylədiklərinə diqqət yetirməkdənsə, M.Tərbiyətin Zəkəriyyə Qəzvini və Əbdürrəşid Bakuviyə söykənərək Nizaminin Gəncəli olduğunu söyləməsinə təəssübkeşlik kimi yanaşır. Nizamini əslən Qumlu sayan təzkirəçilərin öncüsü olan Əbdulnəbi Qəzviniyə üz tutur, onun Nizaminin əslən Qumun Fərahanından olma fikrini xatırladır.Ə.Şəhabi bu fikirdədir ki, guya M.Tərbiyətdən başqa bütün müəlliflər Nizamini əslən İraqlı bilmişlər.Bəs görəsən Ə.Şəhabi Məhəmməd Ovfi (XII-XIII əsrlər), Zəkəriyyə Qəzvini (XIII əsr), Əbdurrəşid Bakuvi (XV əsr), Dövlətşah Səmərqəndi (XV əsr), Əbdurrəhman Cami (XV əsr), Əlişir Nəvai (XV əsr), Həmdullah Mustovfi Qəzvini (XIV əsr) və digərlərinin Nizamini Gəncəli saymamasını, Qum, Təfriş, İraq haqqında danışmamalarını nə ilə izah edir?Yox, ağayi Şəhabi, M.Tərbiyət təəssüb hissi ilə yox, həqiqətçilik duyğusu ilə

Nizamini əslən-nəslən Gəncəli hesab edir.Türklərdə yetirdikləri böyük Nizami kimi milli şovinizm yoxdur.Bizə heç kəsin heç nəyi, heç kəsi lazım deyildir. Ə.Şəhabinin V.Dəstgirdinin "Amma onun əslən İraqdan olması dəqiqdir" fikrini yerli-yersiz mudafiə etməsi təəssüb hissi deyil, ancaq M.Tərbiyətin "Nizami Əbu Məhəmməd Nizaməddin İlyas ben Yusif ben Zəki Müəyyəd Gəncəvi İran şairlərinin məşhuru və Azərbaycan söz ustalarının ən fəsahətlisi olmuşdur" sözləri təəssüb hissinin nəticəsi olur! Əcəb məntiqdir!

Ə.Şəhabi Nizaminin Qumdan olduğunu bildirən sonrakı dövrlərin artırması olan beytlərə də münasibət bildirir və yazır: "Bu səhifələrin müəllifinin fikrincə, bu cür tarixi əsasa malik olan şeirin ilhaqi olması həqiqətdən uzaqdır. Bu artırmanı edənin nə fayda, mənafe gözlədiyini təsəvvür etmək çətindir.Mümkündür ki, köçürücülər tərəfindən olduğu yer səhv salınmışdır".

Tanınmış alim, yazıçı, Nizaminin lirik şeirlərinin toplanması və nəşri sahəsində diqqətəlayiq işlər görmüş olan Səid Nəfisi isə tamam doğru movqe tutur və yazır: "Hər halda dəqiq məlum olan odur ki, Nizami həmişə həyatını bir-iki səfər istisna olmaqla ki, Gəncə ətrafına etmişdir və bir səfər ki, həccə getmişdir, ümumiyyətlə Gəncədə və ətrafında keçirmişdir. …Həmin səbəbə görə fars ədəbiyyatında həmişə Nizami Gəncəvi adı ilə məşhurdur və onu Azərbaycan şairlərindən sayırlar. Amma başqa tərəfdən eşitmişəm ki, müasirlərdən bəziləri hətta Nizami nəslinin olduğunu düşünürlər və deyirlər ki, onun övladı indi də Təfrişdə yaşayır.Aydındır ki, bu fikri son dərəcədə şübhəli qəbul etmək lazımdır. Görəsən, axırıncı bu fikir təəssüb hissi ilə Təfriş əhalisi tərəfindən yaradılmamışdır ki?".Ancaq qəribədir ki, Ə.Şəhabi Səid Nəfisiyə etiraz etmir, ancaq

M.Tərbiyəti təəssübkeşlikdə ittiham edir.Onu da qeyd edək ki, Səid Nəfisinin bu fikirləri 1304 (1925)-cü ildə yazılmış və "Ərməğan" jurnalında nəşr olunmuşdur.Görünür bir Azərbaycan aliminin bu mövzuya toxunması Ə.Şəhabini daha çox qıcıqlandırır.Bəlkə də Ə.Şəhabinin kitabı yazılan zaman Səid Nəfisi hələ sağ olduğundan müəllif onun adını çəkməkdən ehtiyatlanmışdır.

İran ədəbiyyatşünaslığında Nizaminin vətəni mövzusuna toxunan müəlliflərdən biri də Əbdülhüseyn Zərrinkubdur. O, 1372 (1993)-cı ildə Tehranda nəşr olunan "Pire Gənce dər costocuye nakocaabad" adlı kitabında Nizaminin vətəni mövzusuna daha mürəkkəb bir düşüncə və mülahizə ilə yanaşır. Ə.Zərrinkub Nizaminin "Qum şəhərinin Ğohestanına" aidliyini çox doğru olaraq daha sonrakı dövrlərin katibləri və təzkirə yazanlarının ixtirası sayır və qeyd edir ki, əsərlərində şair bu fikirləri təsdiq edəcək heç nə bildirmir. Eyni zamanda, düşüncələrində davam edən Ə.Zərrinkub Nizaminin yerli Aran əhalisindən, ya gəlmə azərilərdən, ya da kürd ola bilməsindən söhbət açır, ehtimallar yürüdür. Onu İrandilli bir xalqın şairi kimi təqdim etməyə çalışır.Bizim üçün əhəmiyyətli cəhət odur ki, Ə.Zərrinkub Qum, Ğohestan söhbətinin sonrakı dövrlərin ixtirası olduğunu şəksiz-şübhəsiz bir həqiqət kimi qəbul edir.Və bu, bizə V.Dəstgirdi, Ə.Şəhabi, A.Krımski, Z.Bünyadov kimi alimlərin fikir və uydurmalarına ən yaxşı cavab kimi qəbul edilməlidir. Demək olar ki, nizamişünasların çoxunun ilhaqı, sonrakı artırma saydığı və onların əsasında Nizaminin əslən İranın Qum vilayətindən olması fikrini rədd etdiyi halda, Azərbaycanın məşhur alimlərindən biri - akademik Ziya Bünyadov həmin artırma beytlər əsasında yeni bir "kəşf" edir. Həmin artırma beytlər haqqındakı fikirlərə, onlarda söhbətin nədən getdiyinə məhəl

qoymayaraq, dəlilsiz, sübutsuz Nizaminin Qax rayonunun Qum kəndindən olduğunu iddia edir.Heç olmasa özünün tərcümə və nəşr etdirdiyi Əbdürrəşid əl-Bakuvinin “Təxlis əl-asar” əsərinə diqqət yetirmir. Onun “Azərbaycan Atabəylər dövləti” kitabında oxuyuruq: “Qum şəhərciyində doğulmuşdur (“Mən bir inci kimi Gəncə dənizində itsəm də, dağlıq Qum şəhərciyindənəm)”. Qum kəndi Azərbaycan respublikasının Qax rayonunda indi də durur və Nizaminin İran Qumundan çıxması haqqındakı iddialar bir kənara atılmalıdır”.Ziya Bünyadovun səhvi ondadır ki, Nizami poemasına artırılan beytlərdəki sözlərin, fikrin mahiyyətinə, oradakı konkret Təfriş, Ta sözlərinə diqqət yetirmir.Tarixən coğrafi bir ərazinin adı olan Gohestan sözünü “dağlıq” kimi tərcümə edir.Göstərilən misraların ən qədim əlyazmalarında olmadığını, buna görə də akademik Ə.Əlizadə tərəfindən hazırlanıb çap edilən elmi-tənqidi mətnə daxil edilmədiyini, artırıldığı yerdə məntiqsiz və yersiz olduğunu, şairin fikrini qırdığını görmək istəmir. “Qum şəhərinin (oxu: ölkəsinin) Gohestanı” ifadəsini isə öz uydurma iddiasına uyğunlaşdıraraq “dağlıq Qum şəhərciyi” şəklində tərcümə edir. O biri yandan Z.Bünyadov onun fərqinə varmır ki, Nizami Qum şəhərindən, yəni, Qum ölkəsindən danışır, şəhərciyindən və ya kəndindən yox. Əlbəttə, biz Z.Bünyadovun heç bir məntiqə sığmayan, heç bir tənqidə tab gətirmək halında olmayan, görünür ki, daha çox A.Krımskinin mülahizələrindən bəhrələnən və ondan da daha qeyri-ciddi olan uydurması üzərində dayanmaq istəməzdik. Ancaq bu qeyri-elmi, qeyri-ciddi, həqiqəti təhrif edən müddəalar çox gülünc nəticələrə gətirib çıxarır.

Bütün bu Qum əhvalatı ilə bağlı uydurmaların əsasında Nizaminin “İqbalnamə” poemasına savadsız və naşıcasına artırılmış dörd misra səbəb olmuşdur.Əvvələn, bu misraların

artırma olduğu, Nizami tərəfindən yazılmadığı V.Dəstgirdi, S.Nəfisi, Y.E.Bertels, Ə.Ə.Əlizadə, Ə.Zərrinkub kimi alimlərin əsərlərində qeyd və etiraf edilmişdir.İkincisi, bu misralarda söhbət Qum şəhərindən, ona tabe olan Ğohestan ərazisindən, oradakı Təfrişdən, onun Ta kəndindən gedir.Onu da qeyd edək ki, həmin misralardakı şəhər sözü ölkə, vilayət mənasında işlənmişdir.Gohestan sözü isə tarixən mövcud olmuş coğrafi ərazinin adıdır.Və həmin ərazidən bir çox alim və şairlər çıxmışdır. O cümlədən, tanınmış XIII-XIV əsrlər şairi Nizari Ğohestani həmin yerdəndir. Ç.Bayburdi  həmin şair barədə yazdığı kitabda onun nisbəsini rus dilində Kuhistani kimi yazır. Azərbaycanlı şərqşünas alim onun haqqında Leninqradda (Sankt-Peterburqda) monoqrafiya yazıb nəşr etdirmişdir. Nizami nə Qum şəhərinin Gohestan adlı ərazisinin Təfriş bölgəsinin Ta kəndindəndir, nə də Qaxın Qum kəndindən. Şairin əsərləri, bu əsərlərdəki xatırlamalar və mötəbər qaynaqlar israrla təsdiq edir ki, Nizami Gəncənin köklü, nüfuzlu və mötəbər Gəncəli bir türk ziyalı ailəsində dünyaya gəlmişdir.

XII əsrin ikinci yarısında Gəncədə yaşayıb yaradan sənətkarlardan biri də Qivami Gəncəvidir. Dövlət şah Səmərqəndi onun Nizaminin qardaşı olduğunu, eyni zamanda Mütərrizi təxəllüsüilədə tanındığını yazır. Divanı Britaniya muzeyində saxlanılır. “Bədiiliyin sehkarlıqları” adlı məşhur qəsidəsi şərhləri ilə birlikdə Özbəkistanda Ə.Biruniadına İnstitutun əlyazmalar şöbəsində saxlanılır. Türk şairi Ziya Paşa özünün tərtib etdiyi  “Xarabat”adlı seçmə toplusunda Qivaminin yuxarıda haqqında bəhs olunan qəsidəsini bütünlüklə dərc etmişdir. Azərbaycan ədəbiyyat-şünaslığında 1940-cı illərdən başlayaraq Qivami haqqında da söhbət açılır, Nizaminin qardaşı olduğu bildirilir. Çörəkci

olduğu, ictimai məzmunlu şeirlər yazdığı, ədəbiyyatımızın demokratik qoluna mənsub olduğu söylənilir. Ə.Vahidin tərcüməsində şeirlərindən parçalar nümunə gətirilir və təhlil olunur.

İran ədəbiyyatşünaslarıda onun adından və ədəbi irsindən yan keçmirlər. Məsələn, Zəbihulla Səfanın "İranda ədəbiyyat tarixi", "Gənci-süxən" kitablarını və başqa müəlliflərin əsərlərini göstərmək olar.

Əlbəttə, İran alimləri bir qayda olaraq israrla Azərbaycan şairlərinin əsərlərinidə İran bədii mirası sayır, Azərbaycan türkünün nəinki böyük elmi, ədəbi irsini, eyni zamanda onun varlığını inkar edirlər. Bu adamlar, heç olmasa, onu nəzərə almırlarki, son min il ərzində İran adlı dövlət, ərazi Azərbaycan türkü tərəfindən idarə olunmuş, Azərbaycan türk dövləti olmuşdur. Bu Azərbaycan türk dövlət başçıları fars dilinin rəvac tapmasına imkanvermiş, hətta bir çoxları özləri farsca əsərlər yazmışlar. Əgər XX əsrin əvvələrinə qədər bu könüllü olmuşsa, XX əsrdə hakimiyyətə gətirilən farslar ən qəddar, qeyri-qanuni, insanlıqdan uzaq üsullarla İran əhalisinin heç də farslardan az olmayan Azərbaycan türk əhalisini farsca yazmağa, oxumağa məcbur və məhkum etmişdir. Onlar bu yolla sübut etmək istəyirlər ki, Gəncənin, Təbrizin əhalisi iran dilli olmuşdur. Bu adamlar heç olmasa, ona diqqət yetirmirlər ki, Azərbaycanın ən qədim şəhərləri olan Gəncə və Təbriz şəhərlərinin adları qədim türk tayfalarının adlarından götürülmüşdür. Bu şəhərləri onlar bina etmiş, ona öz adlarını vermiş və bu şəhərlərdə tarix boyu onlar yaşamışlar. Qivami Gəncəvidə qardaşı Nizami kimi, Xaqani kimi bir oğuz türküdür. Oda Xaqani kimi türkün ünvanına ləyaqətdən uzaq söz deyənə belə cavab verər:

Məni farsın dilində söy səhər kim,
Deyər türkün dilində çərx: "sənsən!"

Xaqaninin şeiri farsca olsa da, "Sənsən"sözü bu gündə dilimizdə olduğu kimi işlənmişdir.

Eynən Qivamidə qardaşı Nizami kimi fars şovinizminə, türkə yuxarıdan baxma meyllərinə aşağıdakı kimi cavab verər:

O, Aydırsa əgər, biz Afitabıq!
O, Keyxosrovsa, biz Əfrasiyabıq!

İran alimləri, Nizamini iranlılaşdırmaq üçün bəzi hallarda onun anasının kürd olduğunu ortaya atırlar. Ancaq Keyxosrovun anasının türk olduğunu Əfrasiyabın qızı olduğunu xatırlamırlar. Əfrasiyabm. ö. VII yüz ildə yaşamış türk hökmdarı Alp Ər Tunqanın iranlılar tərəfindən verilmiş adıdır. Nizami Xosrovu Keyxosrov, Məhinbanu və Şirini Əfrasiyab adlandırmaqla qürur hissi ilə onların türk olduğunu, eyni zamanda özünün də türklüyünü bəyan etmiş olur. Bu türklük Xaqani və Nizami ilə yanaşı Qivamiyədə aiddir onun oxuculara təqdim olunan qəsidəsində də İran fars alimlərinin "fitnəkar" adlandırdığı, Nizami deyən kimi "yaman fikirli adamlar" tərəfindən yatağında qətlə yetirilən Azərbaycan türk hökmdarı Qızıl Arslan mədh olunur. Qəsidənin 1186-cı ildən əvvəl yazıldığını düşünmək mümkündür. İran alimlərindən Vəhid Dəstgirdi Nizami Gəncəviyə həsr etdiyi əsərində Qivaminin Nizami ilə qohumluğunu rədd edir. O yazır: "Təzkirə yazanlardan bəziləri", o cümlədən mərhum "Məcməül-füsəha" müəllifi Hidayət həm də Mütərrizi və Xəbbaz (çörəkçi) adlandırılan Qivami Gəncəvini Nizaminin əmisi bilir, ancaq böyük

ehtimala görə, bəlkə də həqiqət bunun əksinədir. Zira Nizami müxtəlif məqamlarda, xüsusən "Leyli və Məcnun"un başlanğıcında özkökünə bağlı olan bütün şəxslərin adını çəkir. Ədəbiyyat və şeir sahəsində heç bir mövqeyi olmayan dayısı Xacə Öməri yad edir. Deməli, Qivami Mütərrizi onun əmisi olsaydı və dünyadan getmiş olsaydı, kədərlə, yaşasaydı, onu sevgi və qürurla xatırlayardı". Fikrini sübutüçün V.Dəstgirdi Qivaminin Süzəni və Sənai ilə müasir olmasını xatırladır. Hiss olunur ki, müəllif Qivami Razi Xəbbazla Qivami Gəncəvini qarışdırır. Oxuculara təqdim olunan qəsidə isə 1186-cı ildən bir qədər əvvəl, bəlkə də "Xosrov və Şirin" poeması yazılan zamanlarda qələmə alınan bir əsərdir. Bu əsər göstərir ki, Qivami Nizami ilə müasirdir, onun kimi Azərbaycan Atabəyləri ilə yaxın olmuşdur, o da Nizami kimi Qızıl Arslana əsərlər həsr etmişdir. Onu da qeyd edək ki, Dövlət şah Qivamini Nizaminin əmisi yox, qardaşı kimi təqdim edir. Biz Dövlət şahın bu qeydini etibarlı sayırıq. Ona görə ki, Nizami və Qivaminin əldə olan əsərlərində onların qohumluğu ilə bağlı hər hansı bir qeyd olmasada, Dövlət şah Nizaminin indi əldə olmayan şeirlər "Divan"ını görmüş adamlardan biridir. O, hətta bu "Divan"ın 20 beyt həcmində olduğunu yazır. Biz belə düşünürük ki, Dövlət şah Nizami "Divan"ında onun Qivami ilə qardaş olmasına dair qeydləri oxumuş və bunun əsasındada Nizami ilə Qivaminin qardaş olduğunu yazmışdır. Buna görə də bu qeydi hər hansı şəkildə şübhə altına almağa haqqımız yoxdur. Bu baxımdan Y.E.Bertelsin belə bir mülahizəsi ilə də razılaşırıq ki, Nizaminin "Leyli və Məcnun"da Qivamini xatırlamaması hələ onların qardaş olması fikrini rədd etməyə əsas vermir.

Bir məqamı qeyd edək ki, Nizami Gəncəvinin oğlu Məhəmməd haqqında bildiklərimiz son vaxtlara qədər böyük

şairin “Xəmsə”də oğlu ilə bağlı yazdıqlarından qaynaqlanırdı. Hələ “Leyli və Məcnun” əsərindən öyrənirik ki, 1188-ci ildə Məhəmməd on dörd yaşında imiş. Buna əsasən onun 1174-cü ildə anadan olduğu bilinirdi. Nizami bu vaxt onun şeir yazmağa maraq göstərdiyini, şeirlər yazdığını, bu işə ləyaqəti olduğunu söyləyir. Ancaq Nizami oğlunun gələcək həyatı ilə bağlı narahatlığını dilə gətirərərək,ona fəqih, yaxud təbib olmağı məsləhət görür, bu sənətlərdən daha çox fayda götürmək olar deyə onu bu sənətlərdən biri ilə məşğul olmağa yönəltmək istəyir. İstəyir ki, oğlu rahat bir həyat keçirsin, sənəti ilə özünü dolandırsın. Nizami sonrakı əsərlərində də oğluna nəsihətlər edir, ancaq bir daha həmin mövzuya qayıtmır. Anlayır ki, oğlunu şair olmaq fikrindən döndərmək mümkün deyildir. Məhəmməd atasının nəsihətlərinə baxmayaraq şeir yazmaqdan əl çəkməmişdir.

Hələ 60-cı illərin sonlarında mən (Xəlil Yusifli) Tehran Universitetinin Mərkəzi kitabxanasının çoxcildli əlyazmalar kataloqunu vərəqlərkən cünglərdən birinin təsvirini oxuyanda həmin cüngdə Məhəmmədin şeiri olduğunu öyrəndim. Bəlkə də daha çox bu məqsədlə 1998-ci ildə Tehrana getdim. Tehran Universitetinin Mərkəzi Kitabxanasının əlyazmaları şöbəsində məni çox yaxşı qarşıladılar. Məhəmmədin şeiri olan cüngü sifariş verib, aldım. Həm sevindim, həm də kədərləndim. Ona görə sevindim ki, cüngdə böyük Azərbaycan şairi Nizami Gəncəvinin oğlu Məhəmmədin şeirini gördüm. Ona görə kədərləndim ki, Məhəmməddən qalan şeir ancaq bir beyt idi. Beytin üzərində “Məhəmməd vələde-Şeyx Nizami”, (yəni “Şeyx Nizaminin oğlu Məhəmməd”) sözləri yazılmışdı. Məhəmmədin şeiri qeyd olunan səhifədə ondan çox şairin adı və hər şairin bir beyti qeyd olunmuşdu. Bu vərəqdə həm məlum, məşhur, həm də mənim bilmədiyim şairlərin adı və

irsindən beytlər vardı. Vərəqdəki beytlər gözəl nəstəliq xətti ilə yazılmışdı. Yazılan beytlərin hamısı farsca idi. Məhəmmədin əsərindən verilən beyt aşağıdakı kimi idi:

Pəs əz omri şəbi baline-xod an aşeyan didəm,
Məne-meskin be omre-xiş aşayeş həman didəm.
***Tərcüməsi:***
Ömür keçdi, yerimdir bir gecə mən o məkan gördüm,
Tamam ömrümdə rahatlıq yazıq mən o zaman gördüm.

Bu beytdən görünür ki, Məhəmmədin həyatı o qədər də rahat keçməmişdir.Bu beyt onu da təsdiq edir ki, Məhəmməd diqqəti cəlb edəcək qədər əsərlər müəllifi olan bir şair imiş. Beyt sənətkarlıq və fikir baxımından güclüdür. O bu bir beytlə az qala bütün həyatını qələmə almışdır. Məhəmmədin bu bir beyti ilə bağlı o vaxt bir məqalə yazıb Bakı Dövlət Universitetinin "Elmi əsərləri"ndə dərc etdirdim.

Uzun müddət mən belə düşünürdüm ki, Məhəmmədin bu beytdən başqa bir şeirinə rast gəlmək bəlkə də mümükün olmayacaq. "Ədəbiyyat qəzeti"nin 12 avqust 2011-ci il tarixli sayında dərc olunan kiçik bir yazı mənim düşüncəmin doğru olmadığını bildirdi. Məlum oldu ki, tanınmış özbək alimi Əbdülqadir Haitmetov əski özbək dilində yazılmış "Fünunül-bəlağə" adlı qiymətli bir poetika əsəri aşkarlayıb nəşr etdirmişdir. Şeyx Əhməd ibn Xudadad Tərazinin hicri 840 (1436-37)-cı ildə yazdığı bu əsərin bizim üçün qiyməti ondadır ki, burada Qivami Gəncəvi və Məhəmməd Gəncəvinin əsərlərindən nümunələr verilmişdir.

"Ədəbiyyat qəzeti"nin yazdığına görə "Fünunül-bəlağə" əsərinin beşinci fəslində Məhəmmədin on şeirindən parçalar vardır. Məhəmmədin həmin şeirləri də farscadır.

Biz belə düşünürük ki, "Fünunül-bəlağə"də Məhəmmədin ədəbi irsindən on parça şeir verilməsi onun bir

şair kimi bu sahədəki qüdrətindən xəbər verir.Hətta biz inanırıq ki, Məhəmmədin şeirlər divanı olmuş və Şeyx Əhməd Tərazi də onun əsərlərindən nümunə gətirdiyi parçalırı həmin divandan götürmüşdür.

## *ŞEYX NİZAMİ GƏNCƏVİ ŞƏCƏRƏSİNİN GÖRKƏMLİ NÜMAYƏNDƏLƏRİ*

Qeyd etdiyimiz kimi Nizami Gəncəvinin şəcərəsindən bəhsedənmüəlliflərdənbiriXIII-XIVəsrlərdəyaşamışhədis, kəlam, tarix və ədəbiyyat alimi İbnəl-Futi olmuşdur.Onun adı Abdürrezzak ibni Əhməd ibni Məhəmməd ibni Əhməd ibni Ömər ibni Məhəmməd Şeybani əl-Mervezi əl-Bağdadi, kunyəsi Əbul-Fadl ləqəbi isə Kemalüddin olmuşdur. 642 (m 1244) ili Məhərrəm ayının on yeddinci günü Bağdadda doğuldu 723 (m 1323) ili Məhərrəm ayında vəfat etmiş və Şünuziyyə qəbirisitanlığına dəfn edilmişdir.

İbni Futi bir çox elm sahələrinə yiyələnmiş alim, yüksək zəka və yaddaş sahibi olmuşdur. Mənbələrdə göstərildiyi kimi o gördüyü, duyduğu və eşitdiyi bir şeyi unutmazdı.

Dahi mütəfəkkir Nizami Gəncəvinin şəcərəsi haqqında tutarlı məlumatlar verən bu böyük elm adamı əs-Sahib Muhyiddin ibni əl-Cevzi, əl-Mübarək ibni Mudasım billah, Məhəmməd ibni Əbi Riniyye, Əli ibniəssəsi əl-Bağdadi kimi dövrün görkəmli elm və irfan sahiblərindən dərs almışdır.

Tarix və ədəbiyyat elmlərində də söz sahibi olmuş İbni Futi ömrünün sonuna qədər Bağdaddakı əl-Müstensıriyye Mədrəsəsinin kitabxanasına rəhbərlik etmişdir

İbni Futi, bir çox mühüm əsər yazmışdır ki, bunlardan “Ət-DürƏr-ün-nasia fi şir-əl-miət-is-sa-bia”, “Məcmu-ül-

adab fi mucəm əl-əsmai vəl-əlkab”,“Dürer-ül-Əsdaf fi gurer-il-evsaf’“Telkih-ül-efham fil-muhtetif vəl-mü'telifi”, Əl-Yənilik-ül-ictimaiyyət vət-Təcarüb-in nafiati fil-miət-is-sabra” adlı əsərlərin adlarını çəkə bilərik.

Yuxarıda qeyd olunanlar İbni Futinin verdiyi məlumatların düzgünlüyünü təsdiq edir. Cünki adı çəkilən müəllif özü görkəmli alim olmaqla yanaşı həzrəti Məhəmmədin hədislərini də toplamaqla məşğul olmuşdur. Bu isə İbni Futinin doğru və dürüst bir şəxs olduğunu göstərir. Beləliklə, İbni Futinin məlumatlarını şübhə altına almaq bir qism peyğəmbərdən söylənən hədisləri şübhə altına almağa bərabərdir. İdi isə gəlin İbni Futinin dahi mütəfəkkir Nizami Gəncəvinin dörd evladı haqqında verdiyi məlumata diqqət yetirək. Oözünün“Məcmu-ül-adab fi mucəm əl-əsmai vəl-əlkab” adlı əsərində Nizami ocağına mənsub bir şairlə görüşündən söhbət açaraq yazır: «Məcdəddin Əbu Nəsr Əhməd ibn Mahmud ibn Əli Nizami Şair oş airdir ki, farsca şeirlərin hafizidir (yəni farsca çoxlu şeirləri əzbər bilən adamdır – X.Y.), əsli Nizami Gəncəviyə çatırki, o, Nizamül-Mülk Əbu Əli Həsənidi, ondan Nizami ləqəbi götürmüşdür və o şirin sözlü şair olmuşdur. Və yaxşı nizam sahibi idi. Və «Xosrov və Şirin» kitabı, «Leyli və Məcnun» kitabı farsca onundur. Onları tərcümə edib nəzmə çəkmişdir. Bu haqqında danışılana dam 705-ci ildə Sahib Sədəddin rəhmətliyin qoşun düşərgəsində idi və onun barəsində mədhiyyələri vardır. Mən onu Kabavi də gördüm, ancaq ondan heç nə yazmadım”.

İbnəl-Fütinin bu qeydləri nə ilk dəfə İran alimi Səid Nəfisi diqqət yetirmiş və onun elmi şərhini vermişdir. O cümlədən, S.Nəfisi bu qeydə əsasən Nizami ocağına mənsub insanların səkkizinci (miladi ilə XIV) əsrin əvvəllərinə qədər Azərbaycanda yaşadıqlarını və tanındıqlarını qeyd etmişdir.

S.Nəfisi onuda qeyd edir ki, İbnəl-Futi Nizami Gəncəvi ilə Nizamül-mülkü qarışdırır, halbuki onların arasında yüz il fərq vardır. Ancaq haqqında danışılan adamın məhz Nizami Gəncəvi ocağına mənsubluğunu dəqiq qeyd edir, onun Nizami təxəllüsu daşıdığını bildirir. Nizaminin iki əsərinin adını çəkir. Nizaminin təxəllüsüdə İbnəl-Futinin düşündüyünün əksinə olaraq Nizamül-Mülkün ləqəbindən götürülməmişdir. Çünki dahi Nizamül-Mülkün adı Əbu Əli Həsən olmamışdır. İbnəl-Futi isə aydın şəkildə yazır: "Məcdəddin Əbu Nəsr Əhmədibn Mahmudibn Əli Nizami Şair o şairdirki, farsca şeirlərin hafizidir, əsli Nizami Gəncəviyə çatırki, o, Nizamül-Mülk Əbu Əli Həsənidi, ondan Nizami ləqəbi götürmüşdür və o şirin sözlü şair olmuşdur". Demək buradan aydın olur ki, Nizamül-Mülk Əbu Əli Həsənin özü belə Nizami Gəncəvinin övladlarından olmuşdur.

Səid Nəfisinin İbn Futidən gətirdiyi bu qeyd və onun həmin qeydlə bağlı izahı olduqca maraqlıdır. İbn Futinin haqqında danışdığı Məcdəddin Əbu Nəsr Əhməd h.q. 705-ci ildə, miladiilə 1305-1306-cı ildə hələ sağimiş, şairimiş, Nizami təxəllüsü ilə şeirlər yazırmış. O cümlədən düşərgəsində olduğu Sahib Sədəddin haqqında mədhiyyələri varmış. İbn Futi Məcdəddin Əhmədlə bağlı belə bir ifadə də işlədir: «Farsca şeirlərin hafizi». Bəzən bu hafiz sözünü «farsca şeirlərin qoruyucusu» kimi tərcümə edirlər. Bizcə, bu yanlışanlayışdır. Buradakı hafiz sözü, bizə görə çoxlu miqdarda farsca şeirləri əzbər bilən, yaddaşında saxlayan, güclü hafizəsi olan adam mənasındadır.

Xatırladaqki, Nizami ocağının daha sonrakı varislərindən sayılan Şeyx İbrahim Qüdsidə (XIX əsr) bu sahədə qeyri-adi yaddaşa, hafizəyə malik imiş və bu haqda rəvayətlərdə mövcuddur.

İbn Futinin qeydinin maraqlı cəhətlərindən biridə odur ki, o, XIII əsrin ikinci yarısında və XIV əsrin əvvəllərində yaşamış Məcdəddin Əhməd Nizaminin atası və babasınında adlarını qeyd etmişdir. Onun atasının adı Mahmud və babasının adı Əlidir. Bu isə artıq dahi mütəfəkkirin oğlu Məhəmməddən dünyaya göz açmış Mahmud və Əli Nizaminin vəfat tarixiilə İbn Futinin Məcdəddin Əhmədlə görüşü arasında cəmi 100 il fərq vardır. Eyni zamanda Səid Nəfisinin də qeyd etdiyi kimi, Məcdəddin Əhmədin əsasən XIII əsrin ikinci yarısında yaşamış bir adam olduğunu nəzərə alsaq, yaxud heç olmasa düşünsək ki, bu adam təxminən XIII əsrin 70-90-ci illərindən birində anadan olmuşdur, onda onun atası və babasının Nizami dövrünə yaxınlığının dərəcəsidə müəyyənləşmiş olur.

Məcdəddin Əhmədin babası Əli Nizaminin Məhəmməddən başqa, indi bizə məlum olmayan bir oğlunun olmasını düşünmək səhv olardı. Ola bilsin ki, Nizaminin Məhəmməddən sonrada oğlu, yaxud oğlanları olmuşdur ancaq dahi mütəfəkkir yaradıcılığında məhz oğlu Məhəmmədə yer vermişdir.

Qeyd etdiyimiz kimi dil və ədəbiyyat sahəsində XVIII əsrdə yaşamış alimlərdən biri Əz-Zəbidin özünün “Mucemul-meşayix” adlı əsərində Nizami Gəncəvinin XV-XVIII əsrlərdə yaşamış Şeyx Həsən, Şeyx İlyas, Şeyx Müzəffər və Şeyx Həsən adlı dörd övladı haqqında məlumat vermişdir.

Məlumatda deyilir: “Təsəvvüf ədəbiyyatının görkəmli sütunlarından olan Şeyxlər Şeyxi məqaməna yüksələn böyük fərzanə Gəncə dahisi Nizami həzrətlərinin sülbünə (soykökünə) aid Şeyx Həsən ibni Şeyx Müzəffər ibni Şeyx İlyas ibni Şeyx Həsən Gəncəvidir. Nizami həzrətlərinin sülbünə aid olan bu dörd Şeyx nəsli fiqh, ilahiyyat, məntiq,

fəlsəfə, fənn elmləri sahəsində tanınmış mütəfəkkirlər olmuşlar. Həmşinin hər dörd Şeyx zəmanələrinin təsəvvüf böyükləri kimi məşhurlaşmışdırlar".

Əz-Zəbidininəsil adı Məhəmməd olmuşdur. Bununla yanaşı, adı çəkilən müəllif "Əbul-Fəyd", "Əbul-Vaxt", "Əbul-Eşbal" və "Əbul-Cud" ləqəbləriylə də xatırlanmışdır. "Əbul-Fəyd" ləqəbini ona təriqət şeyxlərindən olmuş"Əbul Envar ibni Vəfa 17 Şaban 1182/1715 tarixində vermişdi.

Əz-Zebidinə verilmiş şərəfliadlar onun cox etibarlı, doğru və düzgün bir şəxsiyyət olduğundan xəbər verir. Hətta mənbələr onun İmam Hüseynin nəslindən olduğunu və bu səbəbdən də Huseynin nəvəsi Zeydin qolundan gəldiyi üçün əz-Zeydi adının verildiyini qeyd edirlər.

Əz-Zəbidinin Nizami Gəncəvi övladları haqqında məlumat verdiyi"Mucemul-meşayix"əsəri özünün dərs aldığı və ya verdiyi, görüştüyü, məktublaşdığı v. s. 600 qədər Şeyx mərtəbəsinə yüksəlmiş alimin hal tərcüməsini ehtiva edir. Əlifba sırası ilə tərtib olunan əsərin bir nüsxəsi Mədinədə "Arif Hikmət Kitabxanasında" qorunur.

Gəncə şəhərininn böyük karvan yolları üstündə yerləşməsi onun XII əsrdə Yaxın və Uzaq Şərqin, Avropanın bir sıra ölkələrilə sıx ticarət əlaqələri qurmasına, beləliklə də, ticarətin, sənətkarlığın inkişafına şərait yaratmışdır və bu qədim şəhəri önəmli ticarət və sənətkarlıq mərkəzlərindən birinə çevirmişdir. Şəhər istehsal etdiyi məhsullarla nəinki ölkə daxilində, həm də ölkə xaricində böyük şöhrət qazanmış və "Arran şəhərlərinin anası" səviyyəsinə qədər ucalmışdır.

1225-ci ildə Atabəylərin hakimiyyətinə son qoyan Cəlaləddinin Gəncədə hökmranlığı dövründə yerli əhaliyə qarşı amansız davranılmış və vergiləri həddindən artıq şəkildə yüksəltdiyindən 1231-ci ildə Gəncə əhalisinin işğalçılara qarşı qaldırdığı üsyanla nəticələndi. Qiyamlar

nəticəsində şəhər hakiminin sarayı dağıdılmış, xidmətçiləri öldürülmüş və yerli varlılar bir neçə aylıq olaraq vergilərin ödənilməsinə məcbur edilmişdilər. Dulusçu Bəndərin Xarəzmşah Cəlaləddində qarşı başçılıq etdiyi bu üsyan Gəncənin qəhrəmanlıq tarixinə iri hərflərlə yazıldı. Gənc Bəndər özü kimi gənc sənətkarları başına toplayaraq Cəlaləddinin qərargahını məhv edir, yüz illik sultan taxtını dağıdır, yerli varlıları bir neçə aylıq olaraq vergilərin ödənilməsinə məcbur edir. Lakin təcrübəsizlik özünü göstərdi. Ətraf bağlara toplaşan düşmən süvarilərini qovmaq məqsədilə qala divarlarından kənara çıxıb təcrübəli qoşunla açıq savaşa qatılan igid əxilər məğlubiyyətə düçar olurlar. Bəndərin 30 nəfər tərəfdarı tutularaq edam olundu, üsyan başçısı isə tikə-tikə doğrandı.

Gəncənin tarixi vəsiqəsi hesab olunan Comərd Qəssab Məqbərəsi də bu şəhərdə Əxiliyin yüksək rəvac tapdığını göstərir. İ.M.Cəfərzadə yazır: "Rəvayətə görə, bu türbə dördüncü xəlifə Əli ibn Əbu Talib (656-661) zamanında yaşayan comərd qəssabın qəbri üzərində qurulub. Bu türbənin əxiliyə aid olub-olmaması maraq doğurur. İbn Battutaya görə, əxilər comərd idilər, həm də haqq-ədalət uğrunda mübarizə aparırdılar. Comərd Qəssab özünün qanun tərəfdarı olması və düzlüyü, doğruluğu ilə seçilmişdir. Şəhər əhlinin bütlərə inandığı bir dövrdə o gizlicə olaraq İslamı qəbul etmişdi. Qeyd etdiyimiz kimi, VII-VIII əsrlərdə tikildiyi təxmin edilən türbə Gəncə çayının sağ sahilində, qədim Gəncə hasarının 1 kilometrliyində yerləşir və bu gün Gəncə şəhərində siyahıya alınmış 800 tarixi abidədən biridir. Comərd Qəssab türbəsi dövlət tərəfindən qorunan 288 abidə arasında özünə yer alır ki, bu da onun əhəmiyyətindən xəbər verir. Türbə XX əsrin 70-ci illərində dağıdılmış, 2004-cü ildə

Heydər Əliyev fondu tərəfindən ilkin görkəminə tam uyğun olaraq yenidən inşa edilmişdir.

Beləliklə, orta çağlarda Gəncədə sənətkarlıq inkişaf edir, sufilik və əxilik yayılır, şeyxlərin sayı artırdı. Onların arasında Nizami Gəncəvinin xüsusi yeri vardı.

Nizaminin görkəmli tədqiqatçısı Bertels Gəncədə doğulmuş Nizaminin ailəsinin feodal aristokrat ailəsi deyil, şəhər sənətkarlarına daha yaxın olduğunu qeyd etmişdir. Y. Krımski isə Dövlətşahın (XV əsr) "Təzkirət əş-şüəra" (1487) əsərində Nizaminin əxilərə aidiyyəti məsələsinə toxunmuş və bu sahədə olan tədqiqatçılarından heç birinin bu çox mühüm amilə, yəni şairin ictimai əhval-ruhiyyəsini anlamağa kömək edən bir məsələyə diqqət yetirməmələrinə təəccüblənmişdir.

Nizami Gəncəvi Azərbaycanın qədim mədəniyyət mərkəzi olan Gəncə şəhərində doğulmuş, yaşayıb yaratmış və dünyasını dəyişmişdir. Şairin təxəllüsü “Nizaməddin”, künyəsi isə “Əbu-Məhəmməd”olmuşdur. Əsl adı “İlyas” atasının adı isə  Müəyyəd oğlu Yusifdir. Anası, şairin özünün qeyd etdiyi kimi, “Rəiseyi-Qurg”, yəni igidliyi və comərdliyi ilə seçilmiş bir rəisə olmuşdur. Bir çox hallarda dahi şairin anasını “Rəiseyi-Qurg” adlandırması tədqiqatçılar tərəfindən düzgün qiymətləndirilməmişdir. Hətta dahi şairin bu ifadəsi “Rəiseyi-Kurd”, yəni kürd rəisəsi kimi oxunmuşdur. O halda ki, Nizami Gəncəvinin anası heç bir kürd qəbiləsinin rəisəsi olmamış, əksinə soykökü etibarı ilə nüfuzlu və zadəkan ailəyə mənsub olmuşdur. Məxəzlərin verdiyi məlumata görə Nizami hələ uşaq ikən atasını və anasını itirdiyindən onun və dövrün gözəl şairlərindən olmuş qardaşı Qivami Mütərrizinin tərbiyə və bəslənməsini dayısı Xacə Həsən öz üzərinə götürmüşdür. M.Ə.Rəsulzadənin təbirincə desək, onun Azərbaycan atabəylərindən Qızıl

Arslana yazdığı qəsidə, qəsidə ədəbiyyatında şah əsər sayılmaqdadır.

Burada bir məqam xüsusi ilə qeyd olunmalıdır ki, Nizami Gəncəvi anası barədə “Leyli və Məcnun” məsnəvisində yazdığı hissənin başlığını “Anam rəisənin xatirəsi” və onun özünü “Rəisə” adlandırmaqla hansı mətləbə toxunmaq istəmişdir. İlk öncə belə bit fərziyyə irəli sürülmüşdür ki, güya böyük çairin anasının adı Rəisə olmuşdur. Əlbəttə bu ehtimal tədqiqatçıların böyük əksəriyyəti tərəfindən qəbul olunmaqdadır. Lakin biz bu məsələyə fərqli şəkildə yanaşmağa daha çox üstünlük vermək qərarına gəldik.

Dahi mütəfəkkirin anasını “Rəisə” adlandırmaqla onun əxilik ideologiyasına mənsub olduğuna işarə etmişdir. Təsəvvüf cərəyanları arasında “Rəis” və “Rəisə” məqamı yalnız əxilikdə mövcud olmuşdur. Belə ki, əxilik təriqətində “Rəis” Şeyx məqamından sonra ən yüksək dərəcə hesab olunmuşdur. Bununla yanaşı qeyd etməliyik ki, əxilik digər sufi təriqətlərindən fərqli olaraq qadınların təşkilatlanmasına və seyr-sülük aləminə daxil olmalarına şərait yaratmışdır. Bu təşkilatlanma daha sonralar “Baciyani-Rum” başlığı altında məşhurlaşmışdır.

Ümumiyyətlə, Nizami Gəncəvini digər Şərq mütəfəkkirlərindən fərqləndirən əsas xüsusiyyət qadın obrazlarına geniş yer ayırması ilə səciyyələnir.

Unutmaq olmaz ki, qadını yüksək dəyərləndirən dahi şair türk xanımı Şirinin simasında qadınlığın ən gözəl sifətlərini toplamış və Yaxın Şərq ədəbiyyatında ilk dəfə olaraq müsbət qadın obrazı yaratmışdır. Nizami dühasının qələmindən çıxan Şirin obrazı yüksək mənəviyyatı, cəsarəti, sədaqəti ilə seçilmişdir. Qaragürüh ruhanilərin kütlə arasında olan nüfuzundan və ümumiyyətlə həmin dövr qadına

bəslənən qeyri-loyal münasibətdən zərrə qədər çəkinməyən Nizami Gəncəvi Şirini əsrinin əsas qəhrəmanına çevirir və onu gözəllikləri sevən,elmə, biliyə və kamala rəğbət bəsləyən, namusuna sadiq qalan bir şəxsiyyət kimi dəyərləndirir. Şair Şirin obrazında əxiliyin qadına verdiyi üstünlükləri tərənnüm etdirmişdir. Misal olaraq Şirinin at oynatmasını, qılınc vurmasını, ox atmasını, göstərmək olar.

Yaratdığı ideal qadın obrazları əxiliyə xas cəsarət, qürur, ismət, mənəvi yüksəklik, mərdlik kimi yüksək mənəvi sifətlərlə səciyyələndirmişdir. Əxiliyə görə qadını həmişə cəmiyyətin tam ləyaqətli bir üzvu kimi dəyərləndirmişdir. Dahi mütəfəkkir də öz növbəsində bu ənənəyə sadiq qalaraq humanist ideyalar baxımından qadını saf mənəviyyata malik ismət və qürur sahibi kimi qiymətləndirmişdir:

***Mən gövhərəm, neçin gərək əksiləm,***
***Çağrılmamış gedəm, məgər mən yeləm?***

Nizami Gəncəvinin sələfi olan görkəmli fars şairi Əbülqasim Firdovsi Şirini mənəviyyatsız, əxlaqsız və qatil kimi təqdim etmişdir. Lakin Nizami Gəncəvi öz sələfinin əksinə olaraq Şirini əxi rəisələrinə bənzər şəkildə eşqinə sadiq, fədakar, yüksək mənəvi keyfiyyətlərə malik bir şəxsiyyət kimi təqdim etmişdir. Şirinin öz sevgilisinin məzarı üstündə intihar etdiyinitəsvir edərkən şair onun bu fədakarlığını bu cür alqışlamışdır:

***Alqış bu ölümə, əhsən Şirinə,***
***Öldürən Şirinə, ölən Şirinə.***
***Məhəbbət yolunda ölüm budur, bax,***
***Canana belədir canı tapşırmaq...***
***Çox gözəl arvad var mərdlikdə bir şir,***
***Çox ipək içində şirlər gizlənir.***

Şübhəsiz buradan belə bir sual meydana çıxır ki, bəs islam dini intiharı haram buyurduğu təqdirdə Şeyx rütbəsinə yüksəlmiş Nizami necə ola bilərdi ki, intiharla özünü qətlə yetirən Şirinə alqış və əhsən desin? Əlbəttə Nizami Gəncəvinin nəzərdə tutduğu ölüm həqiqət naminə nəfsin öldürülməsidir. Unutmamalıyıq ki, Şirin fars dilində iki məna daşıyır: birincisi dad baxımdan şirin, ikinci isə şir kimi mənasını verir. Əslində nəfsinə qələbə çalan onu öldürən şəxs şirlə müqayisə edilir. Çünki əxilik ideologiyasına görə başqalarına hökm edən qüvvəli, özünə hökm edən isə qüdrətli xüsusiyyətini daşıyır.

Şirin təkcə öz nəfsini öldürmür eyni zamanda eyşə işrətlə gününü keçirən Xosrovu da nəfsi istəklərdən uzaqlaşdırır və insanlığın qayəsi olan hikmətə sarı istiqamətləndirir. Nizami Gəncəvi kamil qadın obrazı olan Şirinin vasitəsi ilə öz sevgilisi Xosrovu  dəyərsiz və kefcil həyatını dəyişdirir, elmə, fəlsəfəyə sarı istiqamətləndirir. Danılmaz həqiqətdir ki, təsəvvüf şeyxləri arasında qadını həqiqət rəmzi və məhəbbət mücəssəməsi kimi yalnız Əxiliyə mənsub olan Nizami Gəncəvi təqdim edə bİlərdi.

Nizami Gəncəvi qadınların kamilləşməsində heç də kişilərin ardınca gedib onları yamsılamağı düzgün hesab etmir. Əksinə o, qadının kişinin arxasnca getmədən müstəqil şəkildə kamilləşə bilməsini bu cür ifadə edir:

***Yaraşmaz kişinin dalına düşmək,***
***Bu sifət qadında olmasın gərək.***

Nizami Gəncəvi Bərdə hakimi Nüşabə obrazı ilə əxiliyin "ədalətli hökmdar" haqqındagörüşlərinin ifadə etmişdir. İskəndər Nüşabənin  əqlinin gücü qarşısında aciz qaldığından onun ölkəsini fəth edə bilmir. Bununla yanaşı

Nuşabə böyük fatehi ədalətə çağıraraq var-dövlət uğrunda qan tökməyin faydasız olduğunu deyir:

***Sənin xonçandakı bu daş-qaş daşır,***
***Bu danlaq, bu töhmət kimə yaraşır?***
***Süfrəyə cavahir saçmaq nə gərək?!***
***Gövhərdən qaçmağı mənə öyrətmək?!***
***Eşq olsun bu fikri sağlam qadına,***
***Mərdliyin yolunu öyrədir mana.***
***Ey uzaqgörən qız, gəl məni dinlə,***
***Qızıl sikkəsini nəsihətinlə;***
***Ataram bir kərə torpaqlara mən,***
***Qızıla torpaqdır təbii mədən.***
***Erkək tinətliyəm olsam da qadın,***
***Hər işi bəllidir mənə dünyanın.***
***Mən də bir aslanam, düşünsən bir az,***
***Aslanın erkəyi, dişisi olmaz.***

Nizami yaradıcılığında qadının mərdliyi, sağlam fikirliliyi kişilərin dili ilə ifadə olunur.

***Eşq olsun bu fikri sağlam qadına,***
***Mərdliyin yolunu göstərir mana.***

Şübhəsiz bütün bunların səbəbini qadınların maddi və mənəvi məsələlərdə təşkilatlanmasına geniş imkanlar yaratmış əxilik ideologiyasında axtarmaq lazımdır.

Aşiq Paşazadə (886/1481) "Tarix-i Əli Osman" adlı əsərində Anadolu Səlcuqluları dövründə türkmənlər arasındakı ictimai zümrələrin "Gaziyan-i Rum" (Anadolu Qaziləri). "Əxiyan-i Rum" (Anadolu Əxiləri), "Abdələn-i Rum" (Anadolu Abdalları), və "Baciyan-i Rum" (Anadolu Bacıları) deyə dörd hissəyə ayrıldığını qeyd etmişdir. Anadolu Səlcuqluları zamanında türkmən kişilərin mənsub

olduğu, Aşiq Paşazadənin "Əxiyan-i Rum", adlandırdığı əxi təşkilatının qadın üzvləri "Baciyan-i Rum" adı altında birləşmişdirlər.

Aşiq Paşazadənin "Baciyani Rum" adlandırdığı bu zümrə ilə bağlı ilk dəfə Alman Franz Taeschner qərəzli və qısqanc mövqeyilə seçilən tədqiqatlar aparmışdır. Adı çəkilən tədqiqatçı o dövrün cəmiyyətində qadınların belə bir mükəmməl təşkilat qura bilmələrinə şübhə ilə yanaşmış və bunun Aşiq Paşazadə tərəfindən uydurulduğunu qeyd etmişdir. Taeschner “Hacıyani Rum" (Anadolu Hacıları) və ya "Bahşıyani Rum" (Anadolu Sehirbazları və ya Ruhaniləri) təbirinin səhv olaraq "Bacıyani Rum" kimi yazıldığını iddia edərək belə bir təşkilatın mövcud olmadığı qənaətinə gəlmişdir. O halda ki, həmin dövrü xarakterizə edən bütün mənbələrdə Anadoluda “Hacıyani Rum" (Anadolu Hacıları) və ya "Bahşıyani Rum" (Anadolu Sehirbazları və ya Ruhaniləri) adlı təşkilatların mövcudluğu barədə heç bir məlumat verməmişlərr. Demək buradan aydın olur ki, adı çəkilən tədqiqatçı hələ orta əsrlərdə türk cəmiyyətində qadınların siyasi və ictimai təşkilatlanması faktını bilərəkdən bütün varlığı ilə ört-basır etməyə cəhd göstərmişdir.

İlk dəfə Fuad Körpülü, Aşiq Paşazadənin "Baciyani Rum" adlandırdığı zümrə haqqında Bəktaşi rəvayətləri və başqa tutarlı qaynaqlar üzərində tədqiqat aparmış və F. Taeschnerin iddialarını heçə endirərək həqiqətən Anadolu Səlcuqluları dövründə və Osmanlı Dövlətinin quruluşu dönəmində türkmən qadınlarının mənsub olduqları bir təşkilatın mövcudluğunu isbatlamışdır.

Qeyd etmək lazımdır ki, Fuad Körpülü bu təşkilatın mahiyyəti və vəzifəsi barədə geniş tədqiqatlar aparmamışdır. Bu adın qadınlardan təşkil olunmuş zümrənin (Qadınlara məxsus bir təriqət) adı ola biləcəyi ehtimalı üzərində

dayanaraq demişdir: "Görəsən Aşiq Paşazadə “Baciyani Rum” adı altında türkmən qəbilələrin pak və cəngavər qadınlarınımı nəzərdə tutmuşdur? Şübhəsiz bu görüş ən doğru olanıdır".

Mərhum Fuad Köprülünün tədqiqatının üzərindən 70 ildən çox bir zaman keçmiş olmasına baxmayaraq "Baciyan-i Rum" haqqında bu günə qədər heç bir ciddi və tutarlı araşdırmalar və tədqiqatlar aparılmamış və adı çəkilən tədqiqatçının bu mövzuda yazdıqlarına heç bir yeni fakt əlavə edilməmişdir.

Osmanlı xronikiləri dövlətin yeni qurulduğu dövrdə türkmən qadınlarının siyasi və ictimai cəhətdən təşkilatlanmaları barədə kifayət qədər məlumatlar vermişlər. Lakin Anadoludakı türkmən qadınlarının təşkilatlanmaları ilə əlaqədar olaraq ən çox məlumat toplayan tədqiqatçı Fuad Köprülünün də ifadə etdiyi kimi, məğribli səyyah İbni Battutə Orxan Qazi zamanında Anadolunun bir çox bölgəsində türkmən xanımların müxtəlif fəaliyyətlərinə şahid olmuşdur. Həmçinin Nijdəli Qazı Əhməd 1340-cı ildə tamamladığı "Əl-Vələdüş-Şəfik" adlı əsərində Nijde ətraflarında Taptuklu türkmən dərvişlərin xanımlarının fəaliyyətləri ilə bağlı məlumatlar vermişdir.

Bir sıra mənbələr monqolların Anadolunu işğal etdikdən sonra onlara ciddi müqavimət göstərən əxi təşkilatıyla birlikdə “bacı” təşkilatınında təqiblərə məruz qoyulması və XIV əsrdən etibarən bu təşkilatın tamamilə məhv edilməsi barədə məlumatlar vermişlər. Buna görə istər İbni Battuta, istərsə də Osmanlı tarixçiləri və digər mənbələr Anadoludakı türkmən qadınlarının fəaliyyətlərindən danışarkən türkmən qadınlarına aid bir təşkilatın varlığından bəhs etməmişlər.

Aşiq Paşazadənin verdiyi məlumata görə Hacı Bektaş (1271) zamanında, yəni Anadolu Səlcuqluları dövründə türkmən qadınlara aid mükəmməl bir təşkilat mövcud olmuşdur.

Nizaminin yüksək düha sahibi olması ona “Həkim” (böyük, bilici, müdrik) ləqəbinin verilməsindən aydın görünür. Bu ensiklopedik biliyə sahib olan mütəfəkkir İslam elmləri ilə yanaşı Zərdüştü, Çin, yunan, Roma, fəlsəfələri ilə yaxından tanış olmuş və bir neçə ölmüş dilləri mükəmməl şəkildə bilmişdir. “Bununla yanaşı, dahi mütəfəkkir tarix, dinşünaslıq, irfan, həndəsə, riyaziyyat, astronomiya, və mifalogiya sahələrinə dair geniş biliyə malik olmuşdur.

Nizami Gəncəvi şiəlik və sünnilik məzhəbləri arasında gedən mübarizə, sufilər və şəriətçilər arasındakı mübahisələrdən kənarda qalaraq dinin irfani hikmətləri ilə yaşamış və Allaha inanan, Peyğəmbərə bağlı dindar və sadiq bir mömin kimi tanınmışdır. Beləliklə, bu böyük şəxsiyyət cəmiyyətin mənəvi birliyini parçalayan məzhəb və firqələrin apardığı kor-koranə mübarizənin fövqündə dayanmış, kamil bir təbiət və əxlaq sahibi olmuşdur

Din sahəsində göstərdiyi bu müvazinəti fikir sahəsində də göstərən mütəfəkkir Sufi şeyxi olsa da tərki-dünyalıq istəyən dərvişlərə özünü bağlamamışdır. Bunun səbəbi isə Nizami Gəncəvinin əxilik ideologiyasına bağlı olması ilə izah oluna bilər. Düzdür sufilikdəki seyr və süluk təhsilini hansı mürşiddən aldığını əsərlərində açıq şəkildə qeyd etməsə də dərin hikmətlərində bu məsələyə işarə etmişdir.

Şeyx Nizaminin təsəvvüf əhli və əxi təriqətinə mənsub olması barədə bir çox mənbələr xəbər verməkdədir. Mənbələrdə Nizami Gəncəvinin Şeyx Əxi Fərrux Reyhani və ya Əxi Fərəc Zəncanidən dərs alması qeyd olunmuşdur.

Şeyx Əxi Fərəc Zəncani  haqqında günümmüzə cox az məlumat gəlib çatmışdır. Lakin tanınmış səyyah İbn-Bəttutə, İsfahan şeyxi və zaviyə rəisi Qütbəddin Hüseynin ona bəxş edib geydirdiyi qəbanın tarixini danışaraq demişdir ki, həmin qəbanı vaxtilə Həzrəti Əli, sonralar isə Nizami Gəncəvinin mənəvi mürçidi hesab olunan Əxi Fərəc Zəncani geymişdir. Səyyah Əxi Fərəcın Əbu Abbayə-Nəhavəndi ilə də görüşdüyünü qeyd etmişdir. Şübhəsiz bütün bunlar Şeyx Əxi Fərəc Zəncaninin böyük mütəfəkkir və müqəddəs bir şəxsiyyət olduğunu bir daha təsbit edir.

Lütfəlibəy Azər (XVIII) “Atəşkədə” əsərində Nizami Gəncəvi haqqında yazır: “Süluk aləmində əxi Fərəc Zəncəni ilə bərabərdir”. Mətnə nəzər saldıqda aydın olur ki, müəllif Nizami Gəncəvini Fərac Zəncəninin müridi kimi deyil onunla bərabər məqamda dayanan bir sufi şeyxi kimi qiymətləndirmişdir.

A.Bakıxanov “Gülüstani-İrəm” əsərində Nizami Gəncəvinin sufu şeyxlərindən biri olduğunu belə ifadə etmişdir: “Həkimi-mənəvi Şeyx Nizami Gəncəvinin böyüklüyünü söyləməkdən dil acizdir”

Görkəmli nizamişünas alim Bertels Nizaminin əxilik ideologiyasına mənsub olduğunu verilmiş “Saqinamə”dən aşağıda göstərilən sətirlərlə əlaqələndirir.

***Nə vaxtadək buz kimi durmaq donuq***
***Suda ölü siçan tək olmaq uyuq?!***
***Çevşekləmə, gül kimi yumşaq olma,***
***Bənövşə tək iki üzlü bulunma.***
***Yeri vardır dəliqanlı olmaq yegdir***
***Dəliqanlı çılğın olmaq gərəkdir.***
***Tikan kimi sivri bulun, sərt davran,***
***Başına güldən çələnglər hörsün dövran.***

Bertels bu şerdəki “tikan” ifadəsinin əxilərin bellərində gəzdirdikləri “xəncər” olduğu qənaətinə gəlmişdir.

M.Ə.Rəsulzadə Nizami Gəncəvinin əxiliyə mənsub olduğunu şairin aşağıdakı misraları ilə göstərir.

***Huşsuzlara yataq olan bir qərya*[1]**
***Zalımlara verir qolayca cizyə***
***Arslan ürəkli olmadan iş aşmaz,***
***Öküz ürəklilərdə mərdlik olmaz.***
***Nədən boyun əyirsən hər qəzaya,***
***Nədən razı olursan hər cəfaya?***
***Dağ kimi dur, sırtın olsun qayadaş,***
***Üzünə qabar daşürəyin, əymə baş!***

Nizami Gəncəvinin əxiliyi ilə bağlı olaraq M.Ə.Rəsulzadə yazır: “Xəmsə”nin ədəbi təşbehləri arasında “Əxiliyi” andıran fikirlərə deyil, əsnaf cəmiyyətləri arasında yayılmış və onları birləşdirən “Əxi” ideologiyasında da Nizami fikirlərinə uyğun ideyalara rast gəlirik. “Fütüvvətnamə” lərdəki əxlaq normaları ilə Nizamidəki əxlaqi beytləri qarşılaşdırsaq, ibrətamiz nəticələrə gələ bilərik”.

Nizaminin əxilik ideologiyası ilə heç bir əlaqəsinin olmadığını söyləyən tədqiqatçılar belə onun sufiyanə həyat keçirməsi barədə həmrəy olmuşlar. Belə ki, onu yalnız şair deyil, eyni zamanda müdrik mütəfəkkir, bilici və Şeyx kimi dəyərləndirmişlər.

Şeyx Nizaminin öz əsərlərində Əxi Fərəc haqqında heç bir məlumat verməməsi dahi mütəfəkkirin mənəvi şəxsiyyətinin əslində hansı qaynaqdan ilham almış olduğunu şübhə altına almamaqdadır. Cünki Nizami Gəncəvi yaradıcılığına irfani nöqteyi nəzərnən yanaşdıqda burada əxiliyin təsiri özünü kifayət qədər göstərməkdədir [247].

Hər şeydən öncə qeyd etmək lazımdır ki, Nizami Gəncəvi əsərlərinin bəzi yerlərində adını bilavasitə çəkmədiyi mənəvi mürşidi Əxi Fərəc Zəncaniyə "Xacə" və ya "Pir" olaraq müraciət etmişdir. Təsəvvüf terminalogiyasında "Pir" bilavasitə mürşidi simvolizə etdiyindən Xacə kəlməsi üzərində dayanmağı məqsədəuyğun hesab etdik. Nizami dayısının adını da Xacə Ömər kimi xatırlamış və onun ölümünü özü üçün böyük itki saymışdır. Görkəmli nizamişünas alim Xəlil Yusifli bu xüsusta yazır: "Xacə Ömər adının əvvəlindəki Xacə sözünü müxtəlif şəkillərdə izah edirlər. Ağa mənasında işlənən bu söz daha çox vəzirlərin, tacirbaşı və başqa yüksək rütbə, mövqe sahiblərinin adının əvvəlinə artırılırdı. Bizə görə bu adam yüksək rütbəli bir ziyalı, bəlkə Gəncədə mədrəsə müdiri və ya buna bənzər vəzifə sahibi olmuşdur".

Yuxarıda göstərilənlərdə aydın olur ki, Xacə təkcə maddi deyil, eyni zamanda mənəvi rütbəni bildirən bir kəlmə olmuşdur. Bir çox halda xacə kəlməsi xüsusi ilə İran yaylasında yaşayan türklərin dilində mürşid əvəzinə də işlənmişdir. Misal olaraq dahi şairin təsəvvüf yolunu keçdiyini, mürşid yanında qabiliyyətli bir salik olduğunu əks etdirən aşağıdakı misralarını göstərmək olar:

***Beş hissə - beş quldura qəzəb silləmi sıxdım,***
***Onlar aciz qaldılar, mən bir az güclü çıxdım.***
***Bir mənzil, iki mənzil at çapdım dincəlmədən,***
***İlk sıçrayışla çatdım könül qapısına mən.***
***Getdim canım dişimdə mən öz könlümə sarı,***
***Elə bil gecə yarı ömrüm də oldu yarı.***
***Ruh adlı mehrabımın önündəyəm mən yetim,***
***Bükülüb topa döndü mənim çövkən qamətim.***
***Qəddim ikiqat oldu, haram qatdım yuxuma,***
***Çövkənim topa döndü, ətəklərim yaxama.***

***Ayağım başım oldu, başım ayaqmı oldu?***
***Boyum topa bənzədi, çövkən sayaqmı oldu?***
***Əldən getdi iradəm, gözümdə gün qaraldı,***
***Yüzluk təkliyə döndü, təklik yüz şəkil aldı.***
***Səfərdaşlarım cahil, mən səfərdə xamtəhər,***
***Kimsəsizlik yamandır, qəriblik ondan betər.***
***Nə cür keçim qapıdan?Cığır hanı, yol hanı?***
***Bəlkə geri qayıdım, tərk edim bu məkanı?***
***Qorxudan nitqim batıb. Yolum dar bir keçiddi,***
***Fəqət cilovdan tutan eşqim dadıma yetdi.***
***Döydüm qapını."Kimdir vaxtsız gələn?" sordular.***
***"Bir Adəm oğlu!" - dedim, -"Yer versəniz şad olar".***
***Cəld içəri çəkdilər: "Buyur, Tanrı bəndəsi!"***
***Qaldırdılar, yox oldu vücudumun pərdəsi.***
***Sarayın ürəyindən bir səs qopdu: - Nizami!***
***İçəri keç, bura gəl! - Bu səs necə səmimi.***
***Mənim kölgəm bu dəhrin sərvindən əzəmətli,***
***Addımlarım, ayağım onunkundan qüdrətli!***
***Xəzinəyəm, amma ki, harun kisəsində yox,***
***Səninlə olmasam da, uzaqda deyiləm çox,***
***Ona çox qulaq asdı mənim nitq bülbülüm,***
***Nəfəsini duyunca utandı, susdu könlüm.***
***Sıxılaraq baş əydim, bir müddət yerə baxdım,***
***Qulağıma ədəblə qulluq həlqəsi taxdım.***
***Ustad - könül xacəsi təzələdi əhdimi,***
***Fələklərə ucaldı sayəsində Nizami.***
***Qalmadı riyazətdən, pəhrizdən başqa yolum,***
***Dedim: mən də o pirdən riyazət dərsi alım.***

"Sirlər Xəzinəsi" məsnəvisinin " birinci xəlvət - qəlbin tərbiyəsi" adlı hissəsində dahi şair mürşidinin ona olan münasibətini yüksək qiymətləndirərək yazır:

***Ədəb dərsinə keçdi o riyazət öyrədən,***
***Məni doqquz fələyin çıxartdı çevrəsindən.***
***Yolumuz həlqə-həlqə, əyri-dolay, çən-duman,***
***Fəqət, mənim ustadım sapmadı öz yolundan.***
***Elə bir yerə çatdı yolumuzun axırı,***
***Tamam arxada qaldı onun dolambacları.***
***Sözü daşdan keçən pir bizimçin qürur idi,***
***Tanrımız olmasa da Tanrıdan bir nur idi.***
***O pir iki cahanda mənə gözətçi, hami!***
***Yoxsa çəkib dərdimi, qayğıma qalardımı?***
***İşlərimi yoluna qoymasa da bu dəm o,***
***Bilirəm, şəfqətini əsirgəməz məndən o.***
***Mənim tək ədəbsizə ədəb öyrədən o pir,***
***Az qala qulum oldu, mənalıdır bu tədbir.***
***Mənim kimi qulundan bezib üz döndərmədi,***
***Qənimət bildi bəlkə bir yoxsulla ülfəti.***
***Züleyxanın vətəni Misirdənmi o, gəldi?***
***Yusifini quyudan çıxarmaqla yüksəldi!***
***Uyğudan qapanarkən gecənin qara gözü,***
***Yandı sübhün çırağı, işıqlandı Yer üzü.***
***Doğdu Günəş, Fələyin nəhənk çırağı yandı,***
***Gecənin qaranlığı dan rənginə boyandı.***
***Mənim əlimdən tutdu əli çıraqlı ustad,***
***Gəlib çatdıq bir bağın ətəyinə xeyli şad.***
***Ətəyimi arıtdı kədər tikanlarından,***
***Gülə qərq etdi məni gül nəfəsli o insan.***
***Güldüm yaşıl çöldəki lalə kimi, zər kimi,***
***Yüz yerdən parçalandı paltarım güllər kimi.***
***Canını təslim etdi canıma al lalələr,***
***Yaz yanaşdı, bağladı belimə güldən kəmər.***
***Gah qan rənginə düşdüm al qırmızı mey kimi,***
***Gah da yırtdım gül kimi köynəyimi - qönçəmi.***

*Tez budaqdan budağa, güldən gülə can atdım,*
*Bir qaynağa qovuşub, su içməkdi muradım.*
*Mənim eşq bayrağım bənd olunca bir yerə,*
*Vəfa qoxusu gəldi başqa bir yandan yenə.*
*Açıq deyim: bir yarın rayihəsi, nəsimi,*
*Mənə ürək, can verdi İsa nəfəsi kimi.*
*Səhər rüzgarlarına yar-yoldaş etdi məni.*
*"En aşağı! - Söylədi, - Özündən çox vurma dəm,*
*Enməsən, endirərəm səni mənlik təxtindən!»*
*O xəyal dənizində mən ki, bir gəmi oldum,*
*O cənnət havasında cənnət sakini oldum.*

Nizami Gəncəvi yaradıcılığına əxilik ideologiyasının təsiri şairin realizmə daha yaxın olmasında da özünü göstərir. Belə ki, digər təsəvvüf təriqətlərindən əxiliyi fərqləndirən ən böyük xüsusiyyət həqiqət axtarışında əxilərin ağıla hislərdən daha çox önəm verilməsi olmuşdur.

Şeyx Nizami əxiliyin ideya prinsipinə sadiq qalaraq həqiqətin üzə çıxarılmasında ağılı hislərdən daha üstün tutmuş və bununlada reallığı düzgün şəkildə qiymətləndirmişdir. Nizami Gəncəvi sufu şeyxi və təsəvvüf ədəbiyyatının görkəmli nümayəndəsi olmasına rəğmən mistik anlayışları reallığın əks etdirilməsi istiqamətinə yönəltmişdir. Bu xüsusta Nizami Gəncəvi yaradıcılığına ilk dəfə ədəbiyyatşünas kimi yanaşan Mirzə Fətəli Axundov dahi şairin yaradıcılığının  Əbdürrəhman Cami, Cəlaləddin Rumi, Sədi və Hafiz Şirazi kimi təsəvvüf ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri ilə müqayisədə  məzmun və sənətkarlıq baxımından daha üstün olduğunu qeyd etmişdir. Bununla Mirzə Fətəli Axundov realizmin Nizami Gəncəvi yaradıcılığının əsasını təşkil etdiyini vurğulamışdır. Çünki 1866-cı ildə “Kritika”adlı məqaləsində M.F.Axundov yazır: “...Hər bir şerin ki, məzmun həqiqətin ziddinə olub

həqiqi vücüdu olmasa, şer deyil və onu poeziya adlandırmaq olmaz. Ərəb və İran şairləri bu şərtlərdən qafildirlər. Bu şərtlər yalnız Firdovsinin "Şahnaməsində" və Nizaminin "Məxzənül-Əsrarında" və "Yeddi Gözəl"ində görünür".

Görkəmli nizamişünas alim Y.E.Bertels Nizami Gəncəvi yaradıcılığının realizmə əsaslandığını bu cür ifadə etmişdir: "Nizami həmişə həqiqətə yaxın olmağa can atdığına görə, fantastika onun əsərlərində az yer tutur. Əgər doğru olanı, həqiqəti şerə gətirmək mümkündürsə nə üçün boşyerə yalan yazmaq? Bu prinsip o zamanki poetika ilə əkslik təşkil edir". Bu prinsipin o zamanki poetika ilə əkslik təşkil etməsinin səbəbi heç şübhəsiz Nizami Gəncəvinin əxilik ideologiyası ilə sıx bağlı olması ilə izah edilməlidir. Cünki əxilik ağıla və onun vasitəsi ilə dərk etdiyimiz reallığa daha çox üstünlük vermiş sufi təriqətlərindən biri kimi tanınmışdır.

Şeyx Nizami ağılın yaradanın və ümumiyyətlə insanlığın tanınmasındakı mühüm rolu haqqında aşağıdakı beytləri qələmə almışdır:

***Ağıl qiyas ilə çalışıb durar,***
***Onu dərk etməkçün dəlil axtarar.***
***Düşüncənə daha yol vermə artıq,***
***Qarşına dağ çıxar, ya da qaranlıq.***
***Idrakın çatırsa vahid allaha,***
***"Nədir və necədir?" - soruşma daha.***
***Işıq axtardığın alovlu şamdan***
***Onun təkliyinə sübut taparsan.***
***Gah qara torpaqdan reyhan yaradır,***
***Gah sudan bizimtək bir can yaradır.***
***Bizə ağıl verdi tanıyaq onu,***
***Bəsirət verdiki, tutaq yolunu.***

Nizami Gəncəvi “Xosrov və Şirin” məsnəvisinin “Peyğımbərin tərifi” hissəsində Həzrəti Məhəmmədin gətirdiyi İslam dininin ağıl və biliyin sayəsində bütün dinlərdən üstün olmasını bu cür dəyərləndirmişdir:

***Köməkçisi oldu ağıl və bilik.***
***Dini dünyada son din olduğundan,***
***Başqa dinlər batil edildi haman.***

Nizami Gəncəvi ağılı hislərlə bilavasitə bağlı olan eşqin meydanında aciz qalanların pənahı hesab edir:

***Biliyin yolunu ağıl göstərər,***
***Eşq üçün deyildir bir belə dəftər.***
***Eşqin meydanında aciz qalanlar***
***Tez ağlın atına olurlar süvar.***
***Dəlilər dərmana olanda möhtac,***
***Ağıllılar tapır dərdlərə əlac.***

Dahi şair ağılsız igidliyi acizlik hesab edərək yazır:

***Ağıl mənzilindən avara düşdüm.***
***Igidlik göstərdim acizliyimdə**n*

Nizami Gəncəvi ağılın hökm etmədiyi dəyərlərin əslində qiymətsiz bir şey olduğunu bu cür ifadə edir:

***Ağıl deməyən söz bir xoş xəyaldır.***
***Qocalar yanında o söz vəbaldır.***
***Ağıl bir ayaqdır, təbiət zəncir,***
***Hər nəfəs suvantək zəncir yeyəndir.***
***Bu dəmir zənciri qırarsa hər kəs***
***Bu qızıl qalada məğlub edilməz.***

***Ağıl tutiyası olan kimsələr***

***Isatək hər kökdə bir dərman görər***

***Ağıllı adamın söylədikləri***
***Yer altına düşsə, getməz dəyəri.***
***Söz deyən düşünüb söyləsə əgər,***
***Pis söz də söyləsə, yenə xoş gələr.***
***Hər sözə münasib ölçü gərəkdir,***
***Naqqallıq yükünü çəkən eşşəkdir.***

***Ağıllı adamla yaşa səlamət,***
***Nadanın dərmanı törədər illət.***

***Xəzinəni atıb, kim yesə torpaq,***
***O, ağıllı deyil, ilandır ancaq.***

Nizami Gəncəvi ağılı xəlifə, sözü isə onun qüdrəti hesab edir:

***Ağıl ki, görünməz bir xəlifədir,***
***Qüvvəti, qüdrəti sözlərindədir.***

Nizami Gəncəvi əxilik ideologiyasının təməl prinsiplərindən biri olan ağılı rəhbər tutmanı aşağıdakı kimi ifadə etmişdir:

***Ağıl tək nöqsansız bir hökmüdardır.***
***O, yeddi göylərə boyun əyməyən***
***Yeddi ərənlərə qiblədir, bilsən.***

Nizami Gəncəvi ağılı İslam peyğəmbəri Həzrəti Məhəmmədin mübarizə apardığı cəhalətin mütləq əksi kimi dəyərləndirmişdir:

***Cəhalət yataraq, oyandı ağıl.***
***Nəğməm saqilərin huşunu aldı,***

Hətta Nizami Gəncəvi düşmənlə mübarizədə ağılın gücdən daha yararlı olduğunu bildirərək deyir:

***Ağıllı olarsa bir tülkü, inan,***
***Məhv edər, canavar olsa da düşman.***

***Ağıllıya qarşı olsan hiyləgər,***
***Qurbağatək başın bu yolda gedər.***

Dahi şair oğluna nəsihət verərkən ona elə həyat sürməyi tövsiyə edir ki, ağıllı rütbəsinə yüksələ bilsin:

***Ilahi elmlər öyrənmək xoşdur.***
***Elə namuslu ol, desin hər görən:***
***"Ağıllı oğluna, Nizami, əhsən! "***

Nizami Gəncəvinin dini dünyagörüşündə ağıl çox əhəmiyyətli yer tutmaqdadır. Hətta dahi şair ağılı yaradanı ilk tanıyan və insana düz yol göstərən dəyər kimi qiymətləndirmişdir:

***Ağıl ilk inandı sənə, yaradan.***
***Sən ağlın gözünü işıqlandırdın,***
***Sən doğru yollarda çıraq yandırdın.***
***Göyləri sən qurdun, ucaltdın, allah,***
***Ona yer üzünü etdin güzərgah***

***Hər ağıl tanrıdan öyrənir bilik,***
***Ürəklər tilsimdir, edər bəndəlik.***

***Ağıllı kimsəyə bəzək nə yarar?***
***Qəlbində var sənin tanrı sifəti,***

***Ağıl mədənidir başdan-ayağa,***
***Bənzəyir tanrıdan yanan çırağa.***

Hislərlə bağlı olan xəyalın belə ağılın ölçüsündən kənara çıxa bilmədiyinə dair dahi şair deyir:

***Ağıl ölçüsündən kənara çıxmaz.***
***Bələdçi olmağa cəhd edər xəyal***

Nizami Gəncəvi əxilik ideologiyasının təməl prinsiplərinə sadiq qalaraq yeniliyin köhnəliklə mübarizəsi, köhnəliyə qarşı amansız döyüşkən mövqe tutmuşdur. O, qədim dünyadan ibrət alaraq gələcəyə baxmış, yeni ideyaların qələbəsi üçün yollar axtarmış və bir çox hallarda bu yolları insanlara göstərmişdir. Şübhəsiz bu məsələdə ona əxiliyin mübariz humanist baxışları istiqamət vermişdir. Görkəmli nizamişünas alim proffessor Xəlil Yusiflinin qeyd etdiyi kimi, “Xalq içərisində böyüyüb yaşayıb müdrikləşən, şəhər sənətkarları ilə daim təmasda olan, qəlbi xalqın azadlığı və xoşbəxtliyi üçün döyünən, qələmi ilə "kiçik" adamların hüququnu müdafiəyə qalxan qüdrətli sənətkarı XII əsrin ən xəlqi fikir cərəyanlarından olan, ayrıca birlik formasına çevrilən əxilikdən kənarda təsəvvür etmək olarmı?” Əlbəttə professorun elmi problem kimi irəli sürdüyü bu sual uzun müddət ölkəmizdə hökm sürən allhsızlaşdırma və dinsizləşdirmə siyasətinin nəticəsində tədqiqatçılar tərəfindən cavablandırılmamışdır.

Dahi şairin yaradıcılığında bir çox fikirlər əxilərin və şəhər sənətkarlarının mübarizliyini göstəriri. Nizami yeniliyin köhnəliklə mübarizəsindən danışanda əxilər kimi düşünərək köhnə əqidələri, köhnə budaqları cəsarətlə doğrayıb tökməyi məsləhət bilir. Fəallığa, hərəkətə üstünlük verir:

***Gündə bu bağdan yeni bir bar gələr,***
***Hər şirinindən də şirin meyvələr.***

***Çoxlu həmaildir ürəklər tamam,***
***Hər biri xoşdur o birindən müdam.***
***Həm bu yolun yolçuları bax ki sən,***
***Zirək olur dəstə ötən dəstədən.***

Dahi şair əxilər kimi mübariz, döyüşən bir mövqedə duraraq köhnəliyi rədd edir:

***Ey təzə ay, köhnə olan bürcü sök,***
***Ey təzə gül, köhnə budaqları tök.***
***Ölkə səninlə ola ta bərqərar,***
***Şadlıq elə, sən də yaşa bəxtiyar.***

Deməli, yeniliyin qələbəsini təmin etmək üçün onun qarşısını alan maneələr aradan götürülməli, məhv edilməlidir. Nizaminin yeniliktər tərəfdarı olan şahzadə qəhrəmanı da məhz belə edir. Yuxudan oyanan kimi iki-üç düşməni aradan götürür, köhnə qayda-qanunu pozaraq yeni qaydaqanun yaradır, ölkə yeniləşir, abadlaşır. Bu, Nizami dövrü üçün əxilikdən gələn son dərəcə cəsarətli bir ideya idi. Əxiliyin tərənnüm etdirdiyi qəhramanlığın qəti hərəkəti ilə razı olan şair bu ideyanı daha da dərinləşdirir, qətiyyət və inamla belə yazır:

***Ölməlidir mülkə pozuqluq salan,***
***Qovmalıdır olsa qoşun bədgüman,***
***Qol-budaq atmaz təzə şax, bil ki, sən.***
***Köhnə budaqları əgər kəsməsən.***
***Kəsməsən arxın önünü aşikar,***
***Göylərə qaldırmaz əli göy çinar.***
***Sən bulağın gözlərini açmasan,***
***Gözdən axıtmaz su bu yer heç zaman.***

Böyük mütəfəkkir hər bir əxi Şeyxi kimi köhnəliyin özbaşına təslim olmayacağına, onun ədalətin gücü yolu ilə təslim edilməsinə səsləyir:

***Hamilədir zil gecə,***
***Bir gün olar qəm keçəcək gör necə,***
***Mən bu dar ovlaqda onunçün şadam,***
***Şadlıq ilə qəm qala bilməz müdam...***
***Qaçdısa bir dəm itim, ey hiyləgər,***
***Sən kimi bir ovla geri tez dönər.***

Dahi şair belə bir cəsarətin həyata keçməsində inamın, yəni imanın əsas şərt olmasını belə dəyərləndirir:

***Kimdə inam olsa iradətlə yar,***
***Daim olar sonda səadətlə yar.***
***Getsə inamla ayaq olmazmı baş?!***
***Böylə fikirlə zərə dönməzmi daş?!***
***Olsa inamla qədəmin üstüvar,***
***Daima oddan su, sudan od çıxar.***
***Başqa olurlar inam əhli tamam,***
***Bizlər ayaq, oldu baş onlar müdam.***

Əxiliyin tərənnüm etdirdiyi əməyə və əmək adamına dərin məhəbbət Nizami Gəncəvi yaradıcılığını səciyyələndirən əsas keyfiyyətlərdəndir. Şair öz yaradıcılığında bu mövzuya xüsusi diqqət yetirir, əməyi insanın zinəti, yaraşığı, onu hər cür bəlalardan qoruyan bir vasitə kimi dəyərləndirir:

***Ey əxi, nəfs itdir, onu çək dara,***
***Ruzi üçün açma əl alçaqlara.***
***Dadına paxıl rizqini, ye torpağı,***
***Torpaq olub, olma rəzil tapdağı.***

***Qoy əlinə, qəlbinə batsın tikan,***
***İşlə, çalış durma bekar bircə an.***

Nizami əxilik ideologiyasının genişlənməsinə və müdafiə olunmasına əsərləri ilə təsir edirdi.Gəncliyindən əxiliklə bağlı olan seyr-sülukun ağır və çilləli məqamlarını keçdikdən sonra Şeyxlər Şeyxi mərtəbəsinə yüksəlmiş, təcrübə və mərifət sahibi olmuşdur.Dahi şair fəta əhli kimi haqsızlıqla barışmağı zəiflik əlaməti hesab etmiş və başını boyunduruq altına uzadanları tənqidə məruz qoymuşdur. Onun əxilik ideologiyasından gələn humanizmi, bütün əsərlərində özünü göstərir.

"Süleyman və əkinçi", "Kərpickəsən qocanın dastanı" hekayələrində Nizami öz fədakar zəhməti ilə ruzi qazanan, zəhmət çəkməyi özünə borc bilən sadə adamların heyranedici surətini yaradır.Nizami əmək adamlarından həmişə dərin məhəbbət, yüksək hörmət hiss ilə danışır, onları hər cəhətdən başqa adamlara, xüsusən əməyə xor baxan tüfeyli hakim təbəqəyə qarşı qoyur.Nizami əsərlərində əmək və əmək adamlarına beləsağlam münasibət şairin yaradıcılığındakı əxiliyin təbliğ etdiyi demokratizmin, humanizmin ənparlaq ifadəsidir.

Nizami əxilikdən süzülüb gələn xarakteri etibarilə heç kəsdə eyib axtarmamış, əksinə həmişə, hər yerdə hünər və gözəllik sorağında olmuşdur. Dahi şairin misilsiz poeziyası, yaşadığı dövrün eybəcərliklərini göstərməklə bərabər, onun işıqlı və təqdirəlayiq cəhətlərini də görmüş və əks etdirmişdir. Nizami yaradıcılığının böyük idraki əhəmiyyəti də məhz həyatı ziddiyyətli şəkildə göstərməsindədir.

Nizami Gəncəvi əsərlərində Peyğəmbərlər, şahlar, xəlifələr, ruhanilər, kəndlilər, kərpickəsənlər, əlsizayaqsız qarılar, avara, tüfeyli şəhər gəncləri, yeniyetmə uşaqlar, darğalar, oğrular, zəvvarlar, saray əyanları, yəhudi,

atəşpərəst, müsəlman, xristianlar, saray xidmətçiləri, sufilər, varlı şəhərlilər kimi obrazların mövcudluğu əxiliyin qayəsi olan cəmiyyətin ümumi eybəcərliklərinin aradan qaldırılmasına xidmət etməkdədir.

Qeyd etmək vacibdir ki, nə üçün Nizami Gəncəvi dövrünün Əbül-Üla Gəncəvi, Fələki Şirvani, Mücirəddin Beyləqani və başqa şairləri kimi Şirvanşahların, Eldəgizlərin saraylarında yaşamadı? Xalqı itaətə çağıran, hakim feodal və saray əyanlarının səxavətindən, qüdrətindən bəhs edən saray şairlərindən fərqli olaraq Nizami Gəncəvi xalqı gözü açıq olmağa çağırır, haqq-ədalətin mövcudluğunu və onların da bu nemətdən dadmağa haqları olduğunu vurğulayır, əməyi vəsf edir, sənəti göylərə yüksəldirdi. Nizami Gəncəvi bəzi şahların ədalətsizliyini, saray əyanlarının namərdliyini daha öncədən gördüyü üçün Əfzələddin Xaqaninin acı taleyini yaşamadı.

Araşdırmalardan əxilərin digər sufi təriqətlərindən fərqli olaraq tərkidünya olmadıqlarını, bu dünyanın nemətlərindən istifadə edərək başqalarına da bu işdə yardımçı olduqlarını görürük. Təsadüfi deyil ki, Nizami "İqbalnamə" də Allaha müraciət edərək bu dünya haqqında deyir:

***Bu gözəl dünyada varkən hər büsat,***
***Behiştdə nə üçün əbədi həyat?***
***İnanma o dünya bundan şən olsun,***
***Dersən o yaxşıdır, sən deyən olsun.***

Doğrudan da, bu fikri yalnız comərd və cəsarət sahibi olan bir əxi söyləyə bilərdi. Avropa şərqşünaslarının "təriqət" adlandırdıqları "əxilər" təşkilatı həqiqətən dini-asketik təriqət deyil, şəhər sənətkarlarını, yoxsullarını

müdafiə edən, zalımların, müftəxorların zorakılığına qarşı dayanan mübariz insanların ittifaqı idi.

Təbii ki, mübariz ittifaqda fiziki, yaş baxımdan da uyğun insanlar olmalı idi.Təsadüfi deyil ki, insanlar arasında birliyi, bərabərliyi, qardaşlığı təbliğ edən əxilərin əsas şüarı da zalımları cilovlamaq, qəsbkarların sərvətini ac kütlə arasında bərabər bölmək idi.

Şübhəsiz ki, əgər həmin dövr Gəncədə əxilik hərəkatı geniş yayılmasa idi Nizami Gəncəvi əxilərə xas özəllikləri bu qədər dolğun, açıq çatdıra bilməzdi.Özü də sözü gedən təşkilatın bir üzvü olmasaydı, sənətkarlara bu qədər yaxın yaşamasaydı, əsərlərində sənət adamlarını necə bu qədər ucalda bilərdi?

Beləliklə, buradan aydın olur ki, Nizami Gəncəvi nəslinin sonrakı nümayəndələrinin Şeyxzamanlılar adlandırılmasının səbəbi dahi mütəfəkkirin "əxilik" təriqətinin ən yüksək mərtəbəsi olan Şeyxlər-Şeyxi dərəcəsinə yüksəlməsi ilə bağlı olmuş və bunəsil həmin soyadla bütün Şərqdə məşhurlaşmışdır.

Nizami Gəncəvinin şəcərəsinin Şeyxzamanlı soykökünə mənsub olmasını sübut edən böyük amillərdən biri də Gəncə İmamzadə türbəsidir. Mövzuya daha da aydınlıq gətirmək üçün AMEA Gəncə Regional Elmi Mərkəzin Arxeologiya və Etnoqrafiya şöbəsinin doktorantı Elnur Həsənovun bu sahədə apardığı elmi araşdırma və tədqiqatlara nəzər salmağı vacib hesab etdik.

Gəncə İmamzadə abidəsi ilə dahi şair, dövrünün əvəzsiz mütəfəkkiri Nizami Gəncəvi şəxsiyyəti arasında çox möhkəm və əbədi bir mənəvi bağlılıq mövcuddur. Əvvəla, mövlana İbrahimin vəfat etməsi və onun məzarı üzərində İmamzadə türbəsinin ilkin mərhələdə inşa olunması tarixi ilə (VIII əsrin ortaları -739/740-cı illər) dahi Nizaminin yaşadığı

dövr arasında müəyyən zaman fasiləsi olmuşdur. Nizami Gəncəvi 1139-1204-cü illərdə yaşamış və bəhs olunan dövrdə artıq Gəncə İmamzadə ziyarətgahı mövcud olmuşdur. Bu isə, öz növbəsində pak, saf xislətli imam övladı İbrahimin xatirəsinə bütün gəncəlilər kimi sonsuz ehtiram, məhəbbət bəsləmiş Şeyx Nizami ilə bu müqəddəs şəxsiyyətin bağlılığını şərtləndirmişdir. Əslində, Nizami Gəncəvi də uca Tanrının sevib-seçdiyi, məhz bu səbəbdən də bütün insanlardan fərqləndirərək xüsusi istedad bəxş etdiyi qeyri-adi şəxsiyyət idi.

Bundan əlavə, Nizami Gəncəvi dünyəvi elmlərlə yanaşı, dini (fiqh) elmlərin də mahir bilicisi olmuş, ən əsası isə həqiqi müqəddəs şəxs-Şeyx olaraq qəbul edilən və insanların böyük ehtiramla yanaşdığı üləma kimi tanınmışdır. Bu faktı sübuta yetirən bir çox məlumatlar ayrı-ayrı mənbələrdə öz əksini tapmışdır.

Şeyx Nizami şəxsiyyətinin müqəddəsliyinin, əhalinin ona qarşı bəslədiyi sonsuz hörmət və məhəbbətin əyani göstəricisi Gəncədə müasir günümüzədək mühafizə edilmiş xoş bir ənənədə yaşamaqdadır. Yeni ailə quran gənclərin ilk olaraq məhz Nizami Gəncəvinin məqbərəsini ziyarət etməsi ənənəsi bu dahi şəxsiyyətin vəfatından əsrlər keçməsinə baxmayaraq, onun dəyərli şair, mütəfəkkir kimi insanların hafizəsində yaşaması ilə yanaşı, Şeyx Nizaminin şəxsiyyətinin, uyuduğu məkanın da paklığına inamın mövcud olduğunu göstərmiş olur. Çünki yeni ailəyə, ocağa başlanğıcı uğurlu, saf vermək, məhz Şeyx Nizamidən xeyir-dua almaq adəti həm də Gəncədə qədim, zəngin, düzgün mənəvi dəyərlərə sədaqətin əyani sübutudur.

Nizami Gəncəvi dühasını Gəncə İmamzadə ziyarətgahı ilə qırılmaz mənəvi tellərlə bağlayan ən mühüm səbəblərdən biri də onun şəcərəsinin əbədi olaraq bu müqəddəs məkanla

tarixi bağlılığı olmuşdur. Daha doğrusu, bir sıra tarixi mənbələrdə qeyd olunduğu kimi, İmamzadə abidəsi və onun ətrafında olan torpaqlar Nizami Gəncəviyə məxsus olmuşdur. Məlumdur ki, 1186-cı ildə qeyd olunan torpaqlar dahi Nizami Gəncəviyə əvəzsiz sənət incisi, məşhur «Xəmsə»yə daxil olan «Xosrov və Şirin» əsərinə görə Azərbaycan - Atabəylər (yaxud Eldənizlər) dövlətinin hökmdarı Məhəmməd Cahan Pəhləvan tərəfindən hədiyyə edilmişdir. Gəncə şəhərinin 200 kilometrliyində Şeyx Nizami ilə görüşmüş görkəmli sərkərdə, sonradan Atabəylər dövlətinə başçılıq etmiş Qızıl Arslan qiymətli hədiyyələrlə bərabər, Həmdünyan adlı kəndi də qardaşı Məhəmməd Cahan Pəhləvanın adından dahi şairə bağışlamışdır.

Məhz haqqında bəhs edilən bu kəndin (ərazinin) indiki İmamzadə kompleksi və onun ətrafındakı torpaqları əhatə etdiyi bildirilir. Bununla yanaşı, Şeyx Nizami Gəncəvinin mədhiyyəçi, saray şairi olmadığı, hər hansı sifarişlərlə əsər yazmadığı tarixi faktdır. Onun müəyyən bir əraziyə maddi maraqları əsas götürərək sahib olması, ümumiyyətlə yanlışdır. Odur ki, İmamzadə abidəsinə, bu müqəddəs məkana olan sonsuz ehtiramı Nizami Gəncəvini bu torpaqlara sahib çıxmağa sövq etmişdir.

Ayrı-ayrı məxəzlərdə rast gəlinən məlumatların əks etdirdiyi məqamlara rəğmən, istənilən halda əvvəldə qeyd edildiyi kimi, İmamzadə ziyarətgahı hər zaman Gəncənin ərazisi olub, bu şəhərlə birbaşa bağlılığı qədim dövrlərdən bəri mövcud olmuşdur. Məhz Gəncəni ömrünün sonuna qədər özünün ilk və yeganə məkanı, doğma ocağı hesab etmiş Nizami Gəncəvi kimi bir dahinin İmamzadə ziyarətgahı və onun ətrafındakı ərazilərə sahib olması sayəsində burada əsrlərlə yaşamış çox pak ənənələr mühafizə edilmişdir. Bunların içərisində ehtiyacı olanlara, himayədən

mərhum körpələrə, ahıllara təmənnasız yardım göstərilməsi xüsusilə əhəmiyyətlidir. Əsrlər keçməsinə baxmayaraq, Gəncə İmamzadə ziyarətgahında toplanmış maddi vəsaitlər, fitrə pulları hər zaman yalnız xeyriyyəçilik məqsədləri üçün sərf olunmuşdur.

Dahi Şeyx Nizami nəslinin (şəcərəsinin) sonrakı nümayəndələri də bu müqəddəs məkanın sahibləri olmuşlar. Bu haqda tarixi bir məqama toxunmaq zəruridir. Gürcü çarı II İraklinin təliqələrindən, rəsmi sənədlərindən birində bu məsələ ilə bağlı mühüm tarixi fakt öz əksini tapmışdır. Bu sənəddə göstərilmişdir ki, İmamzadə ziyarətgahının əkin yerləri, həmçinin məhsul üçün yararlı torpaq əraziləri Nizami nəslindən olan Şeyxzamanovlara (Şeyxzamanlılara) məxsus olmuşdur. Eyni zamanda, bu şəcərənin Şeyx İbrahim Qüdsi Şeyxzamanlının şəxsində təqdim edilməsi, bəhs olunan torpaqların bu nəslin istifadəsində olmasına dair tarixi faktların əks etdirilməsinin əhəmiyyəti çox böyükdür.

Şeyxzamanlılar nəslinə mənsub olan Şeyx İbrahimin həm də peşəkar xəttat olduğuna dair mənbələrdə məlumatlara rast gəlinir. Bundan əlavə, müasir dövrümüzdə də İmamzadə kompleksində Şeyx İbrahim Şeyxzamanovun sağlığında ikən özü üçün hazırlamış olduğu və başqa şəxslər üçün də yazdığı başdaşı nümunələrinə təsadüf etmək mümkündür.

Gəncə İmamzadə kompleksində dəyərli əsərləri bu günümüzədək qorunub saxlanılmış bu iki görkəmli sənətkarın - Mirzə Mehdinin (yaxud Nacinin) və Şeyx Zamanın fəaliyyəti, əsasən bu müqəddəs ocaqla bağlı olsa da, yalnız bu məkanla məhdudlaşmamışdır. Belə ki, Gəncəli həkkak, XIX əsr xəttatlıq, nəqqaşlıq sənətinin tanınmış nümayəndəsi olmuş Mirzə Mehdinin Goranboy rayonu ərazisinə daxil olan Rəhimli kəndində də vaxtilə yazmış

olduğu məzar daşının kitabəsinin aşkar olunması bunun bariz sübutu hesab edilə bilər.

Şeyx Zaman şəxsiyyəti ilə əlaqədar digər bir mühüm fakt yenə də müqəddəs Gəncə İmamzadə ziyarətgahı ilə bağlıdır. Belə ki, burada olan qəbir daşlarının birinin üzərində ərəb dilində belə bir yazı vardır:

«Bunu Şeyx Zaman yazmışdır».

Qeyd olunan epitafiya nümunəsində qəbir abidəsinin mətn hissəsinin məhz Şeyx Zaman tərəfindən yazıldığı (həkk edildiyi) nəzərdə tutulmuşdur.

Bu nümunələrin qarşılıqlı müqayisəsi nəticəsində aşağıdakı nəticələrə gəlmək olar:

1) Qeyd olunan qəbir abidələrinin forması, hazırlanmasına istifadə edilmiş materiallar onların xronoloji baxımdan eyni bir dövrə aid olmasını göstərir;

2) Hər iki qəbir abidəsinin əsas epitafik göstəriciləri onların ayrı-ayrı sənətkarlıq üslublarına malik olan sənətkar-həkkaklar tərəfindən hazırlanması mülahizəsini qəti şəkildə təkzib edir;

Beləliklə, görkəmli sənətkar, Şeyxzamanlılar nəslinin layiqli nümayəndəsi olan Şeyx Zaman yalnız həkkaklıq sənətinin mahir bilicisi deyildi. O, eyni zamanda qəbir abidələrinə həkk etdirdiyi epitafik mətnlərin, yazıların müəllifi olmuşdur. «Şeyx» titulunun mövcudluğu isə öz növbəsində onun alimliyinə dəlalət edir [64].

Bir faktı da xüsusi vurğulamaq lazımdır ki, onun da sələfləri kimi alicənablığı, yüksək dərəcədə sənətkarlıq bacarığı insanların, o cümlədən də hakim dairələrin diqqətini cəlb etmişdir. Nəticədə isə bu sənətkara Gəncəli Cavad xan kimi mötəbər şəxsiyyətlərin təmsil olunduğu nəslin qəbirüstü abidələrinin hazırlanması işi etibar edilmişdir.

Gəncə İmamzadə ziyarətgahının Şeyx Nizami şəcərəsi ilə bağlılığını, onun mənəvi qoruyucusu olduğunu sübuta yetirən mühüm faktlar sırasında bu nəslin nümayəndələrinin Gəncə İmamzadəsi ərazisində dəfn edilməsi göstərilə bilər. Bundan əlavə, nəslin sərdabəsinin mövcudluğu həm də bu müqəddəs məkanda onların da xatirəsinin yaşadılmasına səbəb olmuşdur.

Bu nəslin tanınmış nümayəndələrindən biri olan Şeyx İbrahim Qüdsi Şeyxzamanın (yaxud Şeyxzamanlının) İmamzadə, onun ətraf ərazilərindəki yararlı torpaq sahələrinə sahib olmasına dair bir sıra mənbələrdə məlumatlara təsadüf olunmuşdur. Bu məxəzlər içərisində gürcü çarı olmuş II İraklinin qeydlərindən (təliqələrindən) birində bəhs olunan ərazinin məhz Şeyx Nizami nəslindən olan şəxslərə məxsusluğu faktı öz əksini tapmışdır. Daha dəqiq desək, burada Şeyxzamanlılar şəcərəsinin nümayəndəsi qismində məhz Şeyx İbrahim Qüdsi Şeyxzamanın adı qeyd edilmişdir.

Ümumiyyətlə, Nizami Gəncəvi şəxsiyyəti, onun xələfləri olan və tarixdə Şeyxzamanlılar (Şeyxzamanovlar) adı ilə tanınmış nəslin nümayəndələrinin bağlılığı qismində çıxış edən digər faktoloji əhəmiyyətə malik dəlillər mövcuddur. Bunların içərisində heç şübhəsiz ən tutarlı göstərici müasir dövrdə də əsrlərlə olduğu kimi, Gəncə şəhərinin əsas simvollarının məhz Nizami Gəncəvinin mədfəni - hər bir azərbaycanlının xüsusi ehtiramla yanaşdığı bir ocaq və eyni zamanda, dəyərli abidə, maddi mədəniyyət incisi olan Şeyx Nizaminin məqbərəsi və müqəddəs ziyarətgah, qədim tarixi abidə hesab edilən İmamzadə kompleksi olmasıdır.

Bundan əlavə, Gəncə İmamzadə ziyarətgahının çox böyük bir tarixi müddət ərzində özünün müqəddəsliyi, paklığı və əhalinin inadkarcasına onu bütün mənfi

qüvvələrdən, təcavüzlərdən qoruması sayəsində mövcudluğunu itirməməsi həm də Şeyx Nizami şəcərəsinin də tarixdə yaşamasına şərait yaratmışdır. Təsadüfi deyildir ki, bütün haqsız ittihamlar, repressiyalara baxmayaraq, bu nəsil Azərbaycana müsəlman Şərqinin ilk demokratik dövlətində yüksək mənsəb və eyni zamanda ehtiram sahibi olmuş, Azərbaycan Xalq Cümhuriyyətində əks-kəşfiyyat idarəsinin (yaxud Milli təhlükəsizlik Nazirliyinin) rəhbərləri vəzifəsində çalışmış Məhəmmədbağır və Nağı bəy Şeyxzamanlılar, incəsənətimizin əvəzsiz korifeyi, xalq artisti Məmmədrza Şeyxzamanov kimi şəxsiyyətlər bəxş etmişdir.

Nizami Gəncəvinin şəcərəsinə mənsub Şeyxzamanlı soyadı Cavad xan Qacar dövründə yaşamış və məşhur xəttat olmuş Şeyx Zamanın adından götürülmüş və günümüzə qədər də öz nüfuzunu qorumuşdur.

Şeyx Zaman Şeyx Həsənin böyük qardaşı Məhəmməd Əlinin oğlu və Şeyx İbrahim Qüdsinin əmisi oğlu olmuşdur. Bu şəxsin adının mənbələrdə şəkilməməsinin səbəbi görkəmli şəxsiyyət, yəni şeyx rütbəsində olmadığı ilə bağlıdır [65].

Şeyx Zaman adı bu şəxsiyyətə təsədüfən verilməmişdir. Əvvəla qeyd edək ki, XVIII əsrdə Nizami Gəncəvi nəslindən olmuş Şeyx Zaman dövrünün görkəmli təsəvvüf böyüklərindən və xəttatlarından olmuşdur. Onun fəzilət və kəramətləri Cavad xan Qacarı özünə cəlb etmiş və öyrəndikdə ki, bu şəxs Nizami Gəncəvi nəslinin nümayəndəsidir onu Şeyx Zaman adlandırmış, Nizami nəslinin itməməsi naminə hələ sağlığında onun üçün məqbərə inşa etdirmiş və həmişə böyük hörmət göstərmişdir. Hətta Cavad xan qəbrinin sinə daşının Şeyx Zaman tərəfindən yazılmasını vəsiyyət etmişdir. Şübhəsiz sədaqətli Şeyx Zaman Cavad Xanın ona etdiyi bu vəsiyyəti yerinə

yetirmişdir. Gəncə Diyarçünaslıq Muzeyində qorunan Cavad Xanın sinə daşında yazılır: “Gəncəli xəttat-həkkak Şeyx Zaman tərəfindən hazırlanmış bu abidə Cavad xan Ziyadoğlu Qacarın iki oğlu - Əliqulu ağa (vəfatı h. 1261/1345-ci il), Həbib paşa (vəfatı h. 1272/1355-56-cı illər), Zeynəb xanım (vəfatı h. 1274/1357-69-cu illər), Əhməd xanın qızı, İsmayıl paşanın qadını Xurda bəyimə (vəfatı h. 1236/1320-21-ci illər) aiddir” [64].

Günümüzə qədər Gəncə İmamzadə Türbəsində Şeyx Zamanın əl işləri qalmaqdadır. Onlar bu gündə incəsənətin şedevr əsərləri hesab olunur. Bunlardan biri axund mövlana Hüseyn Pişnamazzadənin abidəsidir. Başdaşının haşiyəsində 14 məsuma Allahın salat və salamından sonra xəttat haqqında kiçik bir qeyd var: “Həkkak, günahkar bəndə Zaman ibn Məhəmməd Əli”

Şeyx Zaman Gəncədə vəfat etmiş, şəhərin İmamzadə qəbiristanlığında, hələ sağlığında Cavad xan tərəfindənonun üçün hazırlanmış məqbərədə dəfn edilmişdir. İmamzadə türbəsində yerləşən bu məqbərə “Şeyxzamanlıların” məqbərəsi kimi tanınmışdır.

Şeyx İbrahim Şeyx Həsən oğlu 1816-cı ildə Gəncə şəhərində anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Sonra mədrəsədə oxumuşdu. Müəllim işləmişdi. Şeyx İbrahim şair idi. Naseh təxəllüsü ilə şer yazırdı. Nizami Gəncəvi şəcərəsinin sonrakı daşıyıcısı olduğundan insanlar ona Qüdsi, yəni müqəddəs təxəllüsü iləmüraciət etmişlər və bu səbəbdən də onun daşıdığı ləqəblər arasında yalnız Qüdsi yaşamışdır.

Firudin bəy Köçərli onun haqqında yazır:"Mərhum Şeyx İbrahim Şeyx Həsən oğlu Şeyxzamanov Gəncə şairlərinin məşhurundandır. Təvəllüd edibdir Gəncədə hicrətin 1231-ci tarixində, yüz sənə bundan müqəddəm. Şeyx

İbrahim təlim alıbdır Gəncə pişnamazı mərhum axund Molla Hüseyndən. Məlum ola ki, mərhum Mirzə Fətəli Axundov da həmin bu müdərrisdən təlim almışdır.

Şeyx İbrahimin ərəbcə və farsca yaxşı biliyi var imiş və müqtədir türk şairlərindən birisi hesab olunur. Qüdsi müdərrislik ilə və bir tərəfdən Gəncə şəhərinin yaxınlığında vaqe olan İmamzadeyi-İbrahim türbəsinin mütəvəlliliyi ilə güzəran edərmiş. 1255-də təəhhül edibdir. Belə rəvayət olunur ki, 1261-ci ilə kimi hər sənədə bir qızı vücuda gəlir imiş. 1261-ci tarixdə haqq-taala ona bir oğul kəramət edibdir və şair bundan ziyadə xoşhal olub, ona «Əliəkbər» ad qoyubdur və bu münasibətlə deyibdir:

***Qəməfza bəyani ke, dər məhzərəst,***
***Ze mən yadeqare-Əli Əkbərəst.***
***Keşidəm bəsi sağər əz xune-del,***
***Həmana ke, tarixe-an «sağər» əst.***

Şeyx İbrahimin bir təxəllüsü də «Naseh»dir. Qüdsinin gözəl qəzəlləri var. Onlardan bir parası türkcədir, amma əsərlərinin çoxu farsi dilindədir. Xacə Hafizin qəzəllərinə timsal olaraq bir çox qəzəllər inşad etmişdir:
Ney taqəte-del dari,
Ney forsəte-didari,
Ney forsəte-didari,
Ney taqəte-del dari.

Qüdsi cənabları şiəməzhəb saliklərindəndir. Gəncənin müxtəsər tarixçəsini general Lazarevin xahişinə görə, yazıbdır ki, onun müsəvvədəsi əldədir. Cümleyi-əşarı dağınıq surətdə olduğu halda, eşitdiyimizə görə, hali-həyatda olan oğlu Şeyx İsa həzrətləri onları cəm etməkdədir. Ümidvar ki, tezliklə çapa verilsin.

Əşarından əlavə, «Tarixi-müqəddəs» kitabı dəxi tərtib edibdir və lakin mərhumun bu əsəri də hənuz çap olunmayıbdır. Çap olunmamış divanı da vardır. Divanına daxil olan şerlər və qəzəllər 150-dən ziyadədir. Cümlə qəzəlləri yeddi beytdən ibarətdir; artıq-əskiyi yoxdur. Əsərləri ələlümum üləma qisminin zəmminə və ruhani sinfinin çirkin və qəbih əməllərinə dair əsərlərdir.

Sabiqdə Gəncə şəhərində qəzavət edibdir və sonraları gimnaziya məktəbində müəllim olubdur. Belə ki, Gəncədə əvvəlinci əqaid və türk dilinin müəllimi bu zat olubdur. Bəzi rəvayətə görə, Şeyx İbrahimin Şeyx Nizami ilə qərabəti var imiş.

Şeyx həzrətləri ziyadə müttəqi və dindar bir vücud olduğundan ülumi-ilahiyyəyə artıq bələdiyyatı var imiş və Qurani-şərifi əzbər bilirmiş. İdareyi-ruhaniyyədə Şeyx İbrahim rəqabət imtahanı verərkən Qafqazın fərmanfərması -- namestniki knyaz Vorontsov həzrətləri də orada var imiş. Şeyxi-mərhumun imtahan vaxtında izhar etdiyi elm və kamalını müşahidə edib, ona afərin və təhsin oxuyub, öz qızıl saatını da bəxş etmişdir.

Şeyx İbrahim 1282-ci tarixdə Gəncədə qəflətən vəfat edib; məqbərəsi İmamzadə qəbristanındadır. Şeyxi-mərhum ziyadə ağıllı, zəkavətli və hafizəli möhtərəm bir alim imiş". Şeyx İbrahim Qüdsi 1869-cu ildə vəfat edib.

Şeyx İbrahim Şeyx Fatma xanımla ailə qurmuşdu. Şeyx İsa adlı oğlu və 9 qizi vardı”.

Azərbaycanın görkəmli siyasi-ictimai xadimi Məmmədbağır bəy Şeyxzamanlının tərtib etdiyi “Şeyxzamanlıların şəcərəsi” XIX əsri əhatə etsə də sülalələrinə aid tarixi məlumatlarla zəngindir. Şeyx İbrahim Qüdsi Şeyxzamalının oğlu Şeyx İsanın həyat və yaradıcılığı da məhz sözü gedən şəcərədə öz əksini tapmışdır.

1845-ci ildə dünyaya göz açmış Şeyx İsa Şeyx İbrahim Qüdsinin yeganə oğlan evladı olmuşdur. Məmmədbağır bəy Şeyxzamanlının tərtib etdiyi "Şeyxzamanlıların şəcərəsi"ndə Şeyx İsa haqqında qeyd olunur: "Şeyx həzrətləri islam və onun fəlsəfi, elmi mahiyyətini özündə ehtiva edən təsəvvüf böyüklərindən, müttəqi və dindar bir şəxsiyyət olmuşdur. Atası mərhum Şeyx İbrahim Qüdsi kimi Qurani-Kərimi əzbər bilmişdir, yəni hafizi Quran olmuşdur.

Şeyx İsanın evladı olmadığında Nizami Gəncəvi şəcərəsinin daşıyıcısı missiyası Şeyx Zamanın övladı Şıx-Həsən və ya Şeyx Həsənin üzərinə düşmüşdür.

Şeyx Həsən Məmmədbağır bəy və Nağı bəy Şeyxzamanlıların ataları Saleh bəyinatası, yəni babaları olmuşdur. Bu görkəmli şəxsiyyət də Nizami Gəncəvi şəcərəsinin sonrakı nümayəndələri kimi yüksək əxlaqa sahib müqəddəs bir mömin kimi tanınmışdır

Nizami Gəncəvi şəcərəsinin sonrakı nümayəndəsi olan Hacı Saleh bəy Şıx-Həsən bəy oğlu Şeyxzamanlı Gəncə şəhərinin sayılıb seçilmiş şəxslərindən olmuşdur. Gəncəlilər özlərinə məxsusu şivələri ilə ona Salah bəy deyə müraciət etmişlər.

İbrahim bəy Qüdsidən sonra dinarat adlanan İmamzadə ətrafı torpaqlara onun qardaşı,Nağı bəyin atası Saleh bəy nəzarət edir. Savadlı ilahiyyətçi olan Saleh bəy işində çox məsuliyyətli olmaqla yanaşı,cümə namazlarını 1 dəfə də olsa qaçırmazdı.

Saleh bəy Şeyxzamanlı uzunömürlü insan olmuş və 90 yaş civarında rəhmətə getmişdir. Saleh bəy Şeyxzamanlını Gəncənin sahibkarlarından fərqləndirən əsas cəhət vətənpərvərlik hissinin yüksək dərəcəsi olmuşdur. Saleh bəyin milli əhval-ruhiyyəli vətənpərvər olması haqqında qeyd olunur: "Gəncədə məskunlaşmış erməni mənşəli Baqrat

adında biri daimi olaraq Saleh bəylə düşmənçilik edirmiş. Bunun səbəbi isə erməni Baqratın Gəncə şəhərinə gəlmə olması və müsəlmanların torpaqlarını baha qiymətə almasına Saleh bəyin etiraz etməsi olmuşdur. Nəticədə Saleh bəy yerli əhalinin ata-baba torpaqlarını mühafizə edərək Baqratı Gəncədən köçüb getməyə məcbur edir. Baqrat yoxsul müsəlmanlardan ucuz qiymətə aldığı torpaqların bir hissəsi Gəncə şəhərində yerləşən  Sos uşaq kəndinin yeri hesab olunur. Rusiya imperiyasının təhriki ilə Gəncə şəhərinin münbit ərazilərini satın almaq niyyətində olan Baqratın qarşısı Saleh bəyin ona qarşı tutduğu qətiyyətli mövqeyi ilə alınmışdır.

Saleh bəy Şeyxzamanlının 9 qızı olmuşdur. Onun həyat yoldaşı Məşədi Ruqiyyə xanım Saleh bəyə müraciət edərək, “mən sənə oğul bəxş edə bilmədim,ola bilər ki,sən yenidən ailə qurarsan və o xanım sənə oğul bəxş etsin” deyir.Saleh bəy öz həyat yoldaşı Məşədi Ruqiyyə xanımı çox sevdiyindən deyir:“gəl tələsməyək,biraz da gözləyək. Səbr etdiklərinə görə Allah onlara Məmmədbağır bəy, İsrəfil bəy və Nağı bəy adlı 3 oğul bəxş edir və bununla da sanki Şeyx Nizaminin soy kökünün qorunub artmasını təmin edir.

Şeyxzamanlı Məmmədbağırbəy Saleh bəy oğlu – Azərbaycan Demokratik Respublikasının milli hökuməti tərəfindən təsis edilən "Əksinqilab ilə mübarizə təşkilatı"nın (Hazırda Milli Təhlükəsizlik Nazirliyinin) rəisi vəzifəsində çalışmış görkəmli siyasi və içtimai xadim.

Məmmədbağır Şeyxzamanlı 1880-ci ildə Gəncə şəhərində anadan olmuşdur. 1919-cu ilin iyun ayında Azərbaycan Demokratik Respublikasının milli hökuməti tərəfindən təsis edilən "Əksinqilab ilə mübarizə təşkilatı"nın rəisi təyin olunmuşdur. Məmmədbağır Şeyxzamanlı bir müddət bu vəzifədə çalışdıqdan sonra, Azərbaycan

Demokratik Respublikasının ilk parlamentində "Müsavat" fraksiyasının üzvü kimi siyasi fəaliyyəti ilə əlaqədar, 1919-cu ilin avqust ayında öz ərizəsi ilə tutduğu vəzifədən azad edilmişdir.

Məmmədbağır Şeyxzamanlı millət vəkili kimi bir sıra mühüm dövlət məsələlərinin həllində, o cümlədən qanun layihələri və qərarların müzakirəsində yaxından iştirak etmişdir. Müstəqillik uğrunda ardıcıl mübarizə apardığına və barışmaz siyasi mövqeyinə görə, Məmmədbağır Şeyxzamanlı Azərbaycanın Rusiya tərəfindən işğalından sonra, bolşeviklər tərəfindən həbs edilmiş və 1920-ci ilin may ayında güllələnmişdir.

Saleh bəy Şeyxzamanlının  ikinci oğlu İsrafil bəy 1882-ci ildə Gəncə şəhərində doğulmuş və mühasib olmuşdur. Heç bir siyasi partiyaya mənsub olmamış lakin buna baxmayaraq, dəfələrlə təqiblərə məruz qalan İsrafil bəyi Qazaxıstana sürgün edilmişdir.

İsrəfil bəy Şeyxzamanlıdan gələn ailə qolu Salahbəlilər adlandırılmışlar. İsrəfil bəyin Balabəy, Zibeydə, Cəmilə, Tahirə, Nizami və Rəna adlı altı övladı olmuşdur.

1913-cü ildə dünyaya göz açmış İsrəfil bəyin böyük oğlu Balabəy ziyalı mühəndis olmuş sovet xüsusi orqanlarınıntəqiblərindən yaxa qurtarmaq üçün soyadından şeyx kəlməsini ixtisar edərək Zamanov soyadını qəbul etmişdir. Lakin bununla belə təqiblərdən canını qurtara bilməyən Balabəy  bir müddət Tiflisdə gizlənmiş, sonra Moskvaya qaçmışdır. 1939-cu ildə Rus-Yapon müharibəsinə getmiş və orada itkin düşmüşdür.

Balabəyin Moskvada yaşayan Zamanov Mixail Balabəyoviç adlı oğluAviyasiya İnstitutunu bitirmiş və Ulduz şəhərciyində mühəndis kimi şalışır. Zamanov Mixail

Balabəyoviç akademik və General-polkovnik rütbəsinə yüksəlmişdir.

Nizami Gəncəvi geniologiyasının daşıyıcısı Balabəyin 1924-cü ildə anadan olmuş kiçik qardaşı Şeyxzamanlı Nizami İsrəfil bəy oğlu da imperiyanın xüsusi idarələrinin təqiblərindən cana doyaraq Moskva şəhərinə köçmüş və rus qadını ilə ailə həyatı qurmuşdur.

II Dünya müharibəsi illərində cəbhədə göstərdiyi rəşadətlərə görə yüksək ordenlərlə təltif edilmişdir. Müharibədən sonra doğma yurduna dönən Nizami Kənd Təsərrüfatı İnstitutuna daxil olur daha sonra isə K.A.Timiryazev adına Moskva Kənd Təsərrüfatı Akademiyasında təhsilini davam etdirmişdir.

Həyatının sonuna qədər ixtisası üzrə böyük vəzifələrdə çalışmış Nizami Şeyxzamanlı eyni zamanda alim və şair kimi də tanınmışdır. Onun vətənə həsr etdiyi şerlərə nəzər saldıqda bu nəslin Nizami Gəncəvi ənənələrini damarlarından axan qanlarında yaşatdıqları aydın olur.

Nizami Şeyxzamanlı 30 may 2002-ci ildə dünyasını dəyişmiş və Moskvada dəfn edilmişdir. Onun Eldar və Tahirə adlı iki evladı olmuşdur.

Tahirə xanım M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Qərbi Avropa dilləri kafedrasında müəllim vazifəsində çalışır.

Tahirə xanım Şeyxzamanlının oğlu Mixail isə Rusiya Fedrasiyası Xarici İşlər Nazirliyində Tarixi-Sənədlər deportamentində çalışır.

2004-cü ildə Moskva ali məktəbləri arasında keçirilmiş olimpiyadanın və "Ərəb mədəniyyəti" konkursunun qalibi olmuşdur. O, ərəb, ingilis, fransız, italyan və türk dillərini mükəmmək bilir.

İsrəfil bəy Şeyxzamanlının 1915-ci ildə anadan olmuş qızı Zibeydə savadlı və ziyalı qadın olmasına baxmayarar imperiya xüsusi orqanları tərəfindən təqibə məruz qoyulmuşdur. Məktəbdən dəfələrlə xaric olunmuş Zibeydə nəhayət özündən 25 yaş böyük olan müəllimlə həyat qurmuşdur.

Zibeydə xanım Nizami Gəncəvi şəcərəsinin layiqli davamçısı kimi qeyri-adi ağıl və zəkayə malik olmuşdur.

Zibeydə xanımın Telman və Kamran adlı iki övlad yetirmişdir.

1936-cı ildə doğulmuş Telman kənd təsərrüfatı üzrə alimlik dərəcəsi almışdır.

İsrəfil bəy Şeyxzamanlının 1917-ci ildə anadan olmuş qızı Cəmilə xanım imperiya tərəfindən təqiblərəməruz qoyulduqdan sonra özündən 20 yaş böyük zəyalı, tanınmış riyaziyyat müəllimi Qasımov Müseyiblə ailə həyatı qurmuşdur.

Şeyxzamanlı Nağı bəy Saleh bəy oğlu – Azərbaycan Demokratik Respublikasının xüsusi xidmət orqanı olan "Əksinqilab ilə mübarizə təşkilatının" (Hazırda Milli Təhlükəsiszlik Nazirliyinin S.P.) rəisi vəzifəsində çalışmış görkəmli siyasi və içtimai xadim.

Nağı bəy Şeyxzamanlı 1883-cü ildə Gəncə şəhərində anadan olmuşdur. Gənc yaşlarından Azərbaycanın ictimai-siyasi həyatında yaxından iştirak etmiş, əvvəlcə Gəncədə əsası 1905-ci ildə Əhməd bəy Ağayev tərəfindən qoyulan "Difai", 1917-ci ildən isə Nəsibbəy Yusifbəyli tərəfindən təsis edilən "Türk Ədəmi-Mərkəziyyət" partiyasının üzvü olmuşdur.

1917-ci ilin may ayında "Müsəlman Demokratik Müsavat" partiyası ilə birləşərək "Müsavat" adını almış

həmin partiyanın üzvü kimi Nağı Şeyxzamanlı ölkənin ictimai-siyasi həyatında fəal iştirak etmişdir.

Nağı Şeyxzamanlı 1919-cu ilin avqust ayında, yəni qardaşı Məmmədbağır Şeyxzamanlı öz ərizəsi ilə bu vəzifədən istefa verdikdən sonra"Əksinqilab ilə mübarizə təşkilatının" rəisi təyin edilmiş və 1920-ci ilin mart ayında təşkilat buraxılana qədər onun rəhbəri kimi fəaliyyət göstərmişdir.

1920-ci il aprel ayının 28-də Azərbaycanın Rusiya tərəfindən istilasından sonra mühacir həyatı keçirməyə məcbur olan Nağı bəy Şeyxzamanlı bir müddət Türkiyədə, sonralar isə Almaniya və ABŞ-da yaşamışdır.

Mühacirətdə olarkən Azərbaycanda baş verən ictimai-siyasi hadisələrlə bağlı fikirlərini və xatirələrini əks etdirən bir sıra əsərləri nəşr edilmişdir. Həmin əsərlərini Keykurun imzası ilə yazan N.Şeyxzamanlının İstanbulda1957-ci ildə "Böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev", 1963-cü ildə "Dərdləşmə" və 1964-cü ildə "Azərbaycan istiqlal mücadiləsi xatirləri" adlı kitabları çapdan çıxmışdır. N.Şeyxzamanlının sonuncu iki kitabında toplanmış əsərləri 2004-cü ildə Milli Təhlükəsizlik Nazirliyi tərəfindən təkrar nəşr edilmişdir.

Nağı bəy Şeyxzamanlı 1967-ci ildə ABŞ-da vəfat etmişdir.

Beləliklə, Nizami Gəncəvinin şəcərəsinin davamçıları bu böyük şəxsiyyətin həm milli mənsubiyyətinin azərbaycanlı həm də doğma vətəninin Azərbaycan olduğunu aydın şəkildə göstərir.

Günümüzdə də şeyxzamanlılar nəsli ölkəmizin və dövlətimizin möhkəmləndirilməsi və işıqlı gələcəyə sarı istiqamətlənməsində öz töhfələrini verməkdədirlər.

## *NİZAMİ GƏNCƏVİ ŞƏCƏRƏSİ HAQQINDA SƏKKİZ YÜZ İLİN QAYNAQLARI*

Orta əsrlərdə yaranan ədəbi əsərlər və onların müəllifləri haqqında əsas bilgi mənbələrindən biri təzkirələrdir. Adından dağ öründüyü kimi təzkirələr şair və yazıçılar barədə zikrlər, yəni söhbətlər, qeydlərdən ibarətdir. Bu əsərlərdə şair və yazıçıların həyatı və əsərləri haqqında qısa məlumat verilir, eyni zamanda əsərlərindən qısa parçalar nümunə gətirilir. Təzkirələrinən çox diqqət yetirdiyi məsələ isə onların harada anadan olması, nə vaxt vəfat etməsi vəə sərlərinin adlarıdır. Bəzi hallarda əsərlərin məzmunu, mövzusu, kimə ithaf olunması haqqında da söhbət açılır. Belə bir problemin işlənməsi ona görə vacibdir ki, bununla bir tərəfdən Nizaminin həyatının bəzi məqamlarının dəqiqləşdirilməsi mümkün olur, o biri yandan onun əsərlərinin fikir, düşüncə qaynaqları müəyyənləşdirilir və şairin ədəbi irsinindərki tarixi aydınlaşır.

Məhz buna görə tədqiqatçılar Nizami Gəncəvinin həyat və yaradıcılığını öyrənərkən ilk növbədə onun haqqında söhbət açan təzkirələrə ayrıca diqqət yetirirlər. Hətta onuda nəzərə alaq ki, Nizami Gəncəvidən söhbət açan ilk Azərbaycan və dünya alimləri daha çox həmin təzkirələrdən bəhrələnmiş, təzkirəçilərin verdiyi məlumatları təkrarlamaqla kifayətlənmişlər. Dünyanın bir çox ölkələrində indi də yanlış olaraq Nizaminin bir İran şairi kimi göstərilməsidə həmin təzkirələrlə bağlıdır. Bu təzkirələrdə yerindən, milliyyətindən asılı olmayaraq bütün sənətkarlar bir axında birləşdirilir, vahid bir mədəniyyətin nümayəndələri kimi göstərilirdilər.

Özbək Dövlət şah Səmərqəndi, Azərbaycan türkləri Lütfəli bəy Azər Bəydili, Rzaquluxan Hidayət,

Məhəmmədəli Tərbiyət kimi təzkirəçilər əsərlərini farsca yazdıqlarından həm onlar özləri, həmdə onların haqqında bəhs etdikləri sənətkarlar İranlı və fars sayılmışlar. Bu baxımdan təzkirələrin Nizami haqqındakı qeydlərini öyrənməklə, onları yazanların kimliyini ortaya qoymaqla əsl həqiqəti aydınlaşdırmağa kömək etmiş oluruq.

Təzkirələr Nizami yaradıcılığının mahiyyətinə nüfuz edə bilməsədə, verdikləri məlumatlar çox vaxt həqiqətdən uzaq olsa da, onların öyrənilməsi, təhlildən keçirilməsi Nizami haqqındakı həqiqətin meydana çıxmasına kömək edə bilər. Təzkirələrin Nizami haqqındakı qeydlərinin öyrənilməsi, dəyərləndirilməsi həmdə o cəhətdən vacibdir ki, biz bununla həmin təzkirələrə istinad edərək fikir söyləyən alimlərin fikir və qənaətlərini düzgün dəyərləndirə bilərik.

Nizami Gəncəvi haqqında ilk dəfə söhbət açan təzkirəçi Məhəmməd Övfidir. Bu təzkirəçi Nizami haqqında söhbətə "Əlhəkiməl-kamil Nizami Gənceyi" sözləri ilə başlayır. Özünün "Lübabül-əlbab"adlı təzkirəsini o, 1203-1228-ci illər arasında yazmışdır. Özü Pəncabdan olan ədəbiyyatşünas təzkirəsi üçün məlumatı daha əvvəl toplamışdır. O, şair haqqında məlumatı yəqin ki, daha əvvəl, Xarəzm, Buxara və Bağdad kimi şəhərlərdə olanda toplamışdır. O, Nizami «Divan»ını görmədiyini yazsada, şairin lirik şeirlərindən üç nümunə verir. Onu da qeyd edir ki, o həmin şeirləri Nişapurda hörmətli bir adamdan eşitdiyini yazır. Bunlar "Mənim işim min dəfə cana gəlmişdir", "Bircə-bircə mənim bütün qəmlərim o buğdayi sifətdəndir", "Ey cənnət gözəllərinin yoldaşı olan" misraları ilə başlayan şeirlərdir.

Nizami poemalarını yüksək qiymətləndirən, onları bütün gözəlliklərin xəzinəsi adlandıran M.Övfi bu qeydində "Leyli və Məcnun" poemasını üzünü göstərməklə ağılları

başdan alan türk gözəllərindən bəhs edən bir əsər kimi dəyərləndirir. Onun bu qeydi poemanın özündən gəlir. Nizami özü Leylini təsvir edərkən “onu adamları özünə məftun etməkdə bir əcəmtürkü”, bu günkü sözlərlə desək, bir azərbaycanlı kimi təqdim edir. M.Övfinin nümunə gətirdiyi şeirlərdən biri isə uşaqkən ölən bir oğlunun ölümü münasibəti ilə yazılmışdır.

Məhəmməd Övfidən sonra Nizami haqqında söhbət açan müəllif XIII əsrin görkəmli ədəbiyyatşünası, tarixçisi və coğrafiyaçısı Zəkəriyya Qəzvinidir. O özünün “Asarül-bilad və əxbarül-ibad” adlı məşhur coğrafi əsərində Gəncə haqqında məlumat verdikdən sonra bu şəhərdən olan böyük bir şəxsiyyət kimi Nizamidən söhbət açır, onun haqqında söhbətə “Əl-həkim Əbu Məhəmməd Nizami”deyə başlayır, əsərlərinin dini, irfani və elmi mahiyyət daşıdığını bildirir. Əgər Məhəmməd ÖvfiNizami “Divan”ını görmədiyini yazırsa, Z.Qəzvini Nizaminin “Xəmsə”dən əlavə “Divan”ı olduğunu və “Divan”dakı şeirlərin din və irfan sahiblərinin görüş və baxışlarını əks etdirdiyini yazır, daha çox əxlaqi məzmun daşıdığını qeyd edir. Z.Qəzvini əsərini ərəbcə yazmışdır. Ona görə də burada Nizami əsərlərindən nümunə verilmir.

A.Krımski Z.Qəzvininin qeydlərini təhlil edərək belə qənaətə gəlir ki, Z.Qəzvini Nizami haqqındakı bütün məlumatları onun öz əsərlərindən götürmüşdür. Z.Qəzvini Nizaminin vəfat tarixini yanlış olaraq 590 (1195)-ci il kimi göstərir. A.Krımski Z.Qəzvininin bu tarixin özünüdə onun əsərləri əsasında müəyyən etdiyini düşünür və yazır: “Hətta Nizaminin təxmini ölüm tarixi kimi götürülən 590 (1195)-ci il rəqəmi Z.Qəzvinidə, görünür ki, “Leyli və Məcnun” əsərinin yazılma tarixinə bir neçə ilə lavə etməklə bəxtə-bəxt düzəldilmişdir”. Ümumiyyətlə, Z.Qəzvininin Nizami

haqqındakı qeydləri, xüsusən onun Nizamidən bir gəncəli kimi inamla, hər hansı qeyd-şərtsiz danışması bu həqiqəti hər hansı şəkildə şübhə altına olmaq istəyən bütün cəhdləri alt-üst edir. Onun Nizami əsərlərinə verdiyi təhlillər isə göstərir ki, Z.Qəzvini əsərlərini ərəbcə yazsada, fars dilini gözəl bilmiş, bu dildə oxumaqdan, o cümlədən Nizami əsərlərini oxumaqdan ayrı bir zövq almışdır.

Z.Qəzvininin Nizami haqqındakı fikirlərini XV əsrin əvvəllərində yaşamış Azərbaycan coğrafiyaçısı Əbdürrəşid əl Bakuvi ixtisarla öz əsərinin "Gəncə" bəhsində belə təkrar edir. O yazır: "Görkəmli şair, arif və həkim Əbu Məhəmməd Nizami buradandır".

Z.Qəzvini yazır: "Əbu Məhəmməd Nizami o şəhərdəndir dahi şair, həkim və arifidi. Yaxşı "Divan"ı var. Əksər şeirləri ilahiyyat, nəsihətlər, hikmətlər, sufilərin rəmz və eyhamlarından ibarətdir. "Xosrov və Şirin" dastanı, "Leyli və Məcnun"dastanı, "Məxzənül-əsrar", "Həftpeykər" onundur. Fəxru Gurgani "Vis və Ramin" dastanını Sultan Toğrul Səlçuqi üçün nəzm etmişdi. Son dərəcə gözəlidi, şeir su kimi axıcı idi. Nizami "Xosrov və Şirin"i bu qayda ilə yazdı. Və orada çoxlu ilahiyyat, hikmət, nəsihətlər, təmsil və hekayətlər verdi. Və onu Sultan Toğrulben Səlcuq üçün nəzmə çəkdi və o Sultan şeir və şairlərə meylli idi, onlara yanında böyük yer verirdi. Və onun nüsxələri adlı adamlar arasında çox idi. Amma "Leyli və Məcnun" dastanını ondan Şirvan hökmdarı istədi, onun üçün yazdı. Və öz işində onun bənzəri yox idi. 590- cı (1193 m.) ilə yaxın vəfat etdi".

XV əsrdə Nizamidən bəhs edən təzkirələrdən biri də Əbdürrəhman Caminin "Baharıstan"adlı təzkirəsidir. Cami İran ədəbiyyatının böyük nümayəndələrindən biridir. Nizami «Xəmsə»sinə cavab olaraq "Həftövrəng"adlanan yeddi poema yazmışdır. A.Krımskionun Nizami haqqında

“Baharıstan”da verdiyi qeydlərə son dərəcədə tənqidi yanaşır və Nizaminin tərcümeyi-halı ilə bağlı müəyyən məlumat verməməsini, böyük sələfini tərifləməklə kifayətlənməsini məsələyə başdansovdu yanaşmaq kimi qiymətləndirir. Ə.Cami “Baharıstan”da yazır: “Nizami, allahtaala ona rəhmət eləsin, Gəncədəndir. Onun fəzilət və kamalı aydındır. Şərhə ehtiyacı yoxdur. “Beşxəzinə” kitabında o qədər incəlik və dəqiqliklər verilmişdir ki, kimsəyə müyəssər olan iş deyil, bəlkə bəşər qüdrətinin fövqündə olan bir işdir. O kitabdan əlavə ondan az şeir söyləyirlər.

Əvvələn, Cami dəqiq qeyd edir ki, Nizami Gəncədəndir, halbuki A.Krımski yanlış olaraq bu həqiqəti inkar etməyə çalışır. İkincisi, Ə.Cami Nizami yaradıcılığının mahiyyətini, onun Yaxın və Orta Şərq ədəbiyyatında yerini çox dəqiq müəyyənləşdirir. O özü şair olmaqla bərabər etiraf edir ki, Nizami əsərlərindəki fikir və sənətkarlıq insan qüdrətinin fövqündə olan bir hadisədir. Ə.Caminin Nizami sənətinə verdiyi bu dəyər onun verə biləcəyi hərhansı bioqrafik məlumatdan qat-qat dəyərlidir.

Ə.Cami “Nəfəhatül-üns” (1476-cı ildə yazılıb) əsərində Nizami haqqında bəzi bilgilərverməklə bərabər böyük şairin dünya görüşünü səciyyələndirməyə çalışır. O yazır: “Şeyx Nizami, uca tanrı ona rəhmət eləsin, o, bütün zahiri elmlərdən və rəsmi istilahlardan tamamilə xəbərdar idi. Hamısında əli vardı. Və üzünü uca tanrıya çevirmişdir. O öz qiymətli ömrünü əvvəldən axıra qədər qənaət, təqva, bir bucağa çəkilmə və inzivada keçirmişdir. Başqa şairlər kimi tamah və istək həvəsi ilə dünya sahiblərinin yanına getməyibdir. Bəlkə zamanın sultanları onunla yaxınlığa can atmışlar… onun beş əsərdən ibarət məsnəvisi ki, “Beş xəzinə”adı ilə məşhurdur, onların çoxu dövrünün sultanlarının xahişi ilə yazılmışdır. Onlar onun əsərləri

vasitəsilə tarix səhifələrində adlarının qalmasına ümid edirdilər. Onların çoxu əfsanə şəklində yazılmışdır. Amma həqiqətdə isə həqiqətlərin kəşfi (açılması) və irfani görüşləri bildirməyə bir bəhanədir. Bir yerdə sufilər dediyi kimi, allahın vüsalına yetişmək istəyənlər və haqq camalının müştaqı olanlar üçün haqqın vücudunun dəlili elə onun vücududur. Və onun dəlilinin şahidinə şahid onun özü olduğu haqda deyir”. Ə.Caminin bu qeydləri əlbəttə, müasir tədqiqatçı üçün də ən yaxşı bələdçi ola bilər.

Orta əsrlərdə Nizamidən bəhs edən müəlliflərdən biri də Dövlət şah Səmərqəndidir. O, 1487-ci ildə yazdığı “Təzkirətüş-şüəra” əsərində Nizami haqqında nisbətən geniş bilgilər vermişdir. O, “Arif Şeyx Nizami Gəncəvinin zikri” başlığı altında şair haqqında yazır: “Onun doğulduğu şərəfli yer Gəncədir. İqlimlər arasında ov ilayətin adını Cənzə yazırlar. Və Şeyxin böyüklüyünü, fəzilət və kamalını yazmaqdan və şərh etməkdən dil acizdir. Onun sözünün şairlik xüsusiyyətindən əlavə kifayət qədər ayrı bir məlahəti, gözəlliyi var və kamal sahibi olanlar onun xiridarıdır. Və onun ləqəbi Şeyx Nizaməd din və künyəsi Əbu Məhəmmədben Əbi Yusifben Müəyyəddir və Mütərrizi kimi məşhurdur. Ona görə ki, Şeyx Qivami Mütərrizinin qardaşıdır ki, ustad şairlərdən olmuşdur. Və o, bir qəsidə yazmışdır ki, orada bütün şeir sənətlərini işlətmişdir. O qəsidədən danışılacaq və bəzi iradlar bildiriləcək. İnşəallah təala. Danışırlar ki, Şeyx ömrünün sonlarında bir bucağa çəkilib xəlvətdə oturdu, adamlarla az ünsiyyətdə oldu. Bu barədə deyir.

***Rəna bir güldü qönçə içrəhəzin,***
***Mən kimi xəlvətə girmişdi həmin”.***

Dövlət şah Səmərqəndi Şeyxin kəramət sahibi bir insan olduğunu təsdiq üçün onun Qızıl Arslanla görüşməsi haqqında bir rəvayət danışır. “Ata bəy Qızıl Arslan Nizami ilə görüşmək arzusuna düşür. Şeyxi gətirmək üçün bir adam göndərir. Deyirlər ki, Şeyx insanlardan təcrid olunmuş həyat keçirir, sultanlar və hakimlərlə yaxınlıq etmir. Ata bəy imtahan məqsədi ilə Şeyxin yanına getdi. Şeyx kəramət sahibi olduğundan bildi ki, Atabəy imtahan məqsədi ilə gəlir, Şeyxə həqarət gözü ilə baxmaq istəyir. Şeyx qeyb aləmindən onun gözünə nəsə göstərir. Atabəy görür ki, cəvahiratla bəzənmiş bir taxt qoyulmuşdur, daş-qaşlarla bəzənmiş kəmər bağlanmış qulamlar, haciblər, nədimlər ayaq üstündə durmuşlar.

Şeyx bir padşah kimi taxt üzərində oturmuşdur. Atabəyin gözü o əzəmət və şövkəti gördü, məəttəl qaldı, təvazökarlıqla istədi ki, qalxıb Şeyxin ayağından öpsün. Qeyb aləmindən bir şahidlik gəldi. O gördü ki, zəif ixtiyar bir kişi bir mağaranın qarşısında bir xalça parçası üzərində oturmuşdur. Qarşısında kitab, mürəkkəb, qələm, namazlıq, əsa və bir neçə kağız var. Təvazö ilə Şeyxin əlini öpdü və ondan sonra onun Şeyxə münasibəti ən yüksək bir dərəcədə oldu. Şeyxdə qəlbinin bir bucağında ona yer verib himmət göstərdi. Ara-sıra Atabəyin görüşünə gəldi, söhbət etdi və Şeyx bu vəziyyəti belə bəyan edir:

***Dedim bir dəm ayağından öpüm mən,***
***Dururdu asiman gördüm yerindən”.***

Bəzən belə iddia edirlər ki, bu rəvayəti “Xosrov və Şirin” əsərindəki Qızıl Arslanla Nizaminin görüşü bəhsi əsasında Dövlət şah uydurmuşdur. Bizə elə gəlir ki, Dövlət şahın verdiyi bu rəvayət hansı şəkildəsə Nizaminin öz

əsərindən qidalansada, onun yaranması daha əvvəl baş vermişdir. Bu rəvayət Nizami vurğunu olan insanlar tərəfindən yaradılmış olmalıdır. Dövlət şah isə sadəcə olaraq onu yazıya alıb, əsərinə daxil etmişdir. Həmdə bu rəvayətin sufi məclislərində sufilər tərəfindən yarandığını demək daha ağılabatan görünür. Bu isə Nizami şöhrətinin, sevgisinin başqa bir ifadəsidir. Dövlətşahın Nizami ilə bağlı verdiyi bilgilərdən biri də onun Şeyxi Əxi Fərrux Zəncaninin müridi kimi təqdim etməsidir. O yazır: "Və Şeyx Əxi Fərrux Zəncaninin müridlərindən idi". Düzdür, Əxi Fərrux Zəncani Nizaminin təvəllüdündən əvvəl ölmüşdür. Ancaq Nizaminin əxiliklə, o cümlədən Əxi Fərəc (yaxud Fərrux) Zəncani ilə bağlılığı haqqında bilgini Dövlətşah şairin "Divan"ından, yaxud başqa qaynaqlardan ala bilərdi. Biz burada mühüm onu hesab edirik ki, Dövlətşah Şeyxin əxiliklə, onun ən məşhur şeyxlərindən olan Əxi Fərəc Zəncani ilə bağlı bir fikir, irfan adamı olduğunu bildirir. Dövlətşah təzkirəsindəki ən qiymətli fikirlərdən biri onun indi əldə olmayan, hətta orta əsrlərdə də çox adamın görmədiyi "Divan"ı ilə bağlıdır. Hələ şairin müasirlərindən olan Məhəmməd Ovfi bu "Divan"ı görmədiyini yazır. Dövlətşah isə Nizami "Divan"ını görən bir adam kimi yazır: "Şeyx Nizaminin "Divan"ı "Xəmsə"dən əlavə iyirmi min beytə yaxındır. Çox gözəl qəzəllər, yüksək sənətkarlıqla yazılan çoxlu məsnu şeirlər vardır". "Divan" haqqında verilən bu bilgi göstərir ki, Dövlətşah Nizami "Divan"ını şəxsən görmüş, oxumuş, oradakı şeirlərin keyfiyyətini, sənətkarlıq xüsusiyyətlərini incələmiş, hətta "Divan"dakı şeirlərin ümumi həcmini, iyirmi min beytə yaxın olduğunu müəyyənləşdirmişdir. Bu cəhətləri nəzərə alaraq biz onun Nizaminin Əxi Fərəc Zəncaninin müridi olması, Nizaminin Qivami ilə qardaş olması və Nizaminin də Mütərrizi adı ilə tanınması, eyni zamanda Nizami

“Divan”ının 20 min beyt həcmində olması fikirlərinin həqiqətin ifadəsi olduğu qənaətindəyik.

Ancaq Dövlətşahın səhvi ondadır ki, “Vis və Ramin”əsərinində Nizami tərəfindən yazıldığını iddia edir. Guya Nizami cavan yaşlarında bu əsəri Sultan Mahmud ibn Arslanın adına yazmışdır. İndi, əlbəttə, bu əsərin Nizami tərəfindən yazılmadığını sübuta ehtiyac yoxdur. Əsərin Nizaminin təvəllüd tarixindən çox-çox əvvəl Fəxri Gürgani tərəfindən yazıldığı bir həqiqətdir. Dövlətşahın Nizaminin vəfat tarixi ilə bağlı verdiyi bilgidə yanlışdır. O, Nizaminin 576-cı, yəni 1180-ci ildə vəfat etdiyini yazır.

Dövlətşahın Nizami haqqında qeydləri bu sözlərlə tamamlanır: “Şeyxin nurlu qəbri Gəncədədir. Şeyxin dövründə «Xəmsə»ni bir yerə toplamayıblar, hər dastan ayrı-ayrılıq dam övcud olmuşdur. Ancaq Şeyxin vəfatından sonra beş kitabı bir cilddə toplamış və fəzilət sahibləri ona “Xəmsə” adı vermişlər”. Bizə elə gəlir ki, bu son qeydlərdə maraqlı və əhəmiyyətlidir. Dövlətşah Səmərqəndi bəzi səhvlərinə baxmayaraq Nizami haqqında başqalarına nisbətən daha çox bilgi verən bir təzkirəçidir. Onun verdiyi bilgiləri sonrakı dövr təzkirəçiləri, eləcədə Şərq və Qərb müəllifləri təkrar etmişlər.

Məsələn, əsərini 1524-cü ildə bitirən Qiyasəddin Xondəmir “Həbibüs-siyər” adlı məşhur əsərində irəli sürdüyü fikirləri əsasən Dövlətşahdan götürür, ancaq həmin fikirləri yeni biçimdə təqdim edir: “O cümlədən böyüklərin, şeyxlərin və fazillərin ən adlı-sanlısı olan Şeyx Nizami Toğrulun müasiri idi və o cənab zahiri elmlərdən və alimlərin rəsmi istilahlarından tam bəhrə götürmüşdür. Amma əzəli yardım ilə dünyəvi işlərdən əl çəkmiş və axirət dünyasının dərəcələrini əldə etməyə çalışmışdır… və Şeyx Nizami əziz ömrünü cavan çağlarından başlayaraq ömrünün

sonuna qədər qənaət və üzlətdə keçirmişdir. Başqa şairlər kimin əfs və tamaha tabe olub sultanların və cah-cəlal sahiblərinin dərgahına getməmişdir. Bəlkə həmişə hökm və fərman sahibləri onun görüşünə gəlmişlər. Onun kimya təsirli söhbətlərindən özlərinə bir uğur aramışlar”. Buradan göründüyü kimi, Q.Xandəmir Dövlətşahın fikirlərini öz sözləri ilə ifadə edir, yəni o da Dövlətşahla razılaşır və hətta bəzən onun Nizami barədəki fikirlərini bir az daha qətiyyətlə irəli sürür. Aşağıdakı qeydlərdə də bunun şahidi oluruq: “Və o saf təbiətli Şeyx öz qəlb oxşayan “Xəmsə”sini ki, yer üzərində onun oxşarı, bənzəri yoxdur, tac-taxt sahiblərinin xahişi ilə nəzmə çəkmişdir. Və o calal sahibi sultanlar ümid edirdilər ki, o irfan dolu şeirlər vasitəsi ilə onların adları zamanın səhifələrində əbədi qalacaqdır, ona görə o cənabdan onların adına kitab yazmağı xahiş edirdilər”.

Ancaq onuda qeyd edək ki, haqqında söz açdığımız bu təzkirə müəlliflərindən heç biri Nizaminin köklü bir Gəncəli olduğuna şübhə etmir. Ondan ancaq bir Gəncə əhli kimi, Gəncə torpağının yetirdiyi bir sənətkar kimi söhbət açır.

Nizamidən bəhs edən təzkirəçilərdən biri də “Xülasətül-əşar vəzibdə tül-əfkar” müəllifi Təqiəddin Məhəmməd ibni Şərəfəddin Əli Zikri Kaşanidir. 1585-ci ildə yazılan bu təzkirədəki Nizami bəhsinin xülasəsi aşağıdakı kimidir: “Ləqəbi Şeyx Nizaməddin Əhmədben Yusif ibn Müəyyəddir. Künyəsi ƏbuMəhəmməd, təxəllüsü Nizamidir. Tarix kitablarında Mütərrizi kimi tanınır, Bəziləri deyirlər ki, seyid olmuşdur. Şahanə bir qartal kimi idi. Yol göstərənlik göylərində qanad açmış müqəddəs yuvalı bir quş idi. Onun kəramətinin qanadları altında ağılsahibləri hadisələrin qızmar günəşinin istisindən nicat tapırdılar, böyük fəsahət və bəlağə təhli olanlar, bəlkə dövrün başqa böyükləri və irfan sahibləri onu tərifləmək üçün dil açmışlar. Onun ilham bəyanlı dilini

